Авторские права на статьи, опубликованные в нашем журнале, принадлежат авторам и публикуются в открытом доступе по лицензии CC-BY-NC.

## Giriş

Bəşər tarixi boyunca insanlar fərqli hisslər yaşamış, müxtəlif yaşantılara öz düşüncələrinin nəticəsi olan duyğular bəsləmişlər. Zaman keçdikcə, həmin hisslərə fərqli adlar verilmiş və bu duyğuları yaşamağa səbəb olan hallar araşdırılmışdır. Körpəlikdən gələn, ömürboyu yaşayan hisslərdən ən önəmlisinin qorxu olduğunu söyləyə bilərik. Qorxu insanlıq üçün faydalı, öyrədici, ən əsası, təhlükələrdən qoruyucu sipər funksiyasını yerinə yetirir. Əgər qorxunun dərəcəsi artarsa, o, çox zərərli, insanın gündəlik həyatına müdaxilə edən, rahat yaşamasına əngəl törədən, travmalara səbəb olan, fobiyalara çevrilən duyğu hissinə çevrilir.

Fobiya – qorxu hissinin şiddətli mərhələsidir. Qorxudan fərqli olaraq, fərdin gündəlik həyatına təsir edən, idarəedici xarakterə malik olan bir duyğudur. Fobiyanın müxtəlif növləri və xüsusiyyətləri mövcuddur; yəni hər fobik davranış və ya düşüncə eyni deyildir. Adətən, fobiyaları insanlar, qorxuda da olduğu kimi, uşaqlıq dövründən qazanırlar. Ümumi götürdükdə fobiya – həll edilməmiş qorxu duyğusunun üst mərhələyə keçməsidir. Hansı ki, həmin qorxulara zamanında əhəmiyyət verilməmiş, yaxud fərqinə varılsa da, bu məsələyə dərindən nəzər yetirilməmişdir.

Daha çox uşaqlıq dövründə rast gəlinən qorxu və fobiyalara vaxtında ciddi əhəmiyyət verilmədikdə, yaş artdıqca o, çətin forma alır, fərdin həyatına, psixologiyasına mənfi təsirlərini göstərir. Bu isə ailə, əsasən də valideynlərin uşaqla münasibəti, onların qarşılıqlı hissi əlaqəsi, yuxarı yaşlarda müəllim və məktəb yoldaşları ilə olan təmaslarla sıx bağlıdır. İnsan sosial varlıqdır və cəmiyyət arasında bir fərd olaraq şəxsiyyət kimi mövcuddur. Vaxtında həllini tapmayan, fərqinə varılmayan hər bir qorxu və fobiya insan həyatının ayrılmaz yaşam parçasına çevrilir.

Uşaqlıq dönəmi insanın inkişafı, təkmilləşməsi və inkişafı üçün ən əsas, ilkin mərhələdir. Bu dövrdə qazanılan duyğu və davranışları, demək olar ki, həyatboyu özümüzlə daşıyırıq. İnsan qorxuların bəzilərini özü ilə böyüdüb, həyatının sonrakı mərhələsinə adladır. Hər mərhələdə qorxunun üzərinə düşülmədikdə, növbəti hadisə və ya

vəziyyətdə bu duyğu-hiss daha da artır. Qorxu getdikcə zədəyə səbəb olur, fobiya halını alır. Bunun da həlli, dəf edilməsi üçün aylar, illər lazım gəlir. Ümumiyyətlə, tədqiqatçıların araşdırmalarına görə, insanda qorxuya səbəb olan əsas amil onun düşüncələrdir. Yəni hər vəziyyət, hal, hadisə fərd üçün eyni dərəcədə təhlükəli, qorxuducu və hürküdücü olmaya bilər. Bəzisinə görə isə qorxuducu deyil, əksinə, sevindirici, xoşbəxtlikgətirici ünsürə çevrilə bilər. Buna görə də hadisələri kateqoriyalara bölüb, "Bu, qorxu gətirəndir, digərləri isə belə deyildir", – söyləyə bilmirik.

Məqalədə, əsasən, iki amilə diqqət çəkilir. Birincisi, uşaqlıqdakı təşvişlər, digəri – qorxuların üst mərtəbəsi olan fobiyalardır. Uşaqlıq dövrünü araşdırmaqda səbəb insanın qorxu duyğusu ilə ilkin olaraq məhz bu dövrdə tanışlığıdır. Fərd dünyaya göz açdığı zaman bu hiss ilə təkmilləşir, ətraf aləmi buna görə qavrayır, qorxunu hiss etmədiyi zaman özünü güvənlikdə hiss edir. Bu da fərdin psixoloji, fiziki inkişafı, immunitet qazanması üçün önəmli ünsürlərdən biridir. Bu səbəbdən də məqalədə uşaqlıq dövrünün qorxu və fobiyalarına xüsusi diqqət verilməyə səy göstərilmişdir. Həmçinin tədqiqatın vəzifəsi uşaqların psixologiyasına qorxu duyğusu və fobik halların təsirini araşdırmaqdır.

Tədqiqatda istifadə olunan metod uşaqlıq dönəmində meydana gələn, yaşanılması qaçılmaz olan qorxu və fobik halları araşdırmaq, bu istiqamətdə elmi tədqiqatlara əsaslanmaqdır. Məqaləni qələmə almaqda əsas məqsəd insanın ilkin mərhələsi olan uşaqlıq dövrünün qorxularını daha yaxından tanımaq, təşvişin-həyəcanın yaranmasında əsas rol oynayan məqamları araşdırıb üzə çıxarmaqdır. Həmçinin qorxunun fobik hal alması yönündə mütəxəssislərin araşdırmalarını, tədqiqatçıların görüşlərini nəzərdən keçirməkdir. Mətn, əsasən, üç mövzunu əhatə edir: uşaqlıq mərhələsi, qorxu və fobiya. Bu mövzular uşaqlıq dövrünün hansı mərhələsində neçə növ qorxulara daha çox rast gəlindiyini, qorxu nədir və necə yaranır, uşaqlıqda həyəcanın meydana çıxmasına səbəb olan amilləri, fobiyaların müxtəlifliyi və necə əmələ gəldiyi, təşvişin insanın daimi yaşayışına təsiri sahələrini əhatə edir. Yazıda, eləcə də bu sahənin mütəxəssisləri tərəfindən araşdırılmış və əsasən, bu istiqamət ilə məşğul olan tədqiqatçıların fikirlərinə

yer verilmişdir. Hər bir araşdırmada olduğu kimi, bu məqalədə də sahə təhlilçilərinə, tədqiqatçıların əsərlərinə nəzər yetirilmiş və lazımi yerlərdə qeydlər verilmişdir.

## 1. "Qorxu" anlayışı və onun yaranma səbəbləri

Qorxu – insanın ən təməl duyğularından biridir. Biz qorxu sayəsində təhlükələrdən qorunur və hər hansısa bir bəlanın gələcəyini öncədən bu hissimiz vasitəsilə duyuruq. İnsanın "təməl duyğusu" söyləyiriksə, deməli, qorxu hissi dünyaya gəlişimizdən bizimlədir. Bəs qorxular bizimlədirsə, bu, sadəcə, fitrətdən gəlir, yoxsa təlaşı, həyəcanı sonradan öyrənirik? Bu sualımızın cavabı növbəti başlıqlarda qeyd olunub.

"Qorxu" anlayışına həm Şərq, həm də Qərb alimləri fərqli təriflər vermişlər. Onlara nəzər salaq: "Qorxu – təhlükə düşüncəsinin oyandırdığı çılğın bir reaksiyadır" (Gençöz, 1998, 10); həmçinin "Qorxu – insanın körpəlikdən yetkinliyədək inkişaf dövrlərinin hər birində müşahidə olunan, şiddətli psixoloji stimulla bağlı yaranan duyğu kimi müəyyən edilir" (Dönmez, 2023, 46). Qorxu hər fərddə eyni hala, hadisəyə, məfhuma, canlı və ya cansıza qarşı bir ola bilməz. Fərdin, adətən, qorxuları və onlara göstərdikləri əks-davranışlar müxtəlifdir. Başqa bir tərifdə qorxu belə açıqlanır: "İnsanın təhlükə, həyəcan, təşviş halında qorxu obyektinə qarşı ifadə etdiyi reaksiya başqa fərdlər tərəfindən adi qarşılanırsa, bu amil "obyektiv qorxu" adlanır" (Şahin, 2019, 117).

"Qorxu" anlayışına klassik İslam mütəfəkkirləri də təriflər vermişlər. İslam alimlərindən Əbu Bəkr ər-Raziyə görə qorxular insanlara əzab verir. İnsan ağlı sayəsində qorxularına qalib gələ bilər. Farabi qorxunu cəhalətlə əsaslandırır. Öz orijinal yanaşmasında o, insanları qorxudan azad etməyə çalışır (Saruhan, 2006, 92-94).

Psixoanaliz məktəbinin qurucusu olan Ziqmund Freydə görə qorxu – insanı kənardan təhdid edən real təhlükəyə qarşı göstərilən reaksiyadır. Karl Yunq isə "Komplekslərin əlamətləri qorxu və dirənməkdir", – deyib.

Gençöz qorxunu ümumən belə tərif edir: “Qorxu – daxilində olduğumuz vəziyyətə deyil, həmin hadisə, hal, yaxud vəziyyətlə bağlı formalaşdırdığımız düşüncələrimizə verdiyimiz reaksiyadır. Bu səbəbdən, qorxunu dəf etmək üçün idarə bizim özümüzdədir. Onun fərqində olub, qorxu hissi oyandıran düşüncə tərzimizin doğru, yaxud yalan olduğunu sorğu-sual etməyimiz lazımdır. Bu sorğulama nəticəsində qorxduğumuz toplumla üzləşib, fobiyamıza qalib gələ bilərik. Bu bizə yeni bacarıqlar qazandıracaq, özümüzə olan güvənimizi artırıb, mücadilə aparan bir şəxsiyyət kimi formalaşmamıza önəmli faydalar verəcəkdir” (Gençöz, 1998, 9).

Qorxunun necə yaranmasına nəzər yetirək. İnsanların əksəriyyətinin, hətta deyərdik, 80 faizinin qorxusu, zədələri uşaqlıqda yaranmışdır. Bu isə uşaqlıq dövründə insanları hürküdən, həmin an onların duyğularının kəskinliyinə səbəb olan hadisələrdir. Bu şəxslər böyüdükcə həmin qorxuları da özləri ilə yaşadıb, fobiyanın həll yollarını çətinləşdirən nəticəyə yetişirlər. Uşaqlıq dövrü, psixoloqların fikrincə, insanın ən önəmli inkişaf dövrüdür. Həmin mərhələ insanların dünya ilə əlaqələrinin daha da formalaşdığı, sonsuz suallarına cavablar tapmağa çalışdığı, ətrafı öyrənmək üçün səy göstərdikləri dönəmdir (Şahin, 2019, 120).

Qorxan insan təşviş ilə birgə gələn təhlükə düşüncəsini özünə aşılamış olur. Bu da fərd üçün müəyyən tezlikdə baş verdikdə, travmalara səbəb ola bilir. Bu zaman şəxs həm psixoloji, həm də fiziki baxımdan mürəkkəbliyə malik olur, çətinliyə uğrayır..

Qorxunun təriflərinə diqqət etsək, bəzi ortaq düşüncələrin mövcud olduğunu görürük. Bunlardan ən başlıcası, qorxunun müəyyən vəziyyəti deyil, insanın həmin halla bağlı düşüncələridir, təsəvvürüdür. Hər kəsin qorxuları eyni olmur. Bir fərd üçün qorxu ifadə edən hal (vəziyyət, hadisə) başqası üçün tamamilə fərqli duyğulara səbəb ola bilir. Nümunə olaraq belə bir misal verək: hündürlükdən tullanmaq biri üçün zövqlü, həyəcanverici, xoş bir fəaliyyət ola bilər; başqa bir şəxs üçün hürküdücü, təhlükəli görünən və qorxuducu ola bilər. Bu cür nümunələr çoxluq təşkil edir.

Qorxular, adətən, fərdin uşaqlıq dövrünün müəyyən zaman kəsiyində yaranır. İnsanın daxili aləmində, mənəviyyatında, düşüncələrində, duyğularında yer alır, onun yaşam tərzinə əks-fəaliyyət təşkil edir. İnsanın hadisələrin baş verməsinə nəzarət etməməsi fikri, onların öz neqativ vəziyyətinə səbəb olan problemi birbaşa həll etməsinə maneçilik törədir. Qorxunun yaranması və davam etməsini misal çəkək; hündürlükdən qorxan insan uca yerə qalxdıqda, "Bu yer çox yüksəkdir, hər an düşə bilərəm", – deyə düşünə bilər. "Mən tezliklə özümü hiss etməyəcəyəm və huşumu itirəcəyəm"; "Həyatımın son anlarını yaşayıram" – bu cür fikirlər ürək döyüntüsünün artmasına, tərləməyə, titrəmə kimi fizioloji reaksiyalara səbəb olur. Bu artan fizioloji reaksiyalar yuxarıda verilən fikirlərin daha güclü və müxtəlif forma almasına səbəb olur. Bu da yaşanan qorxunu, bunun müqabilində fizioloji reaksiyaları daha da artırır. Bu halın davam etməsi nəticəsində insan özünü çarəsiz hiss edir, hadisəni idarə edə bilmədiyini düşünür və beləliklə, qorxu böhrana çevrilir (Gençöz, 1988, 12).

Bir qrup tədqiqatçının birlikdə ərsəyə gətirdiyi məqalədə göstərilir ki, Öhman qorxu və narahatlığın məməlilərin inkişaf etmiş müdafiə sistemlərindən yaranan emosional hadisələrlə sıx əlaqəli olduğu fikrini irəli sürmüşdür. Həmçinin narahatlıq və qorxunun güclü mənfi hisslər və şiddətli fiziki reaksiyalar ehtiva etdiyini, bunun da təhdid mərkəzini aktivləşdirdiyini bildirir. Bundan əlavə, qorxu və narahatlıqla əlaqəli ümumi müşahidə edilə bilən davranış hərəkətləri də diqqət mərkəzinə gətirilir. Bu davranış hərəkətləri qaçma, qaçınma, hipersayıqlıq, disfunksional hərəkətsizlik, diqqət və performansda çatışmazlıq şəklində ola bilər (Akçay, Bükün, Köse, 2022, 655).

İnsanların qorxularının səbəblərini öyrənmək, onun necə yarandığı və bu istiqamətdə digər maraq doğuran suallara cavab tapmaq üçün bir çox psixoloqlar tərəfindən təcrübələr aparılmışdır. Bunların bəziləri heyvanlar, digərləri insanlar, körpələr, uşaqlar üzərində sınaqdan keçirilmişdir. Yazının növbəti hissələrində təcrübələrlə bağlı və onların nəticələri ilə əlaqədar ətraflı məlumat verəcəyik.

Qorxunun necə olduğu və yaranması haqqında qısaca deyə bilərik ki, o, insanın düşüncələrinin məhsuludur. Bəzi qorxular həmin

an baş verən hadisələrin səsi, sevmədiyimiz əşyalar, insanlarla əlaqəsi ilə də yaxından bağlı ola bilər. Bu da qeyd olunmalıdır ki, qorxu və narahatlıq insan təbiətinə xasdır, bunlar bir-birindən ayrıla bilməyən hisslərdir. Bu duyğular idarə olunmayanda insan həyatına mənfi fiziki-psixoloji təsir göstərir. Onların ciddi problemlərə gətirdiyi isə bir reallıqdır. Hər bir fərd və cəmiyyət, hətta bunlardan kənarda olanlar digər canlılar da özlərini təhlükəsiz hiss etdikləri bir mühitdə yaşamaq istəyirlər. Güvənin olmadığı bir yerdə can və mal təhlükəsizliyindən danışmaq mümkün deyil. Heç kim belə bir mühitdə yaşamaq istəməz, həmin cəmiyyətə girmək istəməz. Buna görə də sözügedən mühit xaos və zorakılıqdan azaddır (Karataş, 2023, 770).

## 2. "Fobiya" anlayışı, onun növləri və yaranma səbəbləri

Fobiyalar bir çox insanın həyatında adi hal almış vəziyyətdir. Bu, bəzi insanların günlük yaşayışını əhatə edən idarəçi rolunu oynayır. İlk səslənişdə absurd kimi görünə bilir, lakin belə deyildir. Birinin it fobiyası varsa, o, həmin canlının olmadığı məkanlara getməyə çalışır; təyyarə fobiyası olan kəs digər nəqliyyat vasitələrindən istifadə etməyə səy göstərir; bəziləri yalnızlıqdan, digərləri insan arasına çıxmaqdan, kütlə içində olmaqdan narahatlıq keçirir; beləliklə, nəyə/kimə fobiya bəsləyənlər bu ortamlardan uzaq qaçır. Bu fobiyalar bəzən insanların fərqində olmasa da, o, fərdin idarəedicisinə çevrilmiş olur. Bəs ümumiyyətlə, fobiya nədir? Necə yaranır, fərdin həyatında hansı üsulla hakimiyyət qura bilir? Məqalədə qorxu və fobiyalar nədir, onlar necə yaranır, bunlar haqqında bəhs ediləcək. Qorxu mövzusundan qismən söhbət açsaq da, indi isə fobiya qavramına verilən təriflərdən bəhs edək. Qorxu və fobiyanın oxşar və fərqli xüsusiyyətlərindən danışaq.

Fobiya – müəyyən vəziyyət və ya obyekt qarşısında həddindən artıq və davamlı qorxu ilə əlaqəli narahatlıq duyğusudur. Fərd, yaxud müəyyən canlı qorxu mənbəyinə məruz qalaraq dərhal narahatlıq reaksiyası verir. Tədqiqatruhlu məqalə və əsərləri araşdırdıqda, statistikalara görə, qadınların kişilərə nisbətən fobik hallara daha çox məruz qaldıqlarını görürük. Tədqiqatlar göstərir ki, fobiyaların tipik əlamətlərinə ürəkbulanma, titrəmə, sürətli ürək döyüntüsü, qeyri-reallıq hissləri

və qorxu obyekti ilə məşğulluq kimi amillər daxil ola bilər. Çerinin araşdırmasına əsaslanaraq deyə bilirik ki, Amerika Psixiatriya Assosiasiyası (APA) üç fərqli fobiya kateqoriyasını müəyyən edir:

1) Sosial fobiyalar. Hazırda "sosial anksiyete pozuqluğu" kimi tanınan bu fobiya bir insanın mühakimə oluna biləcəyi, yaxud utanacağı sosial vəziyyətlərdən qorxma ilə xarakterizə olunur.
2) Aqorafobiya. Bu fobiya qaçmağın çətin olduğu yerlərdə olmanın irrasional və həddindən artıq qorxusunu ehtiva edir. Bu, izdihamlı yerlərdən və ya hətta evdən çıxmaq qorxusunu ehtiva edə bilər.
3) Spesifik fobiyalar. İnsanlar ilanlar, hörümçəklər və ya iynə vurdurmaq kimi müəyyən bir obyektə qarşı fobiyaya malik olduqlarından danışdıqda, onlar spesifik qorxuya işarə edirlər (Cherry, 2023).

İnsanlar bəşər tarixi boyunca qorxu və fobiyaların nə olduğunu Qədim yunan dövründən etibarən anlamağa çalışmışlar. Təxminən, "qorxu" mənasına gələn və bu anlam üçün istifadə olunan "fobos" kəlməsini də ilk işlədən yunanlı həkimlər olmuşlar. Fəqət, bu adlandırma mövzunu tam olaraq açıqlaya bilmir (Davidson, Ponnamperuma, 1983, 33).

Əlbəttə, insanın qorxuları hər zaman sağ qalmaq üçün xidmət göstərmir. Fobiyaları olan şəxslər qorxu obyektindən və ya təhlükəli vəziyyətdən daim yan keçməyə, bu hala güclü qorxu və ya narahatlıqla dözməyə çalışırlar (Mackay, 2009, 91,92). Amerika Psixiatriya Assosiasiyası psixi pozuqluqların diaqnostik və statistik təlimatının V nəşrində (DSM-5) ən çox yayılmış fobiyaların bir neçəsini təsvir edir ki, ən məşhur olanları bunlardır:

– aqorafobiya: kütlə olan yerdən qorxmaq;
– aqrofobiya: yüksəklikdən qorxmaq;
– klaustrofobiya: qapalı yerlərdən qorxmaq;
– atefobiya: uçurumlardan qorxmaq;
– aylurofobiya/qatofobiya: pişiklərdən qorxmaq;
– kinofobiya: itlərdən qorxmaq;

– ofidofobiya: ilanlardan qorxmaq;
– zoofobiya: hər cür heyvanlardan qorxmaq;
– niktofobiya: qaranlıqdan qorxmaq;
– gemofobiya: qandan qorxmaq;
– xayrafobiya; ictimai yerlərdə sevinməkdən, şənlənməkdən qorxmaq;
– avtofobiya/monofobiya: tək qalmaqdan qorxmaq;
– demofobiya: kütlə içində olmaqdan qorxmaq;
– aerofobiya: təyyarələrdə getmək qorxusu;
– yatrofobiya: həkimlərdən qorxmaq (DSM-5, 2014, 120).

Bəs bu fobiyalar necə yaranır? Hansı vəziyyət, mühit, hadisə, hal, şərait bunların meydana gəlməsinə səbəb olur? Necə olur ki, insanlar bu fobiyaları illərlə özləri ilə daşıyırlar? Hansı səbəbdən şəxs fobiyanın onun idarəedicisinə çevrilməsinə icazə verə bilir?

Əvvəlcə bunu qeyd edək ki, qorxunun, fobiyanın səbəbini hər zaman tapmaq mümkün olmur. Bəzi qorxu və fobiyalar konkret bir hadisə və ya vəziyyətdən təsirlənib yaranmır. Bir sıra fobiyalar müəyyən hadisələrin üst-üstə gəlməsindən meydana gəlir ki, bunları da müəyyən etmək çox çətindir.

Eyni zamanda, valideynlərin yanlış münasibət və təlimi olmadan da uşaqda fobiya yarana bilir. “Fobiya” dedikdə, insanın normalda qorxmayacağı obyekt və ya vəziyyətdən həddindən artıq və daimi qorxduğunu anlayırıq. Uşaq belə qorxunun mənasının olmadığını anlayır. O, özünü saxlaya bilmir, qorxduğu obyekt və vəziyyət qarşısında qaçma və ya qaçınma reaksiyası göstərir. Qorxduqları vəziyyət və obyektlə qarşılaşdıqda, uşaq ciddi narahatlıq keçirir. Bu narahatlıq kənardan kədərli görünmək, ağlamaq-sızlamaq və ya yaxınlığınızdakı birini möhkəm qucaqlamaq şəklində əks oluna bilər. Qorxudan yaranan sıxıntı və qaçma reaksiyaları uşağın gündəlik həyatına və təhsilinə təsir edir (Manav, 2011, 204).

Fobiyaların meydanagəlmə səbəbləri mövzusunda müxtəlif görüşlər mövcuddur. Bununla bağlı Mücahit Öztürkün məqaləsindəki araşdırmalara görə, əvvəllər fobiyanı daha çox fərddəki daxili qarışıqlıqların nəticəsi kimi meydana gələn narahatlığa cavab olaraq, insa-

nın özünü müdafiə etməsində görürdülər. Fobiya vərdiş olunmuş davranışlar kimi təqdim edilir, bu yöndə hətta araşdırmalar, görüşlər də hakim idi. Son illərdə isə irsiyyət və beyindəki bəzi maddələrin mübadiləsində mövcud olan pozuntuların fobiyanın yaranmasına təsir etdiyi düşünülür (Öztürk, 2020).

Fobiyalar fərdi olmaqla yanaşı, həm də sosial xarakter də daşıyır. Qorxu ətrafımızdakı hadisə, əşya və ya fəaliyyətlə əlaqəlidir. Sosial xarakteristikasına görə, fobiyalara "sosial qorxu" deyilir. Sosial fobiya – başqaları tərəfindən müşahidə olunmaq qorxusu səbəbindən ünsiyyət mühitindən qaçmaqdır. Bu, əsasən, yeniyetməlik dövrlərində başlayır. Sosial fobiya gəncin öz şəxsiyyətini şübhə altına aldığı, bir çox inkişaf tapşırığını yerinə yetirməli olduğu yeniyetməlik kimi çılğın bir mərhələdə fərdin inkişafına böyük maneçilik yaradır. Ümumiyyətlə, sağlam yeniyetməlik üçün zəruri olan psixoloji yardım sosial fobiya daşıyan yeniyetmələr üçün daha vacibdir.

Sosial fobiyanın yaranma yaşını müəyyən etmək çətindir. Bununla belə, sosial fobiyanın yaranma yaşı ilə bağlı klinik və epidemioloji tədqiqatlar göstərir ki, pozuntu, adətən, yeniyetməlik dövründə başlayır. Bu mövzuda bir çox araşdırma mövcuddur, həmçinin Nuray Ergünün tədqiqatından da görürük ki, fobiyanın başlanğıc dövr ortalaması 13-14 yaş arasında dəyişir. Fobiyanın 25 yaşdan sonra başlaması nadir hallarda rastlanır. Sosial fobiyanın, təxminən, 40 faiz hallarda 10 yaşından əvvəl, 95 faiz hallarda isə 20 yaşdan qabaq başlandığını bildirən nəşrlər, tədqiqatlar mövcuddur (Ergün, 2005, 84, 85).

Məlum olduğu kimi, fobiya sosial olmaqdan daha çox fərdi xarakter daşıyır. Gençöz və Minçenin nümunələrində deyilir ki, bir şəxsin qorxularını başa düşmək üçün fobiyanın elementlərinin birləşməsi və bir araya gətirilməsi, bu ünsürlərin mənasından daha vacibdir. Fobiyada elementlər arasında yerdəyişmə olsa da, bu mövqelərin məsafəsi dəyişmir. Desensitizasiya – koqnitiv davranış üsulları ilə fobiyanı müalicə edən, qorxuları azaldan, müəyyən təhlükəni yox edən bir alətdir. Bu vasitə ilə əsasını qorxu təşkil bir sıra fobik xatirələrin meydanaçıxma ehtimalı azaldıla bilər, ancaq araşdırmalar bu baxımdan da ziddiyyətli və tutarsızdır (Minçe, Gençöz, 2020, 206).

Xəstəliklərin və əlaqədar sağlamlıq problemlərinin beynəlxalq statistik təsnifatı – "İCD-10" (İnternational Classification of Diseases) kodlamasını əldə edə bilməsək də, Nuray Ergünün məqaləsində bununla bağlı lazımi məlumatları izlədik. "İCD-10"dakı tərifə görə, sosial fobiya daha çox yeniyetməlik dövründə başlayır; izdihamlı, qarışıq mühitdən fərqli olaraq, daha çox kiçik qruplara fobiyası olan insanlar tərəfindən müşahidə qorxusu hissi ilə izlənilir. Bu hiss inkişaf edir, güclənir. Bu, sosial mühitlərdən qaçma, çəkinmə davranışına səbəb olur. Digər fobiyaların əksinə olaraq, sosial qorxu qadınlarda və kişilərdə bərabər səviyyədə izlənilir (Ergün, 2005, 84).

"DSM-IV"də sosial fobiya necə xarakterizə olunur? Bu, şəxsin tanımadığı insanlarla qarşılaşdığı, başqalarının nəzarəti altında ola biləcəyi, bir və ya bir neçə sosial fəaliyyəti yerinə yetirdiyi bir vəziyyətdən fərqli və davamlı qorxu kimi müəyyən edilir. İnsan alçaldıcı və ya utancverici bir şəkildə davranacağından qorxur (və ya narahatlıq əlamətləri nümayiş etdirir).

Ən çox müşahidə olunan sosial fobiyalar aşağıdakılardır:

1. Başqaları ilə tanış olmaq, tanış edilmək.
2. Hakimiyyətdə olan insanların təqdim olunması.
3. Telefondan istifadə.
4. Qonaqları qəbul etmək.
5. Bir işi görərkən izlənmək.
6. Zarafat edilmə (başqalarının zarafat mənbəyi olma).
7. Tanışlarla nahar etmək.
8. Restoranda nahar etmək.
9. Başqalarının qarşısında yazmaq.
10. İctimai ayaqyoludan istifadə etmək.
11. İctimaiyyət qarşısında çıxış etmək.
12. Alış-veriş etmək ( DSM-4, 2010, 45, 126, 445, 451, 452).

Göründüyü kimi, sosial fobiyalar fərddən-fərdə müxtəliflik nümayiş etdirir. Birində fərqli duyğulara səbəb olan fobik hal, digərində tamamilə xoş hisslər yaradır. Ümumiyyətlə, fobiyanın etiologiyasını və klinik görünüşünü izah etmək üçün klassik, travmatik təcrübənin olması, stressə həssaslıq, genetik ötürülmə və gen-mühit qarşılıqlı əlaqəsi

kimi bir çox model və fərziyyə irəli sürülüb. Bununla belə, bu görüşlər bütün spesifik fobiyanın alt tipləri üçün keçərli deyildir. Heyvantipli fobiyalar uşaqlar tərəfindən birbaşa təmasdan deyil, çox vaxt eşitmə və ya müşahidə kimi mənbələrdən əxzolunma vasitəsilə əldə edilir (Koç, Hocaoğlu, 2023, 146).

Hər insanın hiss etdiyi qorxu, fobiya, zədə, yaşadığı hal, məkan, obyekt və ya hadisə müxtəlif olsa da, əslində, daxili dinamiklik baxımından bir-birlərinə bənzəyirlər. Həmçinin fərqlilik əlamətləri də qeyd olunmalıdır. Əvvəldə də qeyd edildiyi kimi, qorxu – həyatda qalmağa kömək edən bir duyğudur. Misal üçün, uçurumun kənarına yaxınlaşmamaq insanı aşağıya yuvarlanmaqdan qoruyur. Fobiya isə bir obyektə qarşı hissedilən qorxunun şiddətli hiss olunması, gündəlik həyatını və fərdin yaşayışını mənfi yöndə təsir etməsi halıdır (Kemal, 2015).

Fobiya ilə bağlı əsasən bunları qeyd etmək olar: bu hiss normal halda qorxulu, hürküdücü və təhdidedici olmayan bir əşya, obyekt, hadisə və ya vəziyyətə qarşı duyulan şiddətli təşviş və eyni davamiyyətə sahib müəyyən duyğu halıdır. Fobiyanı qorxulu edən, sadəcə, düşüncə və zehində onu qorxulu bir qiyafəyə salmaqdır. Bunun da həll yolları tədqiqatçılar tərəfindən araşdırılmışdır. Təbii ki, hər fobik halın həll yolu eyni deyildir. Fobiya qarşısında insan ilk olaraq qorxu ilə mücadilə etməlidir. Fobiya qorxunun üst mərhələsidir. Qorxu tezliyinə və şiddətinə diqqət edilərsə, fərqinə varılaraq addım atılarsa, onun fobiyaya çevrilmə ehtimalı çox aşağı olar (Schultz, Schultz, 2020, 606-610).

## 3. Uşaqlıq dövrünün qorxuları və fobiyaları

İnsanlar qorxularını əksərən uşaqlıq dönəmində qazanırlar. Üstünə düşülmədikdə, qorxular fobiyalara çevrilir, insanların həyatının bir parçası olar. Bu qorxu və fobiyaların əsas yaranma səbəbi insanın təşviş duyğusunu hiss etdiyi andan sonrakı mərhələdir. Bu hissə sağlıqlı, güvəndolu və qorxusuz keçirilmədikdə daha da böyüyür, inkişaf edib fobiya halını alır.

Məlum olduğu kimi, qorxu – insanın təməl duyğu hallarından biridir. Araşdırmaların birində göstərilir ki, güvən duyğusu içərisində olan körpə bütün təhlükələrdən təcrid edilmiş şəkildə ana mərhəməti ilə ya-

şayarkən təhlükəsizlikdə olur. Körpənin böyüdükcə qismən ana diqqətindən uzaqlaşması nəticəsində qorxu halları başlayır. Fobiya uşaqlıqla birlikdə başlayan, sonrakı inkişaf mərhələləri boyunca da yaşanan təməl duyğulardan biri kimi təsnif edilir.

Ayşegül Dönmez və Aytuğ Türk araşdırma yazılarında ilk qorxularla bağlı belə qeydlər etmişlər: yenidoğulmuş körpənin xarici mühitə, məsələn, səsə, həmçinin müəyyən stimula cavab olaraq ağlamaq, xarici aləmi tanımaq kimi fiziki reaksiyaları inkişaf prosesində yaşanan əsas duyğulardır. Bunlar, eləcə də körpənin yaşamış olduğu qorxu duyğusunun ilk göstəricilərindən biri hesab edilə bilər. Qorxu xarici və ya daxili resursları işə salmaqla baş verir; gerçək olan təhlükələr, əsasən, bir və ya iki yaşlarından sonra görünür. İlk güvən duyğusunun və birinci bağlılığın inkişaf etdiyi müddətdə uşağın xarici dünyadan gələn stimulları anlamaq, təhlil etmək və onlarla mübarizə aparmaq üçün ortaya qoyduğu koqnitiv üsullar xüsusi əhəmiyyətə malikdir. İki və ya üç yaşlarından başlayaraq, məktəbəqədər dövrü əhatə edən uşaqlarda dağınıq şəkildə müşahidə olunan qorxular bunlardır: yüksək səs, tozsoranın uğultusu, göy gurultusu, ana-atadan ayrı qalmaq, qaranlıq, dilənçilərlə rastlanma, evə oğru girəcək həyəcanı, ruhların mövcud olması kimi fikirlər, heyvanlar, izdiham, yıxılıb-yaralanmaq, ananı evdə tapmamaq, cadugər obrazı, yanğın və qorxu filmləri bu qəbildəndir. Beş-altı yaş arasındakı uşaqların qorxu obyektlərini təyin etmək üçün aparılan araşdırmalarda, təhlükə hiss edilən ilk üç obyekt sırasında heyvanlar, təbiət hadisələri və onları kiminsə oğurlayacağı olduğu müəyyən edilmişdir. Altı-on iki yaş dönəmi qorxuları isə daha real xarakter daşıyır və ümumi olaraq qaranlıqdan və kölgələrdən qorxmaq, yeni bir mühitə girmək, məktəbdə tək qalmaq, məktəbə gecikmək, məktəbdə uğursuz olmaq, cinayət törədilməsindən qorxmaq, qətl edilmək, bədənindəki dəyişikliklərdən həyəcana düşmək və ölüm stressi kimi hallar sıralana bilər (Dönmez, Türk, 2023, 47).

Məlumdur ki, uşaqlıq dönəmi qorxularımızın ən çox baş verdiyi, müşahidə edildiyi mərhələdir. Bu səbəbdən də irəli sürülür ki, qorxu nevrozu, əsasən, uşaqlarda izlənilir. Bu isə daha çox azyaşlı və ya əqli geriliyi olan uşaqlarda rast gəlinir. Xəstəliyin yaranmasına yeni qeyri-

adi ünsürlər (bədənini yandıran alətlər, qorxulu maskalar, hürküdücü səslər, itlərin hücumu və s.), kəskin səs və qəfil parlaq işıq (telefonla körpələrin şəklinin çəkilməsi) səbəb ola bilər. Uşaqlar qorxu anında tez-tez mutizm (səssizlik) və ya titrəmə, kəskin təşviqat vəziyyəti ilə qısa stupor (keylik, uyuşuqluq) vəziyyətində olurlar. Daha sonra qorxmuş şəxsin qarşısındakı qorxu təsbit edilir. Bu vəziyyətdə azyaşlı uşaqlar əvvəllər əldə etdikləri bacarıqları, məsələn, səliqəlilik, yerimə qabiliyyətini itirə bilərlər (Konkabayeva, Dakhbay, Oleksyuk, Tykezhanova, Alshynbekova, Starikova, 2016, 8532).

İnsanların uşaqlıqda daha çox öyrənmə, ətraf aləmi mənimsəmə istiqamətində maraqlı olduğunu bilirik. Onların təbiəti araşdırmaq, görüntülərə diqqət etmək, yeni bacarıqlara yiyələnmək potensialları özünüinkişafa mühüm təsir göstərir. Bu dövrdə uşaqlar təcrübə və məlumatı fəal şəkildə emal edir, davranışı qiymətləndirir, mühakimə yürüdür, təsnif edib sistemləşdirir. Buna görə də davranışlar yalnız klassiköyrənmə nəzəriyyəsi ilə izah edilməməlidir. Uşaqların başlarına gələnləri necə şərh etmələri onların emosional vəziyyətlərində mühüm əhəmiyyət kəsb edir. Bu səbəbdən, müdaxilə tədqiqatında (TDA – tətbiqi davranış analizi) sosialəhəmiyyətli davranışların artırılmasına, uyğun olmayan hərəkətlərin azaldılmasına, fərdlərin, ailələrin və cəmiyyətin həyat keyfiyyətini yaxşılaşdırmaq üçün sosial ünsiyyət bacarıqlarının, özünəqulluq və özünüidarəetmə vərdişlərinin öyrədilməsinə yönəlmiş elmi metodları tətbiq etmək lazımdır. Həmçinin uşağın disfunksional düşüncələri üçün koqnitiv yenidənqurma texnikasına da əsaslanmaq vacib hesab edilir (Kahraman, Derdiyok, 2022, 887).

Uşaqlıq qorxuları və fobiyaları bir-birindən fərqlidir. Bu, hər bir uşağın inkişaf mərhələsindən asılı olaraq, fərqli qorxu yaşaması prosesidir. Bir çox insanda fərqli şəkildə özünü göstərən fobiyalar fərdlərdə tez-tez müşahidə olunan, daimi həyatda ciddi narahatlıq yaradan pozuntularıdır. Həmçinin fobiya böyüklər və ya uşaqlar tərəfindən müəyyən bir vəziyyətə, obyektə, insana, heyvana, şəraitə, mühitə, hala qarşı inkişaf etdirilən şiddətli bir qorxu kimi ehtiva edilə bilər. İnsan normal olaraq hansı fobiyanın daşıyıcısıdırsa, onun yaratdığı vəziyyətdən yayınma davranışı sərgiləyər. Spesifik fobiyanın

şiddəti isə insanın həyat funksionallığına hansı dərəcədə təsir etməsindən asılı olaraq dəyişir. Bu mənada, fobiya yüngül, orta və ağır forma olaraq mərhələlərə bölünür (Gözcü, 2023).

Müəyyən yaşda ortaya çıxan bu qorxular bir müddət sonra yoxa çıxmadıqda, fərdlərin həyatına təsir etdikdə, təşvişlərini artırdıqda, ailə üzvlərinə sirayət etdikdə problem hesab olunur.

Dünyaya yeni gəlmiş körpənin ilk qorxu reaksiyasına ananın münasibəti çox həllediciidir. Əgər uşaq ilk addımlarını atmağa başlayarkən yıxıldıqda anası həyəcanlı və ya narahat reaksiya göstərərsə, bu, körpənin yerimə fəaliyyətinə mane ola bilər. Həmçinin balacanın yerimə prosesindən qaçmasına səbəb ola bilər. Yaxud gecə yatarkən qəfil yaranan səs-küy, parlaq işıq, hürküdücü, tüklü və bu qəbil digər əşyaların təması onun qaranlıqdan qorxmasına gətirər.

Uşaq üç yaşından qaydalara əməl etməyə başladığı üçün bu vəziyyətə əməl etməkdə də çətinliklər yaşayır. Şeyda Özdalga məqaləsində qeyd edir: "Bu çətin vəziyyətin öhdəsindən gəlmək üçün qaydalar qoyan valideynlər bu nizamı tənzimləmək üçün cadugər və ya kabus kimi bəzi qorxulu fiqurları proyeksiya edə bilərlər. Başqa bir qorxu mənbəyi isə uşağın başqalarının qorxduğu vəziyyətləri izləməsi, yəni qorxunu öyrənməsidir. İtdən qorxan və qışqırıb-qaçan ananı görən uşaq da itdən çəkinə bilər. Dənizdə çimərkən boğulma riski onun sudan və dənizdən qorxmasına səbəb ola bilər. Ayrılıq qorxusunda problem isə əslində, uşaqda deyil, anadadır. Ananın ayrılmaq istəməməsi problemidir. Uşaq məktəbə başlayanda onun üçün nə qədər darıxacağını və bütün günü onu gözləyəcəyini davamlı olaraq söyləyən ana, uşağın məktəbə başlamağı anasına xəyanət kimi qəbul etməsinə gətirir. Bu halda uşaqda məktəb fobiyası və ayrılıq narahatlığı yarana bilər" (Özdalga, 2013).

Qorxunun fobiyaya çevrildiyi hallarda uşaq qaranlıqda anası olmadan yatmamaq kimi vəziyyətlə üzləşir. Həmçinin uşağı valideynləri ilə yatmamaq kimi qorxduğu vəziyyətlərdən çıxarmaq üçün ona edilən izahatlara inanmır. O, istər-istəməz həddindən artıq reaksiya verir, qorxulu vəziyyətdən şüurlu şəkildə qaçır (Özdalga, 2013).

Əvvəlki başlıqda yer verilən sosial fobiyaya bir qədər uşaqlıq dövründə nəzər salaq. Uşaqlıq dövrü insan həyatının qorxuları öyrənmə, yaşamaq və ətrafı bu baxımdan mənimsəmə yönündə önəmli yerə malikdir.

Sosial fobiya – birinin başqaları tərəfindən qiymətləndiriləcəyi bir və ya bir neçə vəziyyətdən qorxmasına deyilir. Bu, özünü utandıracaq bir hərəkət və ya bir şey edə bilməsi səbəbindən çəkinməsi, özünə yaraşmayacaq davranışlar sərgiləcəyindən qorxması, ictimaiyyət arasında yemək yeyə bilməməsi, bundan narahatlıq hissi duyması, toplum daxilində səlis və sərbəst danışa bilmək həyəcanı, nitqinə davam edə bilməməsi, ictimai ayaqyoludan istifadə edə bilməməsi, başqalarının qarşısında yazı yazarkən əlinin titrəməsi, sosial vəziyyətlərdə suallara cavab verə bilməməsi və ya səfeh hərəkətlər törətmək qorxusu və digər hallarıdır.

Araşdırmalardan da göründüyü kimi, sosial fobiya yeniyetməlik dövründə müşahidə edilən qorxu və narahatlıq yaradan vəziyyətlərdən biridir. Sosial fobiya uşaqlıq dövrünün psixi pozuntuları arasında ən çox rast gəlinən narahatlıq təlaşı, qorxu nevrozudur. Uşaq və yeniyetmələrin bir faizinə "sosial fobiya" diaqnozu qoyulur və bu qorxu daha çox yeniyetməlik dövründə başlayır (Dönmez, Türk, 2023, 50).

Yeniyetməlik dövründə başlayan sosial fobiya gəncin dərslərinə, sosial münasibətlərinə, özünəinamına, özinkişafına, sosial fəaliyyətinə əhəmiyyətli dərəcədə təsir edir. Bir çox araşdırmada sosial narahatlığın orta başlanğıc yaşının 13-14 yaş arasında dəyişdiyi görünür (Terlemez, 2018, 36).

Qorxu və fobiya qavramı ilə bağlı psixoanalizin qurucusu Ziqmund Freyd insanın hər bir davranışının əsasında qorxu duyğu halının mühüm rolu olduğunu bildirir. Freyd narahatlığı təhlükəli hadisə qarşısında təsirli hərəkət edə bilməmək və müqavimət göstərə bilməmək nəticəsində yaranan psixoloji quruluş kimi təyin edir. O, bunu, həmçinin şüursuz şəkildə inkişaf edən bir duyğu olaraq təyin edir. İçində olduğu təhlükəli vəziyyəti təhdid kimi qəbul edən fərd həyəcanla reaksiya verdikdə, öz həyatı və psixoloji bütövlüyünün davamı üçün vacib olan təhlükələrin fərqinə varır. Freydə görə, narahatlıq – təhlükə

siqnalıdır və qorxunun xəbərçisidir. Bu səbəbdən də narahatlığın üç xüsusiyyəti var. Bunlar aşağıdakılardır:

1. Həyatdan narazılıq.
2. Fiziki (fizioloji) dəyişikliklər.
3. 1-ci və 2-ci bəndlərdə qeyd olunan vəziyyətlərin fərqində olmaqdır (Karagüvan, 1999, 204).

## 4. Uşaqlıq dövrünün qorxu və fobiyaları ilə bağlı aparılan tədqiqatlar

Qorxu insanla birgə dünyaya gəlir, yoxsa bu hiss sonradan yaranır? Qorxuların bəziləri qeyd oluna bilər ki, bunlar doğuşdan gəlir. Dünyaya yenicə gəlmiş körpələrə nəzər salsaq, onların səs-küylü ortamlara qarşı reaksiyaları, adətən, ağlamaq olur; yaxud bərk qışqırıq səsinə qarşı uşaqların ilk hərəkəti hürküdücü baxışlar, bəzi hallarda qışqırmaq, nadir vəziyyətlərdə isə gülmək olur (Minçe, Gençöz, 2020, 210).

Yuxarıda qoyduğumuz suala davranışçılıq (biheyviorizm) cərəyanının qurucusu olan Con Vatson 1919-cu ildə cavab tapmağa çalışmışdır. O, maraq doğuran bu araşdırma üçün körpələr üzərində təcrübələr aparmışdır. Con Vatson 1919-cu ildə əvvəlcə müəyyən uşaq qrupları üzərində, sadəcə, müşahidə aparmışdır. Bəzi uşaqlar daha ağlağan, digərləri sakit, bəziləri çox aktiv idilər. Con Vatsonun diqqətini bir uşaq çəkmişdi ki, bu körpə sonradan Vatsonun araşdırmasının əsas mərkəz nöqtəsini təşkil edəcəkdi. Vatsonun qorxunu araşdırmaqda əsas məqsədi “Körpələrin adi reaksiya verdiyi sevimli heyvanların birindən təbii olaraq qorxmasını təmin etmək mümkündürmü?” – sualına cavab tapmaq idi. Bu məqsədlə də Vatson “kiçik Albert təcrübəsi” adlanan araşdırmanı həyata keçirdi. Bu tədqiqat üçün Con Vatsonun “Albert” adlandırdığı körpəni seçməkdə əsas məqsədi uşağın sağlıqlı, duyğusuz və nadir hallarda ağlaması idi. Albertin digər uşaqlardan fərqli olan reaksiyası onu bu çalışmanın qurbanı etmişdi. Uşağın qurban olmasına səbəb isə sonradan bu körpənin başına gələnlərdir. Psixoloqlar və elm adamları tərəfindən də bu təcrübə “qeyri-əxlaqi” olaraq dəyərləndirilmişdir (Gözcü, 2023).

"Kiçik Albert" təcrübəsində səkkizaylıq körpəyə əvvəlcə müəyyən heyvanlar (hamster, dovşan, it, maska vəs.) və əşyalar göstərilir. Albertə bu heyvan və əşyalar ilkin dövrdə olduqca sevimli və təhlükəsiz görünürdü. Albert ağ hamsterlə oynayır, onunla qorxulu olmayan anlar keçirirdi. Bu, bir neçə dəfə təkrarlanır və bununla yanaş, ağ hamsterəbənzər xüsusiyyətlərə sahib olan fərqli heyvan və əşyalar uşağın önünə gətirilirdi. Hələ ki, heç bir problem yaşamayan Albert üçün artıq birinci mərhələ başa çatmış olur. İkinci mərhələdə Albert əlini hər dəfə hamsterə vuranda təcrübəçilər çəkiclə metal bir çubuğu döyəcləməyə başlayırlar. Albert, artıq hamsterdən qorxmağa başlayır, yəni uşağa qorxu mənimsədilirdi. 31 gündən sonra bu hal yenə təkrar edilir. Bu dəfə, artıq körpə ağ, tüklü və hamsterin xüsusiyyətlərini daşıyan heyvan və əşyalardan qorxub ağlamağa başlayır. Buradan müəyyən qədər belə nəticə çıxır ki, insanlar qorxularını həm öyrənir, həm də bu, onlarda doğuşdan gəlir. Metal çubuğa çəkicin dəyməsi öyrədilmir, səsin özü qorxuducu gəlir. Hamster, dovşan, it və digər obyektlər sevimli gəlir və sonradan onlar qorxu mərkəzinə çevrilirlər. Əlbəttə, sadəcə, bir təcrübəyə əsaslanıb bunu irəli sürmək doğru deyildir. Psixoloqların fikrincə, müəyyən qədər bu düşüncədə ola bilərik və araşdırmalar hər zaman həqiqətin özü demək deyil (Schultz, Schultz, 2020, 441).

"Kiçik Albert" təcrübəsi körpənin anasının uşağını təcrübədən aralaması ilə yarımçıq qalır. Bəzi tədqiqatçılara görə, "Albert" adlandırılan körpənin əsl adı "Duqlas" olmuş və o, 6 yaşında ikən hidrosefaliya (beyinə su toplanması) səbəbindən həyatını itirmişdir.

Con Vatson sonradan "Albert dərs proqramı" tərtib edib dərslər verməyə başlayır. Bu dərslərə qatılanlardan biri də Meri Kovr Cons olur. O, ilk dəfə uşaqlarda şiddətli qorxu hissini aradan qaldırmaq üçün araşdırmalar aparır, təcrübələr həyata keçirir və uğur qazanır. Meri Consun "Peter" adlı ikiyaşlı uşaq üzərində apardığı təcrübə davranışçılıq psixologiyasında və ümumən, elm dünyasında şöhrət qazanmış, bu yöndə tədqiqatlara işıq olmuşdur. Meri Cons ağtüklü dovşana qarşı qorxusu olan Peterin ağtüklü dovşanları sevən uşaqlarla birlikdə olma-

sına şərait yaratmış, bu fobik halı müalicə etməyə nail olmuşdur (Yandım, 2022, 32-33).

Aparılan digər təcrübələrə nəzər saldıqda məlum olur ki, bu tədqiqatlar zamanı qorxu hissinin araşdırılması ilə yanaşı, şübhəsiz, fobiya qavramı da təcrübə mövzusu olmuşdur. Öncədən də deyildiyi kimi, fobiya qorxu hissinin şiddətlənməsi nəticəsində yaranır. Bununla da xəstənin kontekstində qorxu hissini həll etmək üçün iki nümunə seçilmişdir. Bunlardan birincisi, psixoanalitik ədəbiyyatdan seçilən "kiçik Hans" hadisəsi, digəri türk ədəbiyyatından olan nümunə – "Qorxu gözləyənlər" hekayəsidir.

Məşhur "kiçik Hans" hadisəsi 1909-cu ildə "Uşaqda fobiyanın təhlili" əsərində bu hadisəni paylaşan Ziqmund Freydə aiddir. Bu vəziyyətdə beşyaşlı Hansın diaqnozunu "xüsusi fobiya" adlandırmaq olar, daha dəqiq desək, at qorxusu kimi də xarakterizə edə bilərik. Bu pozuntu etioloji xarakter daşıyır.

Bu, (səbəb olaraq) "Edip kompleksi"nin uğursuz, sağlam həlli və qardaş rəqabəti ilə izah olunur. Freyd iddia edir ki, Hansın atlardan qorxması onun yenidoğulmuş bacısını qısqanması və atasını anasının ortağı kimi əvəz etmək istəyi ilə bağlıdır (Akça, Şengül, Uyar, 2014, 27).

Eyni zamanda, fransız psixoanalizti və psixiatrı olan Lakan 1956-1957-ci illərdə keçirdiyi seminarda "kiçik Hans" təcrübəsi haqqında ətraflı mühazirə oxuyur. Minçe və Gençöz araşdırmalarında "kiçik Hans" təcrübasi ilə əlaqəli qeydlər etmişlər: "Freydin ardınca Lakan fobiya ilə narahatlıq arasındakı fərqi vurğulayır. O, əvvəlcə narahatlığın meydana gəldiyini və fobiyanın müəyyən bir obyektə fokuslanaraq, təlaşı qorxuya çevirən müdafiə olduğunu söyləyir. Bununla belə, Lakan fobik obyekti Freyd kimi, sadəcə, atanın nümayəndəsi kimi təyin etmək əvəzinə, birdən çox şeyi təmsil edə biləcəyini bildirir. Lakan vurğulayır ki, Hansın fobiyası müxtəlif cür təsvir edilir. Məsələn, bir məqamda Hansın atın onu dişləməsindən qorxduğunu, digər anda isə atın yıxılmasından qorxduğunu bildirirdi. Lakan iddia edir ki, bu fərqli məqamların hər birində at Hansın həyatında fərqli mövqeyi təmsil edir. Buna görə də at işarələnmiş kimi fəaliyyət göstərmir. O, çoxşaxəli məna daşıyan dəyişən işarə kimi hərəkət edir (Minçe, Gençöz, 2020, 205).

Göründüyü kimi, Hansın həyatında yer alan at, artıq onun üçün fobiyaya çevrilmişdir. Fobik bir xüsusiyyət daşıyan məfhum və ya varlıq həyatın bir parçasına çevrilmiş olur ki, insanlar da yaşayışlarını ona görə qurmalı olurlar. Məsələn, Hansın at fobiyası onu at mövcud olan yerlərdən uzaqlaşdırmağa, at şəkli, səsi və bu heyvana məxsus digər xüsusiyyətləri özündə daşıyan məkan, əşya və məfhumlardan kənarlaşdırır. Həmçinin Albert təcrübəsində müşahidə edildiyi kimi, artıq körpə ağ, tüklü bir şey görəndə ondan uzaqlaşmağa başlayır, bu da qorxunun insanda yaratdığı təhlükə duyğusundan qaynaqlanır. Bu, daha şiddətli hal aldıqda isə fobiyaya çevrilə bilir ki, bundan qurtulmaq lap çətinləşir. Fobiyalar yalnız uşaqlıq dövründə qalmır, eyni zamanda, yaş artdıqca, fobik xüsusiyyətin də gücü, adətən, çoxalmağa meyil edir, fərdin həryaşdakı həyat tərzində mürəkkəbliklər, narahatlıqlar meydana gətirir. Əlbəttə, bu, insanın sosial münasibətlərinə, ailə ilə olan bağlarına da mənfi təsir göstərir.

**Nəticə**

Qorxu – insanın başına gələn hadisələr, vəziyyətlər haqqında düşüncələrdir. İnsan düşüncələri qədər duyğularını, qorxularını və sevinclərini də idarə edə bilir. Fərd hər an düşüncələr, fikirlərlə fərqli duyğular yaşama bütünlüyü ilə var olur. Qorxular isə bu yaşanılan anlarda hadisələrə köçürülən anlamlardan ortaya çıxa bilir. Hansı ki, bu fikirlər fərdi mənfi düşüncələrə aparır, hürküdür və qorxu hissi verir. Təbii ki, “Hər hadisə qorxuya səbəb olur”, – söylənilə bilməz. Araşdırmalardan da göründüyü kimi, qorxular hər kəsə görə fərqlidir. Bu qorxuların nəticəsi olaraq bu, daha da şiddətli hal alıb fobiyaya çevrilə bilir, müəyyən həll yolları tapılıb bunlara əməl edilərək qorxulardan qurtula bilinir.

Tədqiqatlar göstərir ki, qorxuların əksəriyyəti uşaqlıq dövründə başlayır. Bu isə uşaq ikən insanın daha çox qorunmağa ehtiyac duyan, güvən hissini almaq, təhlükədə olmadığına yəqinlik hasil edən bir varlıq hesab olunmasından irəli gəlir. Uşaqlıq dövrü, ümumən, fərdin inkişafının ən əsas mərhələsi, ilkin inkişaf dövrü sayılır. Bu səbəbdən, həmin dönəmdə daha çox ehtiyatlı olunması vacibdir. Uşaqlıqda yara-

nan bir qorxu halı fərdin bütün sonrakı həyatına və ruh halına ciddi təsir göstərir. Üstünə zamanında düşülmədikdə, hətta daha da qüvvətlənir, fobik bir xüsusiyyət daşımasını asanlaşdırır.

Son olaraq qeyd edə bilərik ki, hər qorxu insana zərər vermir, hətta əksinə, fayda gətirir. Bəzi qorxular şəxsin həyatda qalmasında köməkçi rol oynayır, insanı təhlükələrdən xəbərdar edir və qoruyur. Qorxu insanda hürküdücü bir hadisənin olduğunu bildirir və bununla da insan o an özünü qorumaq vəziyyətini alır ki, bu zaman qorxu fərdə, artıq qeyd etdiyimiz kimi faydalı olur.

Fobiya isə qorxunun ən şiddətli mərhələlərindən biri olaraq üzə çıxır, insan həyatının, demək olar ki, bütünlüyünə mənfi təsirini göstərir. Fobiyalar qorxular kimi adətən, uşaqlıq dövründə yaranır. Fobiyaların yaranmasında ilk qorxunun yaşandığı anda reaksiyamızın və həmin an yanımızda olan şəxslərin münasibətinin çox böyük təsiri vardır. Qorxu yaşanan zaman söylənilən sözlər, davranışlar, mimika və jestlərin təsiri ilə insan fobiyadan uzaqlaşa bilər. Həmçinin tam əksinə olub, qorxunun şiddətlənməsinə gətirər ki, bu da sonradan özlüyündə fobik xüsusiyyətə bürünə bilir. Fobiya bəzən, ola bilsin, sadəcə, bir vəziyyətə tabe olmasın, müəyyən hadisələr zəncirinin nəticəsi də hesab edilə bilər.

Bəzən qorxu və fobiyanı bir-birinin əvəzləyicisi, sinonimi kimi ifadə edirlər. Bu isə yanlışdır. Qorxu və fobiyanın oxşarlıqları olduğu qədər, fərqlilikləri də vardır. Fobiyanın qorxudan əsas fərqi budur ki, o, insanın gündəlik həyat fəaliyyətini və nizam-intizamını pozur. Qorxular isə insanın düşüncə gücünü düzgün idarə etdiyi təqdirdə müsbət olana yönləndirir.

Məqalədə "qorxu və fobiya" anlayışları, uşaqlıq dövrü qorxuları və fobiyalar, həmçinin bu istiqamətdə aparılan çalışmalardan bəhs edildi. Bunun insanlarda necə yaranması, formalaşıb meydana gəlməsi, təkmilləşərək insan həyatında nələrə səbəb olması vurğulandı. Həmçinin məqalədə tədqiqatın məqsədinə uyğun surətdə, araşdırma və tədqiqatlardan istifadə edilərək, mövzu ilə yaxından əlaqəsi olan elmi təcrübələr haqqında bəhs edilmişdir. İddiaya uyğunluğuna görə isə mətndə aparılan tədqiqatların nəticəsinə də paralel surətdə diqqət çəkilmişdir.

## Ədəbiyyat

Akça Seray, Şengül Begüm Zübeyde ve Uyar Tuğba. (2014). Psikopatoloji, Hasta ve Terapist Bağlamında Altı Temel Duygudan Korkunun İncelenmesi. Ayna Klinik Psikoloji Dergisi. 1 (2). (s. 23-39).

American Psychiatric Association. (2010). Diagnostic and Statistical manual of mental disorders: DSM-4. 4th edition. (p. 943).

Amerikan Psikiyatri Birliği. (2014). Ruhsal Bozuklukların Tanısal ve Sayımsal Elkitabı. Beşinci Baskı (DSM-5). Tanı Ölçütleri Başvuru Elkitabından çev. Köroğlu E, Hekimler Yayın Birliği. Ankara. (s. 396).

Cherry Kendra. (2023). List of Phobias: Common Phobias From A to Z. MSEd. verywellmind.com.

Davidson M ve Ponnamperuma N. (1983). Çeviren: Akay Turan M. Fobiler. Bilim ve Teknik Dergisi. Sience Digest (orijinal). Haziran. (s. 33, 34).

Dönmez Ayşegül ve Türk Aytuğ. (2023). Çocukluk Dönemi Korkuları ve Müdahele Aracı Olarak Sanal Gerçeklik Uygulamasının Kullanımı. Hemşirelik Bilimi Dergisi. 6 (1). (s. 45-54).

Ergün Nuray. (2005). Gençlerde Sosyal Fobi. Doğu Anadolu Bölgesi Araştırmaları. Malatya. (s. 84-88).

Gençöz Tülin. (1998). Korku: Sebepleri, Sonuçları ve Başetme Yolları. Kriz Dergisi, 6 (2), (s. 9-16).

Görgü Akçay Nimet Serap, Bükün M. Fatih ve Köse Ömer. (2022). Kaygı ve Korkunun İşlevsel Olan ve Olmayan Taraflarına Genel Bir Bakış. Bingöl Üniversitesi Sosyal Bilimler Enstitüsü Dergisi. 24. (s. 653-666).

Gözcü İclal. (2023). Çocukluk Korkusu Mu, Yoksa Fobi mi?. ebeveynakademisi.trtcocuk.net.tr.

Kahraman Özlem Gözün ve Derdiyok Zeynep Sena. (2022). Çocukların Korkularına Yönelik Ebeveyn Destekli Davranışsal Müdaheleler: “Gece Korkusuna Yönelik Bir Olgu Çalışması”. Manas Sosyal Araştırmalar Dergisi. 11 (2). (s. 885-895).

Karagüvan Hülya Ünal. (1999). Açık Kaygı Ölçeğinin Geçerlik Ve Güvenirliği İle İlgili Bir Çalışma. Atatürk Eğitim Fakültesi Eğitim Bilimleri Dergisi. Sayı 11. (s. 203-218).

Karataş Zübeyir. (2023). Kuranda Korku ve Kaygı Kavramlarının Yer Aldığı Ayetlerin Analizi. Ulakbilge Sosyal Bilimler Dergisi. Ağustos. Siirt Üniversitesi. (s. 769-781).

Kemal Şafak Ağaca. (2015). Fobiler. tavsiyeediyorum.com. Mart.

Koç Aslı Enzel ve Hocaoğlu Çiçek. (2023). Az Bilinen Bir Özgül Fobi “Ofidiyofobi”: Bir Olgu Sunumu. Sağlık Bilimleri Dergisi. 32 (1). Erciyes Üniversitesi. (s. 145-147).

Konkabayeva Aiman E., Dakhbay Beybitkhan D., Oleksyuk Zaryana Ya., Tykezhanova Gulmira M., Alshynbekova Gulnaziya K. ve Starikova Anna. (2016). Research of Fears of Preschool Age Children. İnternational Journal of Environmental & Science Education. Kazakhstan. Voll 11. No. 15. (s. 8517-8535).

Mackay Jenny. (2009). Phobias. Gale Cengage Learning. USA. (s. 103).

Manav Faruk. (2011). Kaygı Kavramı. Toplum Bilimleri Dergisi. Cild. 5, №9, (s. 201-211).

Minçe Gizem ve Gençöz Faruk. (2020). Çocukluk Dönemi Sinek Korkusu Üzerine Bir Vaka Sunumu. Ayna Klinik Psikoloji Dergisi. Ankara. 7 (2). (s. 204-228).

Özdalga Şeyda. (2013). Çocukta Korku. DBE Çocuk ve Genç Psikolojik Danışmanlık Merkezi. dbe.com.tr.

Öztürk Mücahit. (2020). Fobiler. mucahitozturk.com.

Saruhan Müfit Selim. (2006). İslam Filozof ve Düşünürlerinde Ölüm Korkusu ve Tedavisi. AÜİFD 47 (1). (s. 87-105).

Schultz P. Duane, Schultz Sydney Ellen. (2020). Tərcümə edən: Yasemin Alay. Kaknüs Yayınları. İstanbul. (s. 765).

Şahin Muzaffer. (2019). Korku, Kaygı ve Kaygı Bozuklukları. Avrasya Sosyal ve Ekonomi Araştırmaları Dergisi. 6 (10). (s. 117-135).

Terlemez Murat. (2018). Sosyal Fobinin Spora Etkileri. Iğdır Üniversitesi Spor Bilimleri Dergisi. Cild 1. (s. 35-40).

Yandım Mehmet Berk. (2022). Bilişsel Davranışçı Terapi Ve Yeni Kuşak Bilişsel Davranışçı Terapilerde Yaygın Kaygı Bozukluğunun Tedavisi. Fatih Sultan Mehmet Vakıf Üniversitesi Lisansüstü Eğitim Enstitüsü. İstanbul. (s. 91).

# Depressiya və dinin ona təsiri

***Ənvər Hüseynov,***
Azərbaycan İlahiyyat İnstitutunun
"Dinin psixologiyası" ixtisası üzrə magistrantı
Bakı, Azərbaycan
anverguseynov@gmail.com
https://orcid.org/0009-0009-7921-889X

Daxilolma tarixi: 03.04.2024
Nəşrə təsdiq tarixi: 22.05.2024

## Xülasə

Müasir cəmiyyətin aktual mövzularından biri olan depressiv pozuntu bir çoxunun əziyyət çəkdiyi psixoloji xəstəlikdir. Məqaləni yazmaqda əsas məqsədimiz depressiyanın müalicəsində dinin roluna nəzər salmaq və xəstəliyi aradan qaldırmaq yollarını araşdırmaqdır. Mövzumuzun əsas obyekti isə yaş həddindən asılı olmayaraq, depressiyadan əziyyət çəkən şəxslərdir. Müasir zamanda bu psixoloji xəstəliyə tutulan insanların artım sayı müşahidə olunur. Yazımızda depressiyanın tarixinə nəzər salınmışdır. Həmçinin tarixi şəxslərin bu xəstəlik haqqında görüşlərinə də baxış keçirilmişdir. Məqalədə depressiya haqqında, həmçinin onun alt halları sayılan, ana olandan sonrakı dövrün durğunluğu, xəstəlik zamanı yaranan düşkünlük və onun digər təzahür formaları izah edilmişdir.

Qeyd edək ki, yazıda, eləcə də depressiv və bipolyar pozuntu halları haqqında da geniş məlumat verilib. Həmçinin tədqiqatımızda psixoloji halların xüsusiyyətləri, onun yaranma səbəbləri, xəstəliyin gedişatı və bir çox digər məqamlar da araşdırılmışdır. Bu psixoloji xəstəliklərin, eyni zamanda, müasir müalicə metodları da təhlil edilmişdir. Məqalədə müalicə üsulları kimi, klinik, terapevtik, fizioloji və başqa maraqdoğurucu metodlardan bəhs edilmişdir; məsələn: musiqi terapiyası, pastoral terapiya, maqnit dalğası terapiyası və s.

Din – insan həyatının ayrılmaz bir fenomenidir. Məqalədə dinin depressiyaya təsiri haqqında yazılara, araşdırmalara nəzər yetirilib. Depressiyanın müalicəsində din fenomeninin təsiri araşdırılıb, onun psixoloji-fizioloji metodlarla müalicə üsulları izah olunub. Elmi araşdırmalar göstərir ki, dindar şəxslərdə depressiv hallar daha az müşahidə olunur. Psixotrop maddələrə aludə olan şəxslərin müalicəsi zamanı din müsbət təsir göstərir. Din onlara mənəvi dayaq rolunu oynayır, insanı sağlam həyat sürməyə təşviq edir. Bu kimi amillər insan psixologiyasına müsbət iz buraxır.

***Açar sözlər:*** *din psixologiyası, depressiya, müalicə, terapiya, bipolyar pozğunluq.*

*Jurnalımızda dərc olunan məqalələrin müəllif hüquqları müəlliflərə məxsusdur və onlar CC-BY-NC lisenziyası ilə hər kəsə açıq şəkildə dərc olunur.*

# Depression and the Influence of Religion on it

***Anvar Huseynov,***
Master's student in Psychology of Religion
at the Azerbaijan Institute of Theology
Baku, Azerbaijan
anverguseynov@gmail.com
https://orcid.org/0009-0009-7921-889X

Date of submission: 03.04.2024
Date of acceptance: 22.05.2024

## Abstract

Depression, a topic of ongoing concern, is a psychological disorder that affects many people worldwide. Our main objective in writing this article is to explore the role of religion in the treatment of depression and its various components. The focus of our topic is individuals who suffer from depression, regardless of age, as the prevalence of depression continues to rise. Our article will also address the history of depression, including historical accounts of notable figures. Additionally, we will examine the various sub-conditions of depression, such as postpartum depression, depression during illness and others.

We will provide extensive information on depressive and bipolar disorder cases, including their characteristics, causes and courses. Furthermore, we will investigate modern treatment methods for these psychological conditions, including clinical, therapeutic, physiological and other approaches. Some interesting methods include music therapy, pastoral therapy and magnetic wave therapy.

Religion is an integral part of human life, and numerous studies have explored its impact on depression. We will review articles and studies on the effect of religion on depression and investigate its role in

the treatment process. We will also explain the use of psychological and physiological methods in treating depression.

According to scientific studies, depressive cases are less common among religious individuals. Moreover, religious practices have been shown to have a positive effect on individuals struggling with substance addiction. Religion serves as a moral support system, encouraging people to adopt a healthy lifestyle. These factors have a positive impact on human psychology.

***Keywords:*** *Psychology of Religion, Depression, Treatment, Therapy, Bipolar Disorder.*

*The copyright of the articles published in our journal belongs to the authors and is published as open access under CC-BY-NC license.*

## Депрессия и влияние религии на нее

***Анвар Гусейнов,***
магистрант кафедры Психологии религии
Азербайджанского института теологии
Баку, Азербайджан
anverguseynov@gmail.com
https://orcid.org/0009-0009-7921-889X

Дата подачи статьи в редакцию: 03.04.2024
Дата подтверждения статьи к публикации: 22.05.2024

### Резюме

Депрессивное расстройство, являющееся одной из актуальных проблем современного общества, представляет собой психологическое заболевание, которым страдают многие люди. Наша главная цель при написании статьи — рассмотреть роль религии в лечении депрессии и изучить способы преодоления этой болезни. Основной объект нашей темы – люди, страдающие депрессией, независимо от возраста. В наше время число людей, страдающих этим психологическим заболеванием, увеличивается. История депрессии рассмотрена в нашей статье. Также рассмотрены собрания исторических личностей по поводу этого заболевания. В статье рассказывается о депрессии, а также о ее под состоянии, послеродовая депрессия, депрессии во время болезни и других формах ее проявления.

Следует отметить, что в статье также представлена обширная информация о случаях депрессивного и биполярного расстройства. Также в наших исследованиях были проанализированы особенности психологических состояний, причины их возникновения, течение заболевания и многие другие моменты. При этом также были проанализированы современные методы лечения

этих психологических заболеваний. В качестве методов лечения в статье упоминаются клинические, терапевтические, физиологические и другие интересные методы; например: музыкальная терапия, пасторальная терапия, магнитно-волновая терапия и т. д.

Религия – неотъемлемое явление человеческой жизни. В статье рассмотрены статьи и исследования о влиянии религии на депрессию. Исследовано влияние феномена религии на лечение депрессии и объяснены методы ее лечения психолого-физиологическими методами. Научные исследования показывают, что религиозные люди реже страдают депрессией. Религия оказывает положительный эффект при лечении людей, зависимых от психотропных веществ. Религия играет для них роль моральной поддержки и побуждает людей вести здоровый образ жизни. Подобные факторы оставляют положительный след в психологии человека.

***Ключевые слова:*** *психология религии, депрессия, лечения, терапия, биполярное расстройство.*

Авторские права на статьи, опубликованные в нашем журнале, принадлежат авторам и публикуются в открытом доступе по лицензии CC-BY-NC.

## Giriş

Məqalənin məqsədi depressiya halını izah etmək və dinin bu psixoloji vəziyyətə təsiri haqqında araşdırma aparmaqdır. İlk vəzifəmiz depressiya və din haqqında məlumat vermək, sonradan bu iki məfhumun bir-birinə təsirini təhlil etməkdir. Araşdırmamızda bu iki məfhum haqqında rus, ingilis və türk dillərində yazılan araşdırmalara müraciət olunmuşdur.

İnsanlığın bir çox psixoloji xəstəlikdən əziyyət çəkdiyi məlumdur. Belə psixoloji durumlardan biri də depressiyadır. Müasir zamanda “depressiya” kimi tanınan xəstəlik tarixdə bir çox müəllif tərəfindən müxtəlif cür adlandırılmışdır. İlk dəfə depressiyaya bənzər xüsusiyyətlərə malik olan psixoloji xəstəlik (melanxoliya) haqqında böyük yunan alimi və həkim Hippokrat yazmışdır. Hippokrat insanın hava şəraitindən asılı olaraq özünü pis və ya yaxşı hiss etməsi haqqında araşdırmalar aparmış, elmi məqalələr yazmışdır. Bu psixoloji duruma isə “mövsümi depressiya” (SAD-Sesonal affective disorder) adını vermişdir. Sözügedən psixoloji durum haqqında daha ətraflı məlumat verəcəyik (Kazdanyan.S, Polayan.N, 2017, 247)

Depressiya haqqında hələ IX əsrdə yaşamış İslam dünyasının böyük alimi Yakub bin İshaq əl-Kindi öz risaləsində yazmış (“Risalə fi əl-Hilə li-dəf i l-əhzan”), insanın sıxıntıdan xilas olmaq yollarını əsərində izah etmişdir. Bu risalədə müəllif insanın dünya həyatına əhəmiyyət verməməsini vurğulayır, maddiyyata, şan-şöhrətə görə sıxıntıya, dərdə düşməməyin yollarını izah edir (“Üzüntüdən kurtulma yolları”, 63-103). Risalədəki gəmi nümunəsi timsalında insanın həyatda maddiyyata bağlı olmamasını tövsiyə edir və yaşamın keçici olduğunu göstərir. Risalənin əsas məzmunu insanın depressiv hala düşməməsi üçün düzgün fikirləşərək yaşamasıdır.

“Melanxoliyanın anatomiyası” XVII əsrin əsas əsərlərindən biri sayılır. Kitabda Robert Börton melanxoliyanın öhdəsindən hansı üsullarla gəlinə biləcəyini göstərmişdir. O, bu istiqamətdə düzgün yuxu rejimini, doğru qidalanmağı, həyatı sosial yöndən yaşamağı, musiqi dinləməyi və digər üsulları qeyd etmişdir (Merkez.L, PGT 2, 2003).

Ziqmund Freyd XX əsrdə psixologiyada çevriliş etmiş psixoanalizin banisi hesab edilir. O, öz əsərində ("Kədər və melanxoliya") kədər ilə melanxoliyanı araşdırır və onların yaranma səbəblərini izah edir. Z.Freyd bu kitabda insanın qarşılaşdığı iki növ sıxıntını qeyd edir, onları bir-birindən fərqləndirir. Bunların müxtəlifliyini Freyd belə izah edir: "Melanxoliyanın insanda nədən, hansı səbəbdən yarandığını fərd özü belə tam anlamır, sadəcə olaraq, sıxıntı və darıxma halları keçirir. Kədərli olan insanda isə belə deyildir – qüssənin bir neçə səbəbi vardır. Ən başlıca səbəblərdən biri yaxınının, yaxud xatirə olan əşyanın itirilməsidir. Yəni melanxolik halın səbəbi yoxdur, amma kədərin amili vardır (З.Фрейд, 1998, 214).

Melanxoliya yaşayan şəxs psixoloji gərginlik içində olur, onun həyatdan həzz almaq bacarığı itir, özünü daim günahkar hiss edir və cəzalanacağını düşünür. Kədərdə olan insan da eyni hissləri keçirir, lakin bu duyğular itirilmiş bir şəxs üçün olur. O, öz sevgisini başqa bir fərdə yönəldə bilmir. Sevdiyi insana olan sevgisi yalnız ona aiddir (З.Фрейд, 1998, 212-213).

## Depressiya və onun halları

Psixologiya elmi depressiyanın yaranmasını bir çox halla əlaqələndirir – ailə üzvlərinin və ya yaxın fərdlərin vəfat etməsi; sevilən bir insandan ayrılmaq; maddiyyat sıxıntısı; xəstəliyə düçar olmaq... Bir sıra digər hallar da fərdlərdə depressiv vəziyyətin baş verməsinə gətirə bilər. Bu sadaladığımız vəziyyətlər insanın kədərlənməsinə, haldan-hala düşməsinə səbəb olur. Stress, əsəb, zehni gərginlik, narahatlıq halları insan sağlamlığına mənfi təsir göstərir. Bu durumda olan fərd həm şəxsi həyatında, həm də sosial mühitdə normal fəaliyyət göstərə bilmir.

Tanınmış Amerika yazarı Edqar Alan Po bunun bariz nümunəsidir. O, uşaq yaşlarında olanda anasının ölümünə şahidlik edir. Zavallı qadının halı qəflətən pisləşir və o, dünyasını dəyişir. Bu hadisə balaca Ponun gözləri qarşısında  baş verir. Po bacısı ilə birlikdə bütün gecəni həmin otaqda keçirir. Anasının nəşi səhərədək həmin otaqda qalır. Bu

hadisədən sonra Po güclü stress keçirir və baş verən olay onun həyatında böyük iz buraxır. “Ponun şeirlərində, yazılarında həmişə bir qadın obrazı vardır, bu da onun anasıdır”, – desək yanılmarıq. Po həyatının sonunadək bu depressiv haldan qurtula bilmir. O, səfil həyat sürür, içki aludəçiliyindən əziyyət çəkirdi. Nəhayət, ifrat dərəcədə alkoqol istifadəsindən sonra dünyasını dəyişir (D. Leader, 2018, 33).

Depressiyanın törətdiyi fiziki çətinliklər bunlardır: iştahsızlıq, yuxusuzluq, daxili narahatlıq hisslərinin (əsəb, stress, isterika, qəzəb və s.) apatiya halı, fikri dağınıqlıq, hissetmə qabiliyyətinin itirilməsi, intihar düşüncələrindən insanın daha çox mənəvi yorğunluq hiss etməsi, intihara cəhd. Xəstəyə vaxtında müdaxilə edilməsə, onun psixoloji durumu zamanla gərginləşərək, fiziki halına pis təsir edə bilir. Bu da xəstədə intihar düşüncəsi formalaşdırır ki, bunun da sonu ölümlə nəticələnir (D.Bhowmik, K.P.S.Kumar və b, 2012, 34-44).

Depressiyada olan şəxsin, özündən asılı olmayaraq, davranışlarında bəzi dəyişikliklər baş verir. Bu halda olan insan, sadəcə, özü arzu etməklə xəstəlikdən qurtula bilmir. Bu tip şəxslərə psixoloji-terapevtik müalicə lazımdır. Müalicə almayan və terapiya görməyən xəstədə bu hal günlərlə, həftələrlə, hətta illərlə davam edə bilər. Depressiyada olan şəxs dünyadan həzz almır, sevinc hissi duymur, problemləri özündə görür, sosial mühitdən və ailə üzvlərindən qaçıb təklikdə rahatlıq tapır.

Depressiyanın haradan, necə əmələ gəldiyi sual altındadır. Müasir tibb bu psixoloji xəstəliyin müalicəsini hələ tapmayıb. Xəstəliyin formalaşması və gedişatı şəxsdən, sosial mühitdən, demoqrafiyadan və digər aspektlərdən asılıdır. Bu sadaladığımız amillər, sadəcə, praktikada yaşanmış və müşahidə edilmiş hallardır. Depressiyanın növlərinə gəlincə, bu, sadalamaqla bitməyən bir uçurumdur:

- uşaqlıq depressiyası;
- ana olandan sonra əmələ gələn depressiya;
- xəstəlik depressiyası;
- qocalıq depressiyası və s.

Aşağıda bu halları və xəstəliyin digər növlərini daha detallı şəkildə təhlil edəcəyik.

Burada, əsasən, iki növ depressiyandan bəhs olunacaq. Bunlardan birincisi, klinik depressiya; ikincisi, bipolyareffektli pozuntudur. Bu psixoloji halları xüsusiyyətləri, gedişatı və şiddəti ilə fərqləndirmək olar. Ümumilikdə baxsaq, hamısı koqnitiv və fiziki problemlərə və pozuntulara gətirir (national inistitute of mental Health, 2008, 1).

**Klinik depressiya**

Klinik depressiyada şəxsin sadə və ya yüngül olmayan həyat gedişatında, iştahasında, yuxusunda, fiziki fəaliyyətində, cinsi istəyində, həyata və ətrafa olan marağında, sosial həyatdan uzaqlaşmasında azalma müşahidə edilir. Klinik depressiyaya düşmə səbəbləri fərqli hadisələr nəticəsində əmələ gəlir. Bunlar genetik fərdin həyatında ağır hadisələrin baş verməsi, fiziki xəstəliyə düçar olması nəticəsində yaranır. Bu halları daha detallı vurğulayaq: ailə üzvünün itkisi, sevdiyi insandan ayrılması, şəxsi həyatında uğursuzluğu, hansısa xəstəliyə yoluxması və ya düçar olması, uşaqlıda fiziki-psixoloji təzyiq görməsi. Genetik hallarda isə bu, əsasən, nəsildə kimdəsə olması ilə baş verir; anadan və ya atadan gənc nəsillərə ötürülə bilir (Mind, 2019, 3).

Klinik depressiya “DSM-4” kitabında (major depressive disorder) “yüksək depressive” hal adı ilə keçir, lakin “İCD-10” da isə bu vəziyyət qeydə alınmayıb. Biz bunu yuxarıda qeyd etmişdik. Hər bir depressiv hal şəxsin cinsi, sosial durumu, ailə vəziyyəti, yaşadığı və aldığı zədə, demoqrafik durumu ilə əlaqəli olur (S.Örsel, 2004, 18).

Yuxarıda qeyd etdiyimiz kimi, depressiya insana fiziki-psixoloji tərəfdən mənfi təsir göstərir. “Fiziki narahatlıqlar” dedikdə, bu, əsasən, ürək ağrısı, mədə ağrısı, qəbizlik, cinsi istəyin azalması, bədəndə fiziki gücün zəifləməsi, yuxu pozuntusu, iştah artımı və ya azalması nəzərdə tutulur. Bu sadaladığımız amillər fərdlərdə fərqli şəkillərdə ola bilir. Psixoloji narahatlıqlara isə bunlar daxildir:

- fikir cəmləməkdə problem yaşayır;
- çarəsizlik kimi düşüncələrə qapılır;
- qərar verməkdə çətinlik çəkir;
- özü və ya həyat haqqında neqativ düşünür;
- həyatın mənasız olduğunun fərqinə varır;

– özünün lazımsız biri olduğunu düşünür.

Bu cür düşüncələr onda intihar etmək istəyini formalaşdırır (Сосунова, 2015, 5-6).

Sözügedən xəstəliyin yüngül hallarından biri mövsümi depressiya hesab edilir (SAD-Seasonal affective disorder). Bu psixoloji duruma düçar olan xəstələr payız və qış aylarında depressiya yaşayırlar. Belə vəziyyət daha çox Günəş işığının az olduğu və təbiətin yatdığı dövrdə baş verir. Bu səbəblərdən əlavə görünməyən amillər də vardır. Bu, stress, biokimyəvi dəyişiklik, irsiyyət kimi təsiredici məqamlardır. Bu depressiv vəziyyətin əlamətləri bunlardır:

- ümidsizlik;
- istəksizlik;
- özünü lazımsız hiss etmək;
- günahkarlıq hissi;
- yuxunun pozulması;
- tez yorulmaq kimi fiziki narahatlıq;
- fikir cəmləməkdə çətinlik.

Mövsümi depressiya zamanı intihar istəyinin artımı da müşahidə olunur. Belə depressiyanın müalicəsində fərq bundan ibarətdir ki, xəstələrə işıq terapiyası tətbiq edilir. Onların işdə, evdə, işıqlı yerlərdə olmaları məsləhət görülür (M.Ekinci, A.Okanlı və b, 2004, 109-111).

### Klinik depressiyanın yaranma səbəbləri

Depressiyanın yaranma səbəbləri çoxdur. Klinik depressiyanın yaranma səbəblərindən biri xəstəlikdir. Bununla bağlı bir sıra elmi araşdırmalar aparılıb. Tədqiqatların obyektləri müxtəlif xəstəliklərdən əziyyət çəkən insanlardır. Hər bir xəstəliyin özünəməxsus depressiv gedişatı vardır. Bir elmi araşdırmada isə epilepsiya xəstəliyindən əziyyət çəkən xəstələrdə depressiyanın səviyyəsini ölçüblər. Həmin xəstələri iki hissəyə bölüblər; qadınlar birinci, kişilər isə ikinci qrupu təşkil ediblər. Müşahidələr göstərdi ki, epilepsiyadan əziyyət çəkən kişilər depressiyaya daha çox meyil edirlər. Qadınlar isə bu istiqamətdə azlıq təşkil edirlər. Halbuki

ümumdünya statistikası göstərir ki, qadınlar kişilərə nisbətən depressiyaya daha çox istiqamət alırlar. Bu da onun göstəricisidir ki, depressiv hal hər kəsdə və hər yerdə standart şəkildə özünü büruzə vermir. Bunun da səbəbləri – hormonal, cins, sosial və s. ola bilir (О.В.Воробъева, А.Ю.Скрипкин, 2010, 96-100).

Yuxarıda xəstəlikdən əmələ qələn depressiya haqqında məlumat verdik. Depressiyanı yaradan amillərdən biri hamiləlikdən sonra əmələ gələn vəziyyətdir. Bu hal "İSD-10"da qeyd olunur. Həmin depressiya, əsasən, analarda uşağı dünyaya gətirdikdən sonra – ikinci həftədən altıncı həftəyədək baş verə bilir. Analıq depressiyası haqqında yunan filosofu Hippokrat belə məlumat verir ki, uşaq doğulduqdan sonra ananın bədənində hormonal dəyişikliklər yaranır. Bu dəyişikliklər anada depressiya əmələ gətirir. Hamiləlikdənsonrakı depressiya, minimal olaraq, bir neçə gün, maksimum, bir neçə il davam edə bilir. Bu vəziyyətə düşmüş analara, ilk növbədə, psixoloji dəstək göstərilməlidir. Həyat yoldaşı və ya ailə üzvləri onun yanında olmalı, qayğısına qalmalıdırlar. Əgər yaxınları onun yanında ola bilmirlərsə, qrup terapiyası tətbiq etməklə anaya psixoloji-mənəvi dəstək vermək mümkündür. Analarda, bir sıra hallarda, uşağı dünyaya gətirdikdən sonra psixoz yaranır. Bu hal isə depressiyadan daha ağırdır. Həmin vəziyyətə düşmüş anada hallüsinasiya baş verir, o, intihar haqqında düşünür. Maraqlı fakt budur ki, psixozdan əziyyət çəkən ana öz yeni doğulmuş övladını düşmən olaraq görür. Belə vəziyyətdə olan valideyn uşağı ilə tək qalmamalı, körpəyə ailə üzvləri və ya dayə baxmalıdır (Сосунова.Н.А, 2005, 6).

Hamiləlikdən sonra ana olan qadınlarda depressiyadan əlavə digər psixoz halları da müşahidə olunur. Bu vəziyyət "İCD-10"da qeyd edilib. Həmin halda olan ana depressiyadan fərqli olaraq aqressiv, əsəbi, gərgin, ətrafındakı insanların, əsas da ailə üzvlərinin ona düşmən kəsildiyini düşünür. Həmçinin yuxarıda da qeyd etdiyimiz kimi, ilk düşməninin isə yeni doğulmuş övladı olduğunu düşünür. Hamiləliksonrası psixoz, əsasən, ana olduqdan sonra ilk altı həftədə meydana çıxır (Т.П.ЖУК, Л.В.Дудалъ, 2014, 19).

Doğuşdan sonra analar övladına qarşı aqressiv, həssas, əsəbi olurlar. Psixologiya elmində ana olandan sonra qadının psixoz hala düşməsinin bir neçə səbəbləri izah edilir. Hamiləlikdən sonra analarda psixozun səbəbləri, əsasən, bunlardır:

– hormonal disbalans;
– hamiləlik dövründə və doğuş əsnasında yaşadığı stress;
– qorxu, əsəb;
– qan itkisi;
– somatik gərginlik, yorğunluq.

Bunlardan əlavə, sosial mühitdən gələn mənfi təsir hallarını da qeyd etmək mümkündür. Bütün bunlar anaya sosial təzyiq; ailə üzvlərinin və cəmiyyətin ananın hamiləlik halına diqqətsizliyi; hamiləlik dövründə yoldaşı və ya ailə üzvləri tərəfindən dəstək görməmək; bütün sadaladığımız amillər anada psixozun yaranma səbəbləri kimi qeyd olunur (A.Eedoğan, Ç.Hocaoğlu, 2020, 33-34).

Depressiv durumları yaradan halların fərqliliyi o qədər genişdir ki, psixologiya elmində bu halın tam olaraq standart formasını və gedişatını müəyyənləşdirməkdə çətinlik çəkilir. Bu psixoloji vəziyyətlə bağlı bir çox araşdırma aparılmışdır ki, bunlar da əsasən, qeyd etdiyimiz mövzularI əhatə edir: cinsəllik; demoqrafiya; dini mənsubiyyət; bir çox aspektlər. “Depressiya” dedikdə, əsasən, kədərli, üzüntülü obraz düşünürük. Aşağıda göstərdiyimiz depressiv hal isə bunun tam əksini göstərir.

Xəstəliyin maraqlı növlərindən biri – “gülən depressiya” adı verilmiş psixoloji haldır. Gülən depressiyaya düşən şəxslər sosial mühitdə, yəni işdə, nəqliyyat vasitəsində, dostlarla və digər vəziyyətlərdə olarkən özlərini gülərüz, deyib-gülən, zarafatcıl aparırlar. Tək qaldıqları zaman isə bunun tam əksini yaşayırlar. Daha dəqiq desək, yalqız olduqda həvəssiz, fiziki cəhətdən zəif davranırlar. Britaniyalı komik aktyor Devid Uilyams öz həyatı haqqında müsahibə verdiyi zaman, güzəranının çox hissəsini depressiv halda yaşadığını bildirib. D.Uilyams öz peşəsini icra etdiyi zaman isə yaşadığı depressiv halı büruzə verməyib. Göstərdiyimiz bu nümunə tək deyil. Müasir hiperaktiv dünyada belə depressiyadan əziyyət çəkənlərin sayı az deyil. Müayinə

zamanı (gülən depressiya) diaqnozu qoymaq çətindir. Pasiyent öz vəziyyətini büruzə vermək istəmir, həkimin müdaxiləsinə qarşı çıxır. Bu cür xəstələrdə maskalanmaq xüsusiyyəti müşahidə olunur. Gülən depressiyanın əlamətləri bunlardır: aktiv yüksək funksional iş qabiliyyəti; gülərüz; həyata sevincli görünməsi. Belə depressiya 22-78 yaş arasında baş verə bilir. Gülən depressiyadan əziyyət çəkən insanlarda intihar etmək potensialı yüksəkdir. Bu da ondan qaynaqlanır kı, belə xəstələrdə yüksək fiziki enerji olur (S.Bhattacharya, K.Hoedebecke və b, 2019, 433-434).

Yuxarıda depressiyanın bir neçə növünü qeyd etdik. Depressiv hallar bununla bitmir. Stresli həyat tərzi sürən insanlarda psixoloji cəhətdən gərginlik formalaşır. Xəstələrin ətrafında olanlar bu halda onların yaşadıqları daxili sıxıntıların fərqinə varmırlar. Elmi araşdırmalar sübut edir ki, depressiyada olan insanlar kömək istəyirlər. Bu kömək çağırışını duymadıqda, hiss etmədikdə sonu intiharla nəticələnir. “Xəstəni bu hadisəni törətməyə vadar edən səbəb nədir?” sualını versək, depressiyaya düşən şəxslərdə psixoloji olaraq özlərinə qarşı mənfi fikirlər yaranır, onlar özlərini pis, günahkar, əxlaqsız, vicdansız hesab edirlər. Həyatlarında nəsə baş verdiyi halda özlərini qınayıb pisləyirlər. Bəzi hallarda isə intihar etmək qərarına gəlirlər. İntihar anında fikirlərindən dönənlər də olur. Qadınlar, əsasən, intihar etdiyi zaman ağrısız metodlara üstünlük verirlər. Kişilərdə isə bunun əksini görürük. Qadınlar, əsasən, özlərini dərman preparatları ilə zəhərləyirlər. Kişilər isə əksər hallarda kəsici alətlər, özünü asmaq, silahla beyin və ya ürək nahiyəsindən vurmaq üsulu ilə intihar edirlər (В.В.Васильев, Ю.В.Ковалев və b, 2014, 30-34).

İntihar fikrinin yaranmasının iki səbəbi var: xarici təsir (reactive depresion); daxili təsir (endogenous depression). Sosial qınaq, məktəbdə basqı, dostlar tərəfindən təhqirolunma, ailə tərəfindən təzyiq və digər hallar xarici təsirə aiddir. Daxili təsirə isə çöldən, ətrafdan heç bir vasitə nüfuz etmir; bu, birbaşa orqanizmdə baş verən dəyişiklik nəticəsində (hormonal disbalans, əsəb sisteminin işləməsində dəyişiklik və s.) (Ю.В.Ковалев, 2011, 35-36) yaranır.

## Bipolyar pozuntu

Psixi pozuntular tibbdə sağalması çətin, bəzi hallarda isə ümumiyyətlə, müalicəsi olmayan durumdur. Tarixə nəzər saldıqda, xalq arasında belə psixi pozuntuların cinvurma, qara qüvvələrin təsiri, cadu və digər hallarla əlaqələndirildiyini görürük. Depressiyanın bu növünün əsas səbəbi xəstənin əksər vaxtlarda özünü anormal idarə etməsi; gündüzlər sakit-dinməz olması; axşam saatlarında aqressiv, şiddət göstərən bir duruma düşməsidir. Bu tip insanlara qarşı heç zaman humanist davranılmayıb. Orta əsrlər zamanında belə xəstələri qəsrlərdə, zirzəmilərdə zəncirləyib saxlayır, cəmiyyətdən uzaqlaşdırıb tək-tənha yaşamağa məcbur edirdilər. Zamanla belə xəstələrə humanist yanaşmağa başladılar. Bu istiqamətdə müalicəvi mərkəzlər, laboratoriyalar, elmi araşdırma mərkəzləri fəaliyyətə başladı (И.Б.Якушев, П.И.Сидоров, 2011, 1-2).

Müasir günümüzdə belə xəstələrə, artıq cin vurmuş və ya cadu olunmuş kimi baxılmır. Psixologiya elminin inkişafı ilə bir çox xəstəliklərin müəyyənləşdirilməsində və müalicəsində xeyli irəliləyiş əldə olunmuşdur. “Depressiya” dediyimiz zaman yuxarıda qeyd etdiyimiz kimi, xəstə həvəssiz, sakit, sevinc duyğusu keçirməyən halda olur. İndi bəhs edəcəyimiz psixoloji hal bunun tam əksinədir.

Bipolyar pozuntunun əsas yaranma yaş həddi 15-44 arasındadır (Diagnostic and Statistical Manual of mental disorders–4 (DSM-4). Bipolyar pozuntunun iki növü var: “BP-1” və “BP-2”. Bu iki növ arasında fərq onların gedişatında və xüsusiyyətlərində özünü büruzə verir. Bipolyar pozuntu zamanı xəstələrdə, əsasən, qeyri-sabit əhval-ruhiyyə, ruhi stabilsizlik, və koqnitiv disfunskiya mövcud olur. Xəstəliyin yaranma səbəblərindən bir neçəsini qeyd edə bilərik ki, bunlardan ən əsası, uşaqlıqda yaşanmış psixoloji travmalardır. Maddi cəhətdən aşağı durumda böyüyən, təzyiqlərin, təcavüzün baş verdiyi ailələrdən olan uşaqlarda bu xəstəlik, əks mühitdə yaşamış şəxslərə nisbətən üç dəfə çox rast gəlinir. Şiddət mühitində böyümüş fərdlərdə psixoloji xəstəliyin yayılma faizi daha yüksək səviyyədə müşahidə olunur. Bu halın müalicəsinə psixoloji, sosioloji və bioloji yöndən kompleks formada yanaşma lazımdır (Н.Н.Осипова, Л.М.Бардештейн və b, 2018, 153-154).

Ümumdünya statistikasına görə, Yer üzü əhalisinin beş faizi bipolyar pozuntudan əziyyət çəkir (Bipolyar affective disorde). Bipolyar pozuntu depressiv durum ilə paralel şəkildə müşahidə olunur. Ümumdünya Səhiyyə Təşkilatının verdiyi məlumata əsasən, bu xəstəlik əlillik göstəricində altıncı yeri tutur. Bipolyar pozuntu – endogen psixi pozuntunun affektiv hallarında özünü büruzə edir. Manyakal, yaxud hipermanyakal, depressiya və ya subdepressiya, eləcə də bəzi hallarda qarışıq olur. Bipolyar pozuntunun əsas fərqləndirici xüsusiyyəti ondan ibarətdir ki, xəstə iki psixoloji durumda ola bilir. Bir gün və ya günlərlə özünə qapanmış ola bilər və ya hiperaktivlik nümayiş etdirər. Yəni qeyd etdiyimiz fiziki şəxs bir necə gün depressiv halda olandan sonra, qəflətən aqressivləşə bilər. Ümumilikdə, yetmiş beş faiz bipolyar pozuntuda xəstələrdə bu halla bərabər, başqa psixi durumlar da yaşana bilər (М.Г.Михаеева, Н.А.Молдованов və b, 2019, 140).

Bipolyar pozuntu "MKB-10"da "F-31" kodu ilə qeydə alınıb. "F-31" kodunun qollarında isə onun başqa növləri də öz yerini tapır. Bipolyar pozuntunun tarixinə nəzər salaq. E.Kreplinq bu pozuntunu qruplara bölmüş, onu şizofreniyadan fərqləndirmişdir. E.Kreplinqın 1986-cı ildə manyakal depressiv psixoz (MDP) xəstələri üzərində apardığı müşahidə zamanı bu tip şəxslərdə maniya ilə depressiya dövri olaraq gün ərzində özünü göstərib. Şizofreniyadan fərqli olaraq, bipolyar pozuntuda depressiv, maniya halları müşahidə edilir. Bipolyar pozuntu zamanı hansı psixoloji halın (depressiya-maniya) nə qədər sürəcəyi bilinmir. Ümumilikdə, 40 faiz depressiv xəstələrdə bipolyar pozuntu aşkarlanmışdır. D.L.Dunner 1976-cı ildə bipolyar pozuntunun ikinci halını ayırd etmişdir. Bu vəziyyətdə olan xəstələrdə depressiya və hipermaniya bir-birlərini əvəz edirlər. Bipolyar pozuntu növlərinə görə fərqlənir. J.Kleyman bu halları "BP-1" (maniya ilə depressiya); "BP-2" (hipomaniya ilə depressiya); "BP-3" (siklotimik pozuntu); "BP-4"; "BP-5", "BP-6" olaraq bir neçə kateqoriyaya ayırır (Н.А.Тювина, В.Н.Смирнова, 2016, 88).

Depressiv haldan daha şiddətli sayılan bu tip psixoloji durum tibbdə çətin müalicə olunur. Bəzən bipolyar pozuntunu şizofreniya ilə bərabər tuturlar. Bu halda olan xəstələrin on faizi xəstəliyinin ilk ilində

intihar edir. Bunun səbəbi onların özlərini idarə etməkdə çətinlik çəkmələri və əhvallarının dəyişkən olmasıdır. Bu amil bir insanın daxilində bir neçə şəxsiyyətin olması ilə əlaqələndirilir. Sözügedən psixoloji xəstəlikdən əziyyət çəkən fərd şəxsi həyatında çətinliklərlə qarşılaşır. İşini itirir, ailəsi dağılır, dost-tanışlardan uzaq düşür. Belə xəstələrin boşanma halları digərləri ilə müqayisədə 3-6 dəfə çoxdur (F.H.Çelik, Ç.Hocaoğlu, 2016, 54).

Bipolyar pozuntunun ən şiddətli dönəmi 16-30 yaş arasındadır. Uşaqlıq və yeniyetməlik çağlarında aşkarlanan bipolyar pozuntu aşağıdakı əlamətlərə görə baş verir:

- ümumiləşdirilmiş gərginlik pozuntusu (21 faiz);
- hiperaktivliklə diqqətsizlik sindromu (11 faiz);
- davranış pozuntusu (conduct disorder, 11 faiz);
- bulimiya (3 faiz);
- qarışıq hallar nevrozu (3 faiz);
- alkoqolizm və narkomaniya.

Bu halları yaşayan xəstələrin sosial və şəxsi həyatları alt-üst olur. Daxili gərginlik nəticəsində həyat fəaliyyətləri aşağı düşür. Bipolyar pozuntu, əsasən, depressiv xəstələrdə aşkarlanır. Gender məsələsi də burada öz rolunu oynayır. Kişilərdə bipolyar pozuntu qadınlara nisbətdə tez başlayır. Kişilərdə müşahidə olunanan pozuntu, əsasən, manyakal xarakter daşıyır. Qadınlarda isə əksinə, depressiv xarakterə bürünür. Qadınlarda bipolyar pozuntu halları hamiləlik dövründən sonra, menstruasiya zamanı, hormonal dəyişikliklər yaşandıqda, klimaks keçirdikdə müşahidə edilir (Н.Н.Осипова, Л.М.Бардештейн və b, 2018, 158-159).

Bipolyar pozuntu zamanı "gender" məfhumu özünəxas mövqedə dayanır. Bir çox araşdırmada gender fərqliliyi xəstəliyin gedişatında və xüsusiyyətlərində başlıca rol oynayır. Xəstəlik, əsasən, kişilərdə manyakal, qadınlarda maniya ilə müşahidə olunur. Kişilərdə olan manyakal durum əsəbilik və qıcıqla, danışıqlarında gərginliklə izlənilir. Yuxularında azalma baş verir və ya yatmağa ehtiyac duymurlar, həmçinin özünütənqidin azalması yaranır. Bu tip xəstələr söhbət zamanı bir mövzu

haqqında fikrini tamamlamayıb, tez bir halda digər obyekt haqqında danışmağa başlayırlar. Depressiv haldan fərqli olaraq manyakal bipolyar pozuntu zamanı insanda yüksək enerji, israfçılıq, aqressivlik müşahidə olunur. Qadınlarda isə seksual istəklərin artımı, özünütənqidin yüksəlməsi, söhbət zamanı əsəbilik izlənilir. Qadınlarda, əsasən, somatik depressiya baş verir. Bu cür psixoloji durumun əlamətləri bunlardır: ümumi zəiflik (asthenia); yuxu pozuntusu; iştah azalması; əsəbilik; tənqid etmək bacarığının enməsi, yaxud yox olması; intihar istəyinin daha yüksək olması və s. Kişilərdən fərqli olaraq, qadınlarda depressiya daha uzun zaman çəkir (Гуменюк Л.Н, Румянцева М.И və b, 2017, 48).

## Depressiyanın və bipolyar pozuntunun müalicəsi

Depressiyanın müalicə metodu iki üsulla aparılır. Bunlardan birincisi, danışıq terapiyasıdır. Bu terapiya üsulu fayda verməsə, o zaman antidepressantlara müraciət olunur. Bu iki müalicə növü təsirsiz olarsa, xəstəyə elektrokonvulsiv terapiya tətbiq edilir. Sadaladığımız metodlar əsas müalicəvi terapiyalar sayılır. Bunlardan əlavə, xəstələrə koqnitiv, geştalt, fərdlərarası terapiyalar tətbiq olunur (interpersonal psychotherapy - İPT). (Э.Соломон, 2004, 122-130).

Depressiya zamanı, yuxarıda qeyd etdiyimiz kimi, hər bir pasiyentin fərdi xəstəlik gedişatı, xüsusiyyətləri nəzərə alınır. Müalicə əsnasında hansı metodun daha düşərli olacağını, hansı üsulun effektiv təsir göstərəcəyini yalnız müayinə zamanı ayırd etmək mümkündür. Antidepressantların növləri çoxdur. Onlar, əsasən, üç kateqoriyaya bölünür. Birinci – dopamin – stabilləşdirən; ikinci – seratonin – stabilləşdirən; üçüncü – noradrenalin – stabilləşdirən (М.Ю.Дробижев, С.В.Кикта, 2016,84).

Antidepressantların seçimi zamanı maraqlı olan məqam bundan ibarətdir ki, yan təsirləri az olana üstünlük verilir. Müalicə zamanı pasiyentlərdə hansı hormon çatışmırsa, o, həmin yöndən müalicə alır. Müalicəyə bir antidepressantla başlamaq daha məsləhətdir. Psixotik hallar müşahidə edilmirsə, antidepressantlardan istifadə mümkün deyil. Bipolyar pozuntuda antidepressantların istifadəsində diqqətli olmaq lazımdır ki, manyakal və ya maniya halına çevrilmə baş verməsin. Müalicə zamanı dərmanın təsiredici dozasından başlamaq və zamanla,

ehtiyac olarsa artırmaq mümkündür. Antidepressantın təsirini görmək üçün 6-8 həftə gözləmək lazımdır.

Elektrokonvulsiv terapiya isə danışıq və antidepressantların köməyi olmadıqda tətbiq edilir. Bu üsul əsnasında xəstənin başının gicgah nahiyəsinə elektrik impulslar göndərilir. Bu terapiyadan sonra əksər hallarda xəstə öz hafizəsinin bir hissəsini itirir. Yaddaş bir neçə ay əsnasında geri qayıdır. Sözügedən terapiyanı etmək üçün ilk növbədə, şəxsin öz icazəsi və ailə üzvlərinin razılığı alınmalıdır. Həmin terapiya metodu hamıya düşərli olmur. Elə pasiyentlər olur, müalicədən müsbət nəticə almırlar. Bu üsul sadaladığımız digər metodlardan daha ağırdır (Э.Соломон, 2004, 148-152).

İstifadə olunan digər metodlardan biri də dalğalı maqnit terapiyasıdır ("mTMS"). Terapiyanın bu növü yuxarıda bəhs etdiyimiz elektrokonvulsiv üsulun oxşar növüdür. Burada xəstənin beyninə maqnit dalğaları ötürülür. Fərq, sadəcə, bundan ibarətdir ki, maqnit terapiyasında beynin lazım olan nahiyəsinə dalğa göndərilir və xəstədə hafizə pozğunluğu baş vermir. Bu metodun daha təhlükəsiz olmasına baxmayaraq, xəstələrin çoxu elektrokonvulsiv terapiyanı tərcih edirlər (Э.Соломон, 2004, 173).

Bipolyar pozuntunun müalicəsi zamanı, əsasən, normotimik qrupunun karbon litiyasından istifadə olunur. Bipolyar pozuntu özündə iki psixoloji hal daşıdığından, xəstənin müalicəsi ona uyğun aparılır. Bu səbəbdən öncə psixiatrın yanına getmək, düzgün müalicə metodu tapmaq, onunla irəliləmək lazımdır (Р.Оконор, 2010, 213). Hazırda bipolyar pozuntunun müalicəsində monoterapevtik metod yoxdur. Müalicədə bir neçə həbdən istifadə olunur. Bunun səbəbi bipolyar pozuntudan əziyyət çəkən pasiyentlərdə iki psixoloji halın mövcud olmasıdır (Т.И.Глазунова, К.Д.Топалова və b, 2017, 22).

Maraqlı müalicə metodlarından biri də musiqi terapiyasıdır. Bu növ terapiya iki qismə bölünür. Birincisi, musiqi terapiyası, ikincisi, musiqi meditasiyasıdır. Musiqi terapiyası psixoloqlar tərəfindən istifadə olunan bir metoddur. Bu terapiya elmi cəhətdən sübut olunmuş bir metoddur. Musiqi terapiyası zamanı pasiyent daxili sıxıntılarını, travmalarını, qorxularını rahat surətdə psixoloqa danışır. Terapiya iki üsulla

aparılır. Birinci üsulda pasiyent özü musiqi alətindən istifadə edir. İkinci üsulda isə pasiyent musiqini dinləyir. Bu cür metod pasiyentin koqnitiv və psixoloji vəziyyətlərinə müsbət təsir göstərir. Sadəcə olaraq, hansı musiqi depressiyaya daha yaxsı təsir edir, bu, dəqiq deyil. Hazırda bu istiqamətdə araşdırmalar aparılır. Həftədə altmış dəqiqə musiqi dinləmək yaşlı nəsildən olan depressiv xəstələrə yaxşı təsir göstərir (Л.Ян, 2022, 123-127).

Bipolyar pozuntunun haradan qaynaqlandığı yönündə düşüncələr çox və müxtəlifdir. Bioloji, serotonin, noradrinalin, dofamin (glutamatergic sistem) – bu amillər bipolyar pozuntunun əmələ gəlməsində rol oynayırlar. Müasir dövrümüzdə depressiyanın yaranma səbəbi kimi, neyromediatorların serotanin və noradrinalini pis ötürdükləri göstərilir. Bunun başvermə səbəbi olaraq, depressiyadan əmələ gəlməsi və ya beynin öz funksiyasında nasazlığın yaranmasıdır. Serotanin beynin ən böyük neyromediator sistem toplusudur və bütün beyni əhatə edir. Serotanin neyronlarının işlərində səhvin baş verməsi depressiyanın yaranmasına gətirib çıxarır. Noradrinalin beyində çox olduğu zaman xəstədə panik atak, təşviş və tremor halları baş verir. Noradrinalinin azalması isə depressiyaya səbəb olur. Dofaminin beyində azlığı xəstələrdə psixomator funksiyasının azalmasına gətirib çıxarır. Beyində ən yayılmış patogen neyromediatoru qlutomatdır. Bu hormonun müəyyən funksiyaları öyrənməkdə, ünsiyyətdə, həddən artıq həyəcanlanmada, hipoksiya və epilepsiyada rol oynayır (F.H.Çalik, Ç.Hocaoğlu, 2016, 56-58).

## Din və onun depressiyaya təsiri

“Din” ifadəsi ərəbcədə “deyn” kökündən gəlir. Mənaları – “adət, durum, cəza, mükafat, itaət, qarşılıq, hökm” anlamlarını ehtiva edir. Başqa dinləri də nəzərə alsaq, “yol, inanc, adət, bağ və qulluq” məzmunlarını ifadə edir (Enes, 2021). Din – insanların əsas mənəvi qidasıdır. Hər bir fərdin yaşadığı zamandan və məkandan asılı olmayaraq, inanmağa ehtiyacı olmuşdur. Qədim zamanlardan müasir dövrədək insanlığın bir çox dinlərə inandığını görə bilərik. Bu, panteizm və monoteizm olaraq iki yerə ayrılıb. Panteizmi qədim Misirdə, qədim Yunanıs-

tanda görə bilərik. Monoteizimi isə İslam, Xristianlıq və Yəhudilik dinlərində müşahidə edirik. Elmi inkişaf zaman-zaman insanları dindən uzaqlaşdırdı, yeni bir həqiqət axtarışına çıxardı. Bu həqiqət axtarışı onları dinin, sadəcə, insan zəkasının məhsulu olduğuna gətirib çıxardı. Bu düşüncələr, əsasən, XIX əsrdən etibarən formalaşmağa başladı. Ç.Darvinin təkamül nəzəriyyəsi dediklərimizə bir sübutdur. Ç.Darvinin təkamül nəzəriyyəsi dini düşüncələrə böyük zərbə vurdu. Gələcək alimlər bu fikrə əsaslanıb, din haqqında mənfi yazılar yazmağa başladılar. Bunlardan ən tanınmışı psixoanalist Z.Freyd oldu. O, "Totem və tabu" (1913), "Bir illüziyanın gələcəyi" (1927), "Musa və təktanrıçılıq" (1939) əsərlərində dinin tarixinə, haradan gəldiyinə, psixoloji aspektdən insana necə təsir etdiyinə dair öz nəzəriyyələrini irəli sürdü.

Dinin insan həyatına iki yöndən təsir qüvvəsi mövcuddur. Birinci tərəfi fərdin şəxsi həyatına, ikinci yönü şəxsin sosial həyatına təsiridir. "Şəxsi" dediyimiz zaman, müsəlman bir fərdin namaz qılması, oruc tutması, Həcc ziyarətinə getməsi və digər əməllər nəzərdə tutulur. Sosial tərəfdən baxdığımız zaman fərdin təkbaşına deyil, camaat namazı qılması, zəkat verməsi, xəstə insanları ziyarət etməsi, qohumluq əlaqələrini saxlaması və bu tip əməllər diqqətdə saxlanılır. Dindar insan inandığı, güvəndiyi Tanrını sevməklə yanaşı, onun buyurduğu əmrləri yerinə yetirməkdə mükəlləfdir (Enes, 2021, Osman, Cengiz, 2015, 99-102).

Müasir zamanda dinin fərdiləşməsi baş verir. Hər bir kəs, artıq doqmatik deyil, dinə fərdi aspektdən yanaşır. Bunun əsas təsiredici amilləri arasında dünyanın modernləşməsi dayanır. Vicdanın əsas tanrı olduğu düşünülür, yaxşı ilə pisi ayırd etməkdə insan özü qərar verir. Avropada sənaye inkişafı zamanı fabriklərdə belə bir yazı var idi: "Din fabrikın qapısına çatanda durur". Yəni din arxa plana çəkilir, vicdan önə gəlir (Osman, Cengiz., 2015, 99-100).

İnsan özünü tanıyandan sonra, içində olduğu dünyanın kim tərəfindən yaradıldığını, bəşər övladının haradan gəldiyini, haraya gedəcəyini özü-özünə sorğu-sual edir. "Ölüm nədir və ölümdən sonra nə baş verəcək?" – bu cür sualları cavablandırmağa din köməyə gəlir.

Din – insanın psixoloji halına stabillik qatır, ona həyatda hər bir hadisəyə sakit qəlblə baxmağı öyrədir.

**Depressiyanın müalicəsində dinin rolu**

Yuxarıda qeyd etdiyimiz kimi, dinin insanın həyat tərzinə, düşüncələrinə, mənəviyyatına boyük təsiri mövcuddur. Dinin insan psixologiyasına göstərdiyi müsbət təsir müasir zamanda bir çox elmi araşdırmada özünü sübuta yetirir. Depressiyanın müalicəsində dinin müsbət rolu vardır.

Xristian dinində müalicəvi metodlardan biri pastoral terapiyadır. Kilsəyə daxil olan insan pastorun qəbuluna gəlir, sıxıntılarını, problemlərini, günahlarını onunla bölüşür. Bunu dinləyən pastor insanın sıxıntılarına məlhəm olacaq məsləhətlər verir, onun qəlbinə rahatlıq bəxş edir. Müasir zamanda psixoloqlar bu üslubdan müalicə zamanı istifadə edirlər. Psixoloq belə müalicə zamanı pasiyentə teoloji məsləhət verir. Həm də ona rəhbərlik edir, problemləri aşmasına köməklik göstərir (Cebeci, 2012, 66-67).

Din və intihar – bu sözlər dindar üçün necə də yaxın və həm də uzaqdır. “Hər dində intihar etmək böyük günahlardan biridir”, – desək yanılmarıq. Depressiyanın son nöqtəsi intihardır. İntihar haqqında E.Dürkheymin 1897-ci ildə yazdığı “İntihar” əsərindən bizim zamanımıza qədər bir çox araşdırma edilib. Dinin insan həyatındakı rolu böyük və çoxşaxəlidir. Dindar insanın həyatının hər məqamında sevinc və ya kədər anlarında sığındığı bir Tanrı vardır. Dindar olan şəxs anlayır kı, başına gələn hər hadisə keçicidir. Hər olay Tanrı tərəfindən göndərilmiş bir sınaqdır. Bu düşüncədə olan insan həyatın çətinlikləri ilə üzləşə bilir, bu sıxıntıların gəlib-keçici olduğuna əmin olur. Çətinliklərə dua ilə yaxınlaşır, nə baş verirsə Tanrıdan olduğunu qəbul edir. Bu psixoloji rahatlıq dindar şəxsi depressiyaya düşməyə qoymur (Ağılkaya, 2010, 181-182).

Dində olan qayda-qanunlar, ayinlər, istifadə edilən musiqi alətləri, oxunan dini musiqilər insanın mənəvi-fizioloji saxlamlığına təsir göstərir. İslamda və Xristianlıqda olan oruc dindarın fizioloji saxlamlığına, mənəvi aləminə müsbət təsir edir. Hər ilin bir ayında dindarların

birlikdə dini ayinlərini icra etməsi onlara psixoloji rahatlıq gətirir. Bu, yəhudilərdə peşah, xristianlarda pasxa, müsəlmanlarda isə ramazan ayıdır. Bu dini ayin insanlara özlərini tək, kimsəsiz, lazımsız hiss etmələrinə icazə vermir. Dua zamanı insanlara mənəvi rahatlıq gəlir. Dindar olan kəs Tanrı ilə danışdığı zaman öz daxili rahatlığına qovuşur.

Sosiallaşma dinin istifadə etdiyi metodlardan biridir. Bu amil insanın özünü yalnız və lazımsız hiss etməsinə şərait yaratmır. Müsəlmalarda hər cümə günü məscidə toplaşmaq, xristianlarda isə bazar günü kilsəyə gəlmək bunların gözəl nümunəsidir. (Сидоров, 2014, 18)11 Sadalanan dini amillər insan psixologiyasına müsbət təsir edir. Psixoloji gərginliyin yaranmasının qarşısını ala bilir.

Dinin depressiv xəstələrə müsbət təsir etdiyi bir çox araşdırmalarda öz təsdiqini tapmışdır. Bu amil xəstəyə ümid, inam, əminlik kimi müsbət psixoloji dəstək verir. Din xəstəyə psixoloji dəstək verməklə yanaşı, onun özünü dəyərli, vacib, cəmiyyətə və ailəsinə lazımlı bir şəxs kimi hiss etməsinə səbəb ola bilir. Xəstənin özünə sayğı, hörmət etməsinə köməklik göstərir. Dinin depressiv durumda olan şəxslərə təsiri çox böyükdür. Araşdırmaların birində 70 yaşlarındakı şəxslərdə depressiv durumun bir il boyunca azalması müşahidə olunub (Dein, Kimter, 2014, 739-742).

Zəmanəmizin böyük fəlakəti olan narkomaniya yaş tanımadan sürətlə yayılır. Bu fəlakətlə mübarizədə dinin öz rolu vardır. Amerikanın San-Fransisko şəhərində müalicə alanların 20 faizi yəhudilər idi. Bundan narahat olan yəhudi cəmiyyətinin üzvləri qərara gəldilər ki, sinaqoqlarda narkotikdən əziyyət çəkən insanlara köməklik etsinlər. Bu təbliğat nəinki sinaqoqlarda, həm də ailə üzvləri arasında başlanıldı. Nyu-York şəhərində bu məsələyə görə xüsusi komitə yaradıldı. Yəhudilərin cəmiyyətində yeni bir ortodoks sənəd çap olundu. “Halakhis” adı ilə cap olunan sənəddə əsl yəhudilərin narkotik maddə istifadə etməsi, əsas olaraq da marixuana qadağan edildi. Bu sənədin əsas qaynağı Tövrat oldu. Bu işlərdən sonra narkotikin istifadəsində azalma hiss edilməyə başlandı (Сидоров, 2014, 19).

Başqa bir məqalədə narkomanların müalicəsində dindarlığın nə qədər önəmli olduğuna dair empirik araşdırma aparılmışdır. Bu araşdırmada narkomanlardan iki qrup ayırırlar. Ümumilikdə isə onların sayı 80 nəfər idi. Qruplardan biri inanan, digəri inanmayanlardan ibarət idi. Onların gərginlik səviyyəsini, aqressivliyini, depressiyasını ölçdülər. Bu qruplar arasında inanc sahibi hesab edilən narkomanlarda depressiv hal daha az müşahidə olunmuşdur. Tədqiqatçılar bunu belə izah edirlər: dindar olanlar özlərini sakit, rahat, güvənli, inamlı, öz üzərlərində Tanrının köməyi olduğunu hiss edir və bunabənzər hallar yaşayırdılar. Onlar Tanrıdan güc aldıqlarına, residiv halın davamlı olacağına inanırdılar. Dindar olmayan narkomanlar isə yenə narkoloji maddələrə düçar ola biləcəklərini, özlərini bu maddələrdən qorumaq üçün güclərinin yetməyəcəyini düşünürdülər (Чухрова, Соколовская və b, 2013, 258-260).

Depressiyaya düşən xəstələrdə fiziki zəiflik, ətraf mühitə qarşı marağın azalması müşahidə olunur. Bu psixoloji-fizioloji düşkünlük zamanı insanın sevgiyə, qayğıya, hörmətə, diqqətə ehtiyacı yaranır. Din insanın belə istəklərini qarşılayır. Din insana sağlam düşünməyə imkan verir, kömək edir.

Hər bir insan həyatda xoşbəxt olmaq istəyir. Həyatında sevincli, gözəl günlərin çox olmasını arzulayır. Qədim dövr yunan fəlsəfi məktəblərindən biri olan sofistik düşüncə cərəyanında həyatı çətinə almamaq, baş vermiş hadisələri olmalı imiş kimi qəbul etmək əsas prinsip kimi irəli sürülürdü. Senekanın “Hamı bərabərdir, heç kəs üstün deyildir. Heç bir fərd alçaq sayılmamalıdır” düşüncəsi bu fəlsəfənin izahında gözəl nümunədir (Дьяченко, 2019, 483).

Bəhs etdiyimiz düşüncələr bütün dinlərdə vardır. Din həyatın keçici olduğunu bildirir, maddi nəsnələrə görə mənəvi olanı əldən verməməyə çağırır, insanı xoşbəxt həyat sürməyə sövq edir. Din insanı gələcək haqqında müsbət düşünməyə səsləyir, şəxsin gələcək haqqında müsbət düşünməsi üçün onun psixoloji durumuna yaxşı təsir edir. Həmçinin bəşər övladını gələcək haqqında inamlı düşünməyə sövq edir. Buna görə də din həyatda insanın azad olmadığını, hər bir nəsnənin Tanrının istəyi ilə baş verdiyini qəbul edir. Bu da şəxsin

psixoloji durumunun rahat olmasına gətirir. Bu rahatlıq insanın depressiv hala düşməməsinə köməklik edir (Enes, 2021).

**Nəticə**

Depressiv halın növləri müxtəlifdir. Depressiya və bipolyar pozuntu – psixoloji xəstəliklər növünün, sadəcə, ikisidir. Bu xəstəliyin müalicəsi bir çox metod ilə aparılır. Buna baxmayaraq, xəstəliyin müalicəsində hələ də tam dəqiq metod tapılmamışdır. Əsasən, antidepressantlardan istifadə edilsə də, bu, xəstəliyin, sadəcə, yumşalmasında rol oynayır. Psixoloqlar depressiyanın müalicəsində müxtəlif terapiyalardan istifadə edirlər – fizioterapiya, danışıq terapiyası və digər üsullardan yararlanırlar. Müasir tibb insanı, sadəcə, bir canlı kimi görsə də, şəxsin mənəvi-ruhani yönü də qaçılmazdır. Araşdırmlar bunu deməyə əsas verir ki, insan mənəvi tərəfindən boşluq yaşayırsa, bu, onun psixoloji durumuna təsir göstərir.

Araşdırmamızda depressiya halları və bipolyar pozuntu haqqında məlumat vermişik. Bu xəstəliklərin müalicəsində hansı metodlardan istifadə olunduğuna dair bəhs etmişik. Həmçinin müalicə ilə yanaşı, dinin insan psixologiyasına təsirini təhlil etmişik. Bundan əlavə, bir çox asılılıqdan əziyyət çəkən insanların müalicəsində dinin müsbət təsir göstərdiyini vurğulamışıq. Depressiyanın müalicəsində dini ayinlər icra etmək insanda məsuliyyət hissini gücləndirir, dua etmək mənəviyyatın sakitləşməsinə səbəb olur. Bundan əlavə, dini ayinlərin tətbiqi zamanı xəstələrdə özgüvən, sağalacaqlarına ümid, gələcəklərinə inamlı baxış, həyata olan maraqlarının artması müşahidə olunmuşdur. Dindar olan şəxslər reabilitasiya mərkəzlərində müalicə aldıqları zaman, sağalmalarının nəticəsi daha yaxşı olmuşdur.

Dindarların mövcud olduğu cəmiyyətdə depressiv halın səviyyəsi daha az müşahidə edilmişdir. Bunun səbəbi "din" məfhumunun insanı sosial həyat sürməyə, məsuliyyətli olmağa, pis vərdişlərdən uzaq durmağa sövq edir. Bu da dindarların psixoloji durumlarının sakit vəziyyətdə qalmaqlarına şərait yaradır. Hər bir insanın psixoloji narahatlıq keçirdiyi bir hadisə başına gələ bilər. Bunların arasında qorxu, panik atak, təzadlı hallar və digər psixoloji gərginliklər özünü göstərə

bilər. Həmin anda insanın köməyə, dəstəyə ehtiyacı vardır. Bu kömək daxildən, yəni insanın özü-özünə təlqinindən, xaricdən, ailə üzvlərindən, dostdan, yaxın olan kəslərdən psixoloji-mənəvi yardım olaraq həyata keçir. Dindar olan kəslərdə isə bunlarla yanaşı, daha fərdi bir mənəvi atmosfer yaşanır. Həmin mənəvi ab-havanı "iman gücü" adlandırsaq, yanılmarıq.

Dinin insana bəxş etdiyi töhfələr bunlardır: həyatı düzgün, sağlam yaşa; ömrü lazımsız işlərlə məşğul olmağa sərf etmə. Müasir zamanda insanların əksəriyyətinin depressiv olmasının səbəbi həyatlarını düzgün qura bilməmələrindən irəli gəlir. İnsanların qeyri-sosial həyat sürmələri onlarda melanxolik cəhətlər yaradır. Bu da gələcəkdə depressiya ilə üzləşmənin əsasını qoyur. İnsan inamla yaşamalı, sosial aktiv həyat sürməli, ona zərər verən pis aludələrdən uzaq durmalıdır. Bu kimi pis xüsusiyyətlərdən uzaq durmağı bacardıqları zaman insanların fizioloji-psixoloji sağlam qalmaları mümkündir.

## Ədəbiyyat

Э,Соломон. (2004). Демон полуденный Анатомия депрессии. Москва: Добрая книга. (672 с).

[E.Solomon. (2004). Demon poludennıy Anatomiya depressii. Moskva: Dobraya kniqa (672 s).]

М.Ю.Дробилжен, С.В.Кикта. (2014). Как выбрать антидепрессант для лечения депрессии. Моска: ГОУ ВПО ММА им. И.М.Сеченова, ГМУ УД президента РФ. (с.84).

[M.Y.Drobiljen, S.V.Kikta. (2014). Kak vıbrat antidepressant dlya leçeniya depressii. Moskva: QOU VPO MMA im. İ.M.Seçenova, QMU UD prezidenta RF. (s.84). ]

Р.О.Конор. (2010). Депрессия отменяется. Как вернуться к жизни без врачей и лекарств. Москва: ООО Мани, Иванов и Фербер. (442).

[R.O.Konor.(2010). Depressiya otmenaetsa. Kak vernutsya k jizni bez vraçey I lekarstv. Moskva: OOO Mani, İvanov i Ferber. (s.442).]

F.H.Çelik, Ç.Hocaoğlu. (2016). Major Depresiv Bozukluk Tanımı, Etiolojisi ve Epidemiyolojisi: Bir gözden geçirme // Riza: Journal of Contemporary Medicine, N 6. (s. 5658).

Enes,V.M. (2021). Hayatın anlamı, dindarlık ve sağlığı ilişkisi: Bir karma yöntem araştırması. İstantul. (335 s).

O.Eyyuboğlu, C.Batuk. (2015). Özsel ve işlevsel din Tanımları Bağlamında Assisili Fransız

Mistisizmi ve Protestant Ahlakının Mukayyesi // Samsun: Ondokuz mayıs Üniversitesi İlahiyyat Fakültesi Dergisi, N 36. (s. 99-102).

S.Cebeci. (2012). Dini danışma ve rehberlik. Ankara: Diyanet İşleri Başkanlığı. (221 s).

Z.Ağılkaya. (2010). İtihar ve Din: İtihar girişiminde bulunanlar Üzerine Empirik Bir Araştırma // Marmara: M.Ü. İlahiyat Fakültesi Dergisi, N 38. (s. 181-182).

П.И.Сидоров. (2014). Религиозный ресурс ментальной медицины // Архангельск: Экалогия человека, Ментальная экология. (с.18).

[P.İ.Sidorov. (2010). Reliqioznıy resurs mentalnoy medisını // Arxanqelsk: Ekoloqiya çeloveka, Mentalnaya ekoloqiya. (s.18).]

S.Dein, N.Kimter. (2014). Din, maneviyat ve Depresyon: Tetkik ve tedavi için öneriler // Ankara, Evek Akademi dergisi, N 18: 58. (s. 739-742).

М.Г.Чухрова, И.Э.Соколовская и др. (2013). Процесс адаптации лиц с наркотической зависимостью в реабилитационном центре в связи с принятием или отвержением религии // Москва: Мир науки, культуры, образования, N 6. (с.258-260).

[M.Q.Çuxrova, İ.E.Cokolovskaya i dr. (2013). Prosess adaptasıı lis s narkotiçeskoy zavisimostyu v reabilitasıonnom sebtre v svazi s prinyatiem ili otverjeniem reliqii // Moskva: Mir nauki, kulturı, obrazovaniya N 6. (s.258-260).]

Дьяченко.А.В. (2019). Космополитическое Мировозрение в философии Стоицызма: от классиков к современности // Саратов: Форум молодых ученых, N 6(34). (с. 483).

[Diyaşenko.A.V. (2019). Kosmopolitiçeskoe mirovozremiye v filosofii Stoisizma: ot klasikov k sovremennosti // Saratov: Forum molodıx uçenıx N 6 (34). (s.483).]

Осипова.Н.Н, Барденштейн.Л.М и др. (2018). Факты риска развития биполярного аффективного растройства // Москва: Вестник смоленской государственной академии, Т 17, N 2. (с.153-154).

[Osipova.N.N, Bardenşteyin.L.M i dr. (2018). Faktı riska razviyiya bipolyarnoqo affektivnoqo rastroystva // Moskva:Vestnik smolenskoy qosudarstvennoy akademii, t 17, N 2. (s.153-154).]

З.Фрейд. (1998). Печаль и меланхолия. Москва: Оснавные психологические теории в психоанализе. Очерк истории психоанализа. Сборник. СПБ, Алетейа, (288.с).

[Z.Freyd. (1998). Peçal i melanxoliya. Moskva: Osnavnıye psixiçeskiye teoriyi v psixoanalize. Oçerk istorii psixoanaliza. Sbormik SPB, Aleteya. (288.s).]

Казданян.С.Ш. (2017). К вопроску о подросковой депрессии // Ереван: Бюллетень науки и практики, N 4. (с.1)

[Kazdanan.S.Ş. (2017). K voprosu o podroskovoy depressii // Yerevan: Bulleten nauki i praktiki N4. (s.1).]

M.Ekinci, A.Okanlı və b. (2005). Mevsimsel Depresyonlar ve başetme yolları // Atatürk üniversiteri, Hemşirelik yüksekokulu dergisi, cilt 8, sayı 1. (s.1-4).

Т.П.Жук, Л.В.Дудаль. (2014). Особенности клинических проявлений и лечения послеродовых психозов// Караганда: Коллектив Авторов, Медицына и экология, N 2. (с.19).

[T.P.Juk, L.V.Dudal. (2014). Osobennosti kliniçeskix prouavleniy i leçeniya poslerodovıx psixozov // Karaqanda: Kollektiv avtorov, medisina i ekoloqiya N 2. (s.19).]

Сосунова.Н.А. (2015). Депрессия найти и обезвредить// Нижневартов: Здравоохранение югры опыт и инновации, N 3. (с.6).

[Sosunova.N.A. (2015). Depressiya nayti iobezvredit // Nijnevartov: Zdravoxranrnie yuqrı opıt i innovadiyi N 3. (s.6).]

A.Erdoğan, Ç.Hocaoğlu. (2020). Doğum sonrası depresiyonun tanı ve tedavisi bir gözden geçirme// Antalya: MKÜ tip dergisi, 11(39). (s. 2-6)

Merkez L. (2003). The history of psychiatry PGT 2- Website of University of Uirginia Health system.

D.Leader. (2018). Depresyon yas ve melankoli. İstanbul: Encore. (200 s).

D.Bhowmik, K.P.S.Kumar və b. (2012). Depression- Symptoms, Causes, Medications and Therapies// the harma innovation, the pharma journal vol 1, N 3. (s. 43-49).

Отдел охраны психического здоровья штата Нью-Йорк. (2008). Депрессия// НьюЙорк: Отдел охраны психического здоровья штата Нью-Йорк. (с.3).

[Otdel oxranı psixiçeskoqo zdoroviya ştata Nyu-Ork. (2008). Depressiya// Nyu-Ork: Otdel oxranı psixiçeskoqo zdoroviya ştata Nyu-Ork. (s.3).]

Mind. (2022). Depression// London: Mind for better mental heath, (s.3).

S.Örsel. (2004). Depresyonda tedavi genel ilkeler ve kullanılan antidepresan ilaçlar// Ankara, Klinik Psikiyatri, (s.18).

О.В.Воробьева, А.Ю.Скрипник. (2010). Депрессия у пациентов, страдаюших эпилепсией (особенности феноменологии и подходы к лечению)// Москва: Лечебное дело. (с.96-100).

[O.V.Vorobyeva, A.Y.Skripnik. (2010). Depressiya u padiyenyov, stradayuşix epilepsiyey (osobennosti fenomrnoloqii i podxodı k leçeniyu) // Moskva: Leçebnoe delo. (s.96-100).]

S.Bhattacharya, K.Hoedebecke və b. (2019). Smiling depression// Chandigarh: Indian Journal of Community Health, vol 31, ISSUE NO 04. (s. 433-434).

В.В.Васильев, Ю.В.Ковалев и др. (2014). Суицыдальные мысли при депрессивном синдроме// Ижевск: Суицидология, N 1(14). (с. 30-34).

[V.V.Vasilyev, Y.V.Kovalev i dr. (2014). Suisidalnıye mısli pri deprressivnom simdrome// İjevsk: Suisidoloqiya N1(14). (s.30-34).]

Ю.В.Ковалев. (2011). Феноменология суицидальных мыслей при депрессии// Ижевск: Суицидология, N 4. (с.35-36).

[Y.V.Kovalev. (2011). Fenomenoloqiya suisidalnıx mısley pri depressii// İjevsk: Suisidoloqiya N4. (s.35-36).]

И.Б.Якушев, П.И.Сидоров. (2011). Немецкая психиатрия первой половины 19 века// Архангельск: Российкий психиатрический журнал, N 4. (с.1-2).

[İ.B.Yakuşev , P.İ.Sidorov. (2011). Nemeskaya psixiatriya pervoy polovinı 19 veka // Arxanqelsk: Rossiykiy psixiatruçeskiy jurnal N4. (s.1-2).]

Михеева.М.Г, Молдованов.Н.А. (2019). Осведомленность общественности о биполярном аффективном расстройстве// Смоленск: Смоленский медицинский алманах, N 4. (с.140).

[Mixeyev.M.Q, Moldovanov.N.A. (2019). Osvedomlennost obşestvennosti o bipolyarnom affektivnom rastriydtve // Smolensk: Smolenskiy medisimskiy almanax N4. (s.140).]

Смирнова.В.Н, Тювина.Н.А. (2016). Биполярное аффективеное расстройство особенности течения и поддерживающая

фармакотерапия// Москва: Кафедра психиатрии и наркологии ГБОУ ВПО Первый МГМУ им И.М.Сеченова. (с.88).

[Smirnova.V.N, Tuvina.N.A. (2016). Bipolyatnoe affektivnoye rastroystvi osobennostu teçeniya i podderjivaniya farmakoterapiya// Moskva: Jafedra psixiatrii i narkoloqii QBOU VPO Pervıy MQMU im İ.M.Seçenova. (s.88).]

Борденштейн.Л.М, Осипова.Н.Н и др. (2018). Биполярное аффективное расстройство 2 типа// Москва: Российский медицынский журнал, N 24(3). (s.157-159).

[Bordenşteyin.L.M, Osipova.N.N i dr. (2018). Bipolyarnoye affektivnoye rastrpystvo 2 tipa //Moskva: Rossiyskiy medisinskiy jurnal N24 (3). (s.157-159).]

Гуменюк.Л.Н, Румянцева. М.И и др. (2017). Гендерные особенности биполярных аффективных расстройств// Симверополь: Таврический журнал психиатрии, т 21, N 4(81). (с.48).

[Qumenyuk.L.N, Rumanseva.M.İ i dr. (2017). Qendernıye osobennosti bipolyarnıx affektivnıx rasstroystv // Simveropol: Tavriçeskiy jurnal psixiatrii t 21, N4(81). (s.48).]

G.Karakuş, L.Tamam. (2010). Depresyon tedavisinde temel ilkeler// Adana: temel psikofarmakoloji, N 39. (711-715).

Т.И.Глазунова, К.Д.Топалова и др. (2006). Опыт приминения ламитора в лечении и профилактике депрессии при биполярных аффективных расстройствах// Краснодар: СКПБ, N 1. (с.22).

[T.İ.Qlazynova, K.D.Topalova i dr. (2006). Opıt primineniya lamitro v leçenii i profilaktike depressii pri bipolyarnıx rastroystvax // Krasnodar: SKPB N 1. (s.22).]

Л.Ян. (2022). Снижение затрат на лечение депрессии за счет применения музукальной терапии// Крым: Алманах крым Экономика, иновации, N 34. (с.123-127).

[L.Yan. (2022). Snijenie zatrat na leçenie depressii za sşet primineniya muzıkalnoy terapiyi// Krım: Almanax krım Ekonoçika, inovasiya N 34. (s.123-127).]

# Sivil din və siyasi dinin nəzəri problemləri: J.J.Russo, E.Dürkheym və R.Bellahın "sivil din" anlayışlarının müqayisəli təhlili

***s.f.d., dos. Asəf Qənbərov,***
Azərbaycan İlahiyyat İnstitutu
İlahiyyat fakültəsi,
Dinşünaslıq kafedrasının müəllimi
Bakı, Azərbaycan
asefganbarov@ait.edu.az
orcid.org/0000-0002-6082-6029

Daxilolma tarixi: 27.03.2024
Nəşrə təsdiq tarixi: 07.05.2024

## Xülasə

Bu məqalədə sosial elmlərin aktual problemlərindən biri olan "sivil din" anlayışı Jan Jak Russo, Emil Dürkheym və Robert Bellahın nəzəriyyələri kontekstində müqayisəli şəkildə araşdırılır. Dövlət və millətin müqəddəsləşdirilməsi şəklində tərif verilən "sivil din" anlayışı ilk dəfə Russo tərəfindən yaradılsa da, E.Dürkheymin və R.Bellahın tədqiqatları nəticəsində aktual problemə çevrilmişdir. Məqalədə J.J.Russonun siyasi din yanaşması ilə E.Dürkheymin "mədəni və sosial sivil din" anlayışı müqayisə edilir. Eyni zamanda, müasir sosioloji ədəbiyyatda "sivil din – siyasi din" anlayışlarının nəzəri problemləri müqayisəli təhlil edilir. Müəllif göstərir ki, tədqiqatçıların bəziləri "sivil din və siyasi din" anlayışlarını sinonim kimi işlətsələr də, tədqiqatçıların əksəriyyəti sivil dini cəmiyyətdə özü-özünə formalaşan dəyərlər, inanclar və mərasimlərin toplusu mənasında işlədir. Siyasi din isə əsasən, totalitar rejimlər tərəfindən insanlara məcburən qəbul etdirilən, hakim

ideologiyadan başqa bütün inancları və ideyaları sıxışdıran, onları özünə rəqib sayan etiqadlar toplusu mənasında işlədilir. Məqalədə sivil din nəzəriyyəsini tənqid edən tədqiqatçıların fikirləri qısa şəkildə nəzərdən keçirilmişdir. Azərbaycanda sivil dinin formalaşması məsələsinə gəlincə, müəllif qeyd edir ki, müasir millət-dövlətlərdə olduğu kimi, Azərbaycanda da sivil dinin bir çox elementlərinin yarandığı müşahidə edilir. Məsələn, Dövlət Bayrağı və Dövlət Himninə göstərilən sayğı, "Vətən" anlayışı, şəhidlik kimi dəyərlərin aşılanması kimi nümunələri bunlara misal verilə bilər. Müəllif hesab edir ki, bu ideyalar və mərasimlərin, əsasən, ənənəvi dinlərlə, xüsusilə İslamla əlaqələndirilməsi göstərir ki, Azərbaycanda müstəqil sivil din hələ erkən formalaşma mərhələsindədir, yetkin və müstəqil sivil dindən danışmaq hələlik mümkün deyildir.

***Açar sözlər:*** *din sosiologiyası, Azərbaycan, sivil din, siyasi din, sekulyar din, Russo, Dürkheym, Bellah.*

*Jurnalımızda dərc olunan məqalələrin müəllif hüquqları müəlliflərə məxsusdur və onlar CC-BY-NC lisenziyası ilə hər kəsə açıq şəkildə dərc olunur.*

# The Theoretical Problems of Civil Religion and Political Religion:

## A Comparative Analysis of the Concepts of Civil Religion by J.J.Rousseau, E.Durkheim and R.Bellah

***Assoc. Prof. Asaf Ganbarov,***
Azerbaijan Institute of Theology, Faculty of Theology
Department of Religious Studies
Baku, Azerbaijan
asefganbarov@ait.edu.az
orcid.org/0000-0002-6082-6029
Date of submission: 27.03.2024
Date of acceptance: 07.05.2024

**Abstract**

In this article, the concept of civil religion, a significant issue in social sciences, is comparatively examined in the context of the theories of J. J. Rousseau, E. Durkheim, and R. Bellah. To summarize, the concept of civil religion, defined as the sacralization of the state and nation, was first introduced by Rousseau, but subsequent research by Durkheim and Bellah transformed it into a relevant issue. This article compares J. J. Rousseau's political religion approach with E. Durkheim's concept of cultural and social civil religion. Furthermore, the theoretical problems associated with the concepts of civil religion and political religion are analyzed in modern sociological literature. The author argues that despite some researchers using the terms civil religion and political religion interchangeably, most scholars employ civil religion to refer to a set of values, beliefs and ceremonies that are formed by society itself. In contrast, political religion is primarily used to describe a set of beliefs imposed by totalitarian regimes, suppressing all beliefs and ideas other than the ruling ideology and considering them as rivals.

Additionally, the article briefly reviews the opinions of researchers who criticize the theory of civil religion. Concerning the formation of civil religion in Azerbaijan, the author notes that, as in modern nation-states, various elements of civil religion are observed in Azerbaijan. For instance, respect for the national flag and national anthem, the concept of homeland, and instilling values such as martyrdom can be cited as examples. However, the author believes that associating these ideas and ceremonies with traditional religions, particularly Islam, suggests that independent civil religion in Azerbaijan is still in its early stages of development and it is not yet possible to speak of a complete and independent civil religion.

***Keywords:*** *Sociology of Religion, Azerbaijan, Civil Religion, Political Religion, Secular Religion, Rousseau, Durkheim, Bellah.*

*The copyright of the articles published in our journal belongs to the authors and is published as open access under CC-BY-NC license.*

# Теоретические проблемы гражданской и политической религии: сравнительный анализ концепций гражданской религии Ж.Ж.Руссо, Э.Дюркгейма и Р.Белла

***д.ф.по социологии, доц. Асаф Ганбаров,***
Азербайджанский институт теологии, Факультет теологии,
преподаватель кафедры Религиоведения
Баку, Азербайджан
asefganbarov@ait.edu.az
orcid.org/0000-0002-6082-6029

Дата подачи статьи в редакцию: 27.03.2024
Дата подтверждения статьи к публикации: 07.05.2024

**Резюме**

В данной статье понятие гражданской религии, являющееся одной из актуальных проблем социальных наук, сравнительно исследуется в контексте теорий Ж. Ж. Руссо, Э. Дюркгейма и Р. Белла. Концепция гражданской религии, которая определяется как сакрализация государства и нации, была впервые создана Руссо, но в результате исследований Э. Дюркгейма и Р. Белла она стала актуальной проблемой. В статье сравниваются политический религиозный подход Ж. Дж. Руссо и концепция культурной и социальной гражданской религии Э. Дюркгейма. В то же время в современной социологической литературе сравнительно анализируются теоретические проблемы понятий гражданской религии и политической религии. Автор показывает, что хотя некоторые исследователи используют понятия гражданская религия и политическая религия как синонимы, большинство исследователей используют гражданскую религию в смысле совокупности ценностей, верований и обрядов, формирующихся ими же в обществе. Политическая религия в основном используется в смысле набора

убеждений, навязанных людям тоталитарными режимами, подавляющими все верования и идеи, кроме правящей идеологии, и рассматривающими их как соперников. В статье также кратко рассмотрены мнения исследователей, критикующих теорию гражданской религии. Касаясь формирования гражданской религии в Азербайджане, автор отмечает, что в Азербайджане, как и в современных национальных государствах, наблюдается появления многих элементов гражданской религии. Примером этого может быть привитие таких ценностей, как уважение к государственному флагу и гимну, концепция Родины и мученичества. Однако автор считает, что объединение этих идей и обрядов с традиционными религиями, особенно с исламом, показывает, что независимая гражданская религия в Азербайджане находится еще на ранних стадиях формирования и говорить о полной и независимой гражданской религии пока невозможно.

***Ключевые слова:*** *Социология религии, Азербайджан, гражданская религия, политическая религия, светская религия, Руссо, Дюркгейм, Белла.*

Авторские права на статьи, опубликованные в нашем журнале, принадлежат авторам и публикуются в открытом доступе по лицензии CC-BY-NC.

**Giriş**

"Sivil din" anlayışı müasir sosioloji nəzəriyyədə aktual problem kimi öz əhəmiyyətini qoruyur. Qloballaşma, sekulyarizasiya və modern millət-dövlətlərin meydana çıxması və inkişafı fonunda sosial-mədəni inteqrasiyanın möhkəmləndirilməsi vasitəsi kimi, sivil din bütün modernləşən dünyada mühüm rol oynayır. Bunu nəzərə alaraq, "sivil din" anlayışının tarixi, nəzəri və konseptual baxımdan, eyni zamanda, modern Qərb ölkələrində çiçəklənməyə başlamış sivil din modellərinin müqayisəli öyrənilməsinə ciddi ehtiyac yaranır (Çiçek, 2022).

Modern millət dövlətlər nə üçün "sivil din" anlayışını inkişaf etdirmişlər? Bu suala cavab verərkən, qeyd edilməlidir ki, ənənəvi cəmiyyətlərdə sosial harmoniya və inteqrasiyanı, əsasən, ənənəvi dinlər təmin edirdi. Cəmiyyətin əksər hissəsi tərəfindən bölüşülən tanrı inancı, ortaq dini mərasimlər, rituallar və simvollar ölkənin birliyi və həmrəyliyi üçün uyğun şərait yaradırdı. Dini baxımdan müxtəlifliyin hökm sürdüyü plüralist cəmiyyətlərdə dinlərin çoxluğu nəinki sosial harmoniyanı yarada bilmir, hətta ictimai münaqişələr və konfliktlərin yaranmasına gətirir. Belə olan halda, plüralist cəmiyyətlərdə ənənəvi dinlərdən fərqli olan və ölkə–dövlət səviyyəsində insanları müəyyən dəyər – inanc və simvollar ətrafında birləşdirən, milli həmrəylik yaradan, vətəndaşlıq hissini gücləndirən ideyalara ehtiyac var. Məhz bu ehtiyacı yerinə yetirən milli inanc sistemlərinə bir çox sosioloq tərəfindən "sivil din" adı verilmişdir (Roberts, 1990, 342).

Sivil din haqqında yazılmış ədəbiyyatı nəzərdən keçirdikdə görürük ki, ilk dəfə bu anlayışı siyasi və sosioloji ədəbiyyata gətirən şəxs fransız filosofu J.J.Russo olmuşdur. J.J.Russonun fikrincə, sivil din – vətəndaşlıq vəzifələrini və siyasi birliyi təşviq etmək məqsədilə hökmdar (*sovereign*) tərəfindən yaradılan və tətbiq edilən milli inanc sistemini ifadə edir (Rousseau, 1762, 110-111). "Sivil din" anlayışının inkişafına töhfə verən digər mütəfəkkir isə tanınmış fransız sosioloqu E.Dürkheym olmuşdur. O, "Dini həyatın elementar formaları" əsərində "sivil din" terminindən açıq istifadə etməsə də, toplumda sosial həmrəyliyi və əxlaqi normaları təmin edən müəyyən bir mənəvi inanc sisteminin zəruri olması fikrini irəli sürmüşdür (Durkheim, 1964). Ame-

rika sosioloqu R.Bellah isə 1967-ci ildə qələmə aldığı “Amerikada sivil din” məqaləsi ilə “sivil din” anlayışının müasir sosial və siyasi elmlərdə yenidən aktuallaşmasında çox mühüm rol oynamışdır (Bellah, 1967). Sözügedən üç müəllifin “sivil din” anlayışları aşağıda ətraflı tədqiq edilmişdir.

Müasir sosioloji nəzəriyyədə sivil din mövzusunda geniş ədəbiyyat formalaşmışdır. Bunların arasında M.Kristinin “sivil din – siyasi din” anlayışları arasındakı fərqlilikləri dərindən təhlil edən əsəri (Cristi, 2001) və E.Gentilin siyasi dinin (*political religion*) mahiyyətinə həsr olunan məqaləsi (Gentile, 2005) xüsusi diqqət cəlb edən sosioloji araşdırmalardır. C.Kolemanın sivil dinin inkişafının tarixi mərhələlərini göstərən məqaləsi (Coleman, 1970) , R.Bellah və F.Hammondun həmmüəllifliyi ilə nəşr olunan “Sivil dinin müxtəliflikləri” əsəri (Bellah and Hammond, 2013) sivil din haqqında yazılan sosioloji ədəbiyyata mühüm töhfələr vermişdir.

Türkdilli ədəbiyyatı nəzərdən keçirdiyimizdə, türk sosioloqu K.Atamanın “Millət olmanın müqəddəs təməli: sivil din” əsəri xüsusi qeyd edilməlidir. K.Ataman bu nümunəsində sivil dini E.Dürkheym, J.J.Russo və R.Bellahın nəzəriyyələri əsasında təhlil edir, “sivil din” anlayışına qarşı tənqidi mülahizələrini irəli sürür (Ataman, 2014). Bundan başqa, M.Düzcenin “Sivil din və siyasi din məfhumlarına nəzəri baxış” (Düzce, 2020), Ö.Çiçek və E.Kıvrakın Amerika sivil din konsepsiyasının transformasiyasını təhlil edən (Çiçek ve Kıvrak, 2023), Ö.Çiçekin (Çiçek, 2022) müasir dünyada sivil dinlərin sürətlə siyasiləşməsi prosesini araşdıran məqalələri bu sahədə yazılan ədəbiyyata töhfə verən əsərlərdən sayıla bilər.

Azərbaycan dilində “sivil din” anlayışına həsr olunan müstəqil bir əsər – monoqrafiya və ya araşdırma məqaləsi mövcud deyildir. Bununla yanaşı, A.Qənbərovun “Din sosiologiyası: ali məktəblər üçün dərslik” kitabında “sivil din” anlayışından qısa şəkildə bəhs edilir. Burada sivil dinin mahiyyəti T.Luhmanın “görünməyən din” konsepsiyası ilə müqayisə edilir və göstərilir ki, sivil din dünyəvi dövlətlərdə əsas inteqrasiya vasitəsi olaraq, özünü dövlət atributlarında, “Vətən” anlayışında və digər dünyəvi ideallarda göstərir (Qənbərov, 2022). A.Qən-

bərov onu da vurğulayır ki, sivil din rəsmi xarakter daşımır, ona hər hansı rəsmi status verilmir (Qənbərov, 2022, 242).

"Sivil din" anlayışına həsr olunmuş bu məqalədə, ilk növbədə, dinin mahiyyəti, müxtəlif formaları və dinə tənqidi yanaşmalar təhlil edilir. "Vətən" anlayışı, millət və dövlətçiliyin müqəddəs qəbul edilməsi mənasına gələn "sivil din" hansı ehtiyacdan yaranmışdır? Ümumiyyətlə, sivil dinin mahiyyəti nədən ibarətdir? O, ənənəvi dinlərin alternatividirmi və digər sualların cavablandırılması bu məqalənin əsas məqsədini təşkil edir. Məqalədə "sivil din" anlayışı J.J.Russo, E.Dürkheym və bu ifadəni elmi ədəbiyyatda aktual problemə çevirən R.Bellahın əsərləri əsasında təhlil edilir. Daha sonra, "sivil din – siyasi din" anlayışları arasında oxşarlıqlar və fərqliliklər araşdırılır. Nəhayət, məqalənin sonunda müzakirəyə çıxarılan "sivil din" anlayışının Azərbaycan kontekstində qısa təhlili aparılır, ölkəmizdə sivil din fenomeninin perspektivləri haqqında mülahizələr irəli sürülür.

## 1. "Sivil din" anlayışının mahiyyəti

Sivil dinin mahiyyətini araşdırmaq üçün əvvəlcə bu anlayışın ilk dəfə nə zaman meydana çıxdığını nəzərdən keçirmək lazımdır. Bəzi tədqiqatçılar hesab edirlər ki, "sivil din" adlandırılan fenomen siyasi qurumların əmələ gəldiyi zamanlardan etibarən mövcud olmuşdur. Bu fikri müdafiə edənlərə görə, sivil din hadisəsi Antik dövrdə, yunan şəhər-dövlətlərinin milli Tanrı inancları, həmin mərhələnin böyük yunan filosofu Platonun sivil teologiyası, Roma imperatorlarından bəzilərinin sitayiş obyekti halına gətirildiyi Roma dövlət kultu ənənələrinə qədər gedib çıxır (Düzce, 2017, 285). Zənnimizcə, Antik dövrdə Misir fironlarının, yaxud Babil krallarının tanrılaşdırılması kultları da bu fikkkkjkjkri irəli sürənlərin məntiqinə uyğun olaraq sivil din sayıla bilər. Modern "sivil din" anlayışının millət-dövlətlər zəminində ilk dəfə meydana gəlməsi 1789-cu ildə baş vermiş Böyük Fransa inqilabı və 1776-cı ildə ABŞ-nin istiqlaliyyətindən sonra hasil olmuşdur. Belə ki, Amerika sivil dininin inkişafında əhəmiyyətli rol oynamış bu ölkənin XVI prezidenti Avraam Linkoln 1838-ci ildəki bir nitqində Konstitusiyanın və Birləşmiş Ştatlar qanunlarının xalqın siyasi dini olduğunu elan etmişdir (Gentile,

2005, 25). Bunu da qeyd etmək lazımdır ki, təxminən, “sivil din” mənasını daşıyan digər terminlərdən də istifadə edən alimlər var idi: məsələn, C.Devey “ortaq inanc” (common faith), S.Mid “respublika dini”, M.E.Marti “ümumi din” (religion in general), G.K.Çesterton “kilsə ruhuna sahib millət” və digər anlayışlardan istifadə edirdilər (Düzce, 2020, 390). Bu mənada, “siyasi din” və “sekulyar din” anlayışları da yuxarıdakılara əlavə edilə bilər. Qeyd edilməlidir ki, müasir dövrdə “sivil din” anlayışı həm akademik ədəbiyyatda geniş yayılmış, həm də sivil din ilə siyasi din arasında fərqliliklərin mövcudluğu geniş akademik müzakirələrin predmetinə çevrilmişdir. Bunu nəzərə alaraq, məqalədə, əsasən, “sivil din” və “siyasi din” dixotomiyası çərçivəsində mövzunun tədqiqinə önəm verilmişdir.

Sivil dinin mahiyyəti və definisiyasına gəlincə, R.Bellah hesab edir ki, “sivil din - millətə istinad edərkən tanrı dilindən (ilahilik) istifadə edilməsidir” (Bellah, 1967). Həmçinin millətin mövcudluğu və ali məqsədlərinin ilahi təyinatla formalaşmasına inanmaqdır. Bellahın fikrincə, Amerikanın qurucu liderlərinin sözləri və (siyasi) fəaliyyətləri sivil dinin formasını və strukturunu formalaşdırmışdır (Cristi, 2001, 51). ABŞ bayrağına sədaqət andında söylənilən “*Tanrının təbəəliyində vahid millət*” (*one Nation under God*) ifadəsi bu məramı yığcam formada ifadə edir. F.Hammondun sivil din haqqında tərifi də Bellahın “sivil din” anlayışına çox yaxın məna daşıyır: “Sivil din insanların (millətin) keçmişi, bugünü və gələcəyi ilə bağlı, bir növ, transsendental (müqəddəs) şəkildə başa düşülən inanc və ritualların toplusudur (Gentile, 2005, 23). C.A.Kolemana görə, “Sivil din insanın vətəndaş kimi rolunu və yaşadığı cəmiyyətin məkan, zaman və tarixdəki yerini son mövcudluq və məna şərtləri ilə əlaqələndirən inanclar, ayinlər və simvollar toplusundan ibarətdir (Coleman, 1970, 70)”. Koleman sivil dini siyasətin dini aspektinə işarə etdiyini, onun Qərb toplumlarında (və ya qərbtipli modern dövlətlərdə) inkişaf etdiyini, bu inkişafın üç tarixi mərhələdən keçdiyini düşünür:

– qeyri-müstəqil dövr;
– modernləşdirmə dövründə sivil dinə dövlət dəstəyi;
– müstəqilləşmiş sivil din (Coleman, 1970, 67).

A.Qənbərov “Din sosiologiyası” dərsliyində sivil dini aşağıdakı şəkildə təsvir edir: “Sivil din dünyəvi cəmiyyətlərdə əsas inteqrasiyaedici vasitə olaraq, dövlət rəmzlərinin, “Vətən” anlayışının, digər sekulyar dəyərlərin müqəddəs qəbul edilməsi kimi başa düşülür… “Sivil din” anlayışı bütün millət-dövlətlərdə mühüm yer tutur. Müasir dövlətlərdə milli bayram, ümummilli matəm günlərinin qeyd edilməsi; xalq qəhrəmanlarının, dövlətin qurucu liderlərinin xatirəsinin yad edilməsi; dövlət əhəmiyyətli abidə və məzarların ziyarət mərasimləri sivil dinin mühüm elementləri hesab olunur. Vətənə sədaqətlə bağlılıq, dövlətin inkişafı naminə çalışma, xalqın xoşbəxtliyi üçün qarşılıqsız xidmət və digər dünyəvi dəyərlər sivil dinin ali məqsədləri kimi çıxış edir (Qənbərov, 2022, 100-101)”.

A.Qənbərov İndoneziyanın dövlət–din münasibətlərinin modelində önəmli yer tutan, vahid Tanrıya inamı təmsil edən “*pançasila*” prinsipini şərh edərkən, “sivil din” anlayışına toxunur, bu iki ifadənin ortaq və fərqli cəhətlərini şərh edir: “Bəzi yönlərinə görə bu, (pançasila) sivil dinlə ortaq xüsusiyyətlər daşıyır. “Sivil din” anlayışında da dövlət bayrağı, milli liderlər, “Vətən ideyası” və digər bəzi milli ideologiyalar və dövlət atributları ali dəyərlər kimi nəzərdən keçirilir. Bununla yanaşı, sivil din plüralist cəmiyyətlərin birləşdirici ideologiyası kimi rəsmi statusa malik deyildir. İndoneziya dövlət–din modelində isə Tanrı inancını ifadə edən pançasila prinsipi dövlətin rəsmi ideologiyalarından biridir (Qənbərov, 2022, 242)”.

Sivil din ənənəvi dünya dinlərindən, hətta milli etiqadlardan olduqca fərqlənir. Sivil dinin Tanrısı, sadəcə, unitarian (Tanrının vahidliyi ideyası) deyil, O, eyni zamanda, qurtuluş və sevgidən daha çox sosial nizam, qanunun aliliyi və hüquqların toxunulmazlığı ilə assosiasiya edilir (Bellah, 1967, 7). Qısası, sivil dinin ali məqsədi nümunəvi vətəndaş yaratmaqdır. Buna görə də qanunlara sevgi ilə yanaşmağı aşılayır, ölkəni sitayiş və heyranlıq obyektinə çevirir. Dövlət və milləti müqəddəslik səviyyəsinə yüksəldərək, vətənpərvər insanlar yetişdirməyə çalışır (Düzce, 2017, 288). R.Bellah sivil və ənənəvi dinlər arasında funksional fərqliliyi aşağıdakı kimi xülasə edir: Xristianlıq – (ruhani) qurtuluşa, sivil din isə sosial nizam və vətəndaşlıq vəzifələrinə

önəm verir (Bellah, 1967, 8). Deyilənlərdən aydın olur ki, sivil din Tanrısının axirət dünyası və insanların fərdi qurtuluşu ilə bağlı heç bir əndişəsi, qayğısı yoxdur; O, sadəcə, bu dünya ilə, qanunlar və dolğun ictimai asayişlə maraqlanır.

Müasir sosioloqlar hesab edirlər ki, dinlərin ənənəvi formaları zəifləsə də, insanların həyatına məna qatan müxtəlif yeni inanc sistemləri meydana gəlir. İnsan həyatının mənası, məqsədi, ölüm və digər eksiztensial məsələlərə münasibətdə insanlar üçün dünyagörüşü rolunu oynayan hər bir inanc sistemi müqəddəsliyə gətirib çıxarır ki, bu da sosioloqların fikrinə görə, sivil din də bunlardan biridir (Roberts, 1990, 341). Qeyd edilməlidir ki, sivil dinin sosioloji nəzəriyyədə həqiqi kimi qəbul edilməsi kəskin mübahisələrə səbəb olmuşdur. Bu mübahisələrin mərkəzində bu sual dayanır: sivil din – sosioloji mənada din, yoxsa siyasi ideologiyadır? Bu mənada, C.Armstronq, C.F.Vilson, R.Fenn və C.Kelly fərqli arqumentlər irəli sürür, sivil dinin həqiqi mənada din sayılması fikrinə qarşı çıxırlar. Onların fikrincə, sivil dinlə nəzərdə tutulan, əslində, siyasi məqsədlər üçün dini motivlərdən istifadə edən pafoslu vətənpərvərlik və dini millətçilikdən başqa bir şey deyildir (Gentile, 2005, 23). R.Fenn müasir cəmiyyətlərdə din əsasında həmrəyliyə ehtiyac qalmadığını, beləliklə, müasir dünyada sivil din daxil olmaqla, istənilən bir dinin sosial inteqrasiya və həmrəylik üçün yetərli zəmin yaratmasının mümkün olmadığı fikrini irəli sürmüşdür. Müasir toplumların plüralist, liberal və dünyəvi xarakterə malik olmaları dini simvolizm əsasında yaradılan sosial inteqrasiyaya imkan verməməkdədir (Düzce, 2020, 392). K.Ataman isə sosiologiyada dinə funksional, substantiv və politetik baxışları nəzərdən keçirdikdən sonra belə bir qənaətə gəlir ki, sivil din nəzəri baxımdan din təriflərinə uyğundur; belə ki, funksional və substantiv baxımdan onu din saymaq mümkündür. Sivil dinin Tanrısı simvolikdir. Əgər Bellahın təklif etdiyi Amerika sivil dininin xarakterinə baxsaq, onun simvolik Tanrısı ya məcazi məna daşıyır, ya da yəhudi-xristian ənənəsinin Tanrısıdır. Bu, hər iki halda sivil dinin özünəməxsusluğunu aradan qaldırır. Digər tərəfdən, K.Ataman hesab edir ki, bir cəmiyyətin milli dəyərlər və ideallarının müqəddəs mənalar daşıması onu din halına gətirmir. Bu, Amerika sivil

dininə məxsus dəyərlər və baxışlar sisteminin universallaşmasına və mədəni ekspansiyaya gətirib-çıxarar ki, bunun mənfi nəticələri Qərbin (ABŞ) mədəni və siyasi ekspansionist siyasətində özünü açıq şəkildə göstərir (Ataman, 2014, 100-101).

Sivil din konsepsiyasının məhdudiyyətləri arasında onu da qeyd edirlər ki, qurucu liderlər, bayraqlar, milli abidələr və bayramların yad edilməsi kimi sivil din elementləri daha çox XIX və XX əsrlərin millət–dövlət sistemlərində inkişaf etmişdir. Milli kontekstdən daha geniş, qlobal mədəni və ya siyasi inteqrasiya istiqamətində atılan addımlar və təşəbbüslərə sivil dinlərin millətə sitayiş kultları və etno-mədəni fərdilik ideyaları maneçilik törədir (Wernick, 2010, 644). Bununla yanaşı, bəzi tədqiqatçılar müasir millət–dövlət zəminində yaranmasına baxmayaraq, universallaşma potensialı daşıyan, bütün dünya üçün müqəddəs qübbə (sacred canopy) rolunu oynamağa namizəd olan iki rəqib sivil dinin meydana gəldiyini iddia edirlər; bunlar 1776-cı ildə Amerikanın istiqlaliyyəti və 1778-ci ildə Fransa inqilabından sonra yaranan sivil din modelləridir (Wernick, 2010, 644). Xüsusilə qeyd edilməlidir ki, Fransa inqilabı, sadəcə, sekulyar deyil, eyni zamanda, antiklerikal (din əleyhdarı) sivil din yaratmağa cəhd etmişdir. Bu prosesdə kilsə ağıl məbədinə çevrilmişdir (Cristi, 2001, 142-143). Fransa sivil dininin sekulyar və liberal dəyərlərə əsaslandığı nəzərə alındıqda, onun qloballaşması üçün geniş imkanların yarandığı məlum olur. Xüsusilə də qloballaşmanın yaratdığı çağırışlar fonunda geniş vüsət alan mədəniyyət toqquşmaları (culture clash) bir-birinə rəqib sivil dinlərin yaranmasına gətirib-çıxarır. İstər ABŞ-də, istərsə də Böyük Britaniyada dini, etnik-linqvistik və sosial qruplarının artan müxtəlifliyi daha çox mədəni birliklərin daxil olmasına imkan verən sivil dinlərin artmasına səbəb olur (Robertson, 2012, 252).

## 2. J.J.Russonun "sivil din" anlayışı

Yuxarıda qeyd edildiyi kimi, sivil din haqqında ilk dəfə J.J.Russo 1762-ci ildə qələmə aldığı məşhur "İctimai müqavilə" əsərində bəhs etmişdir. O, sivil dini vətəndaşlıq vəzifələri və siyasi birliyi dəstəkləyən inanc sistemi hesab edirdi (Cristi, 2001, 15). Russo siyasi birliyin təmin

edilməsi üçün ictimai müqavilənin təkbaşına yetərli olmadığını, vətəndaşları bir-birinə sıx bağlayan bir inanc sisteminin yaradılmasının zəruriliyini düşünür. Xristianlıq, Yəhudilik və politeist dinləri nəzərdən keçirən Russo bunların ictimai həmrəyliyi təmin etmək üçün əlverişli olmadığını iddia edir. O, sosial dözümsüzlüyün çoxtanrılı dinlərdən irəli gəldiyini vurğulayır, hətta sosial və dini dözümsüzlüklərin eyni nəsnə olduğunu irəli sürmüşdür (Çiçek ve Kıvrak, 2023, 630). Dinlərin və millətlərin formalaşması prosesi haqqında J.J.Russo deyir: “Başlanğıcda insanların tanrılarından başqa kralları, dinə əsaslanan (teokratiya) üsul-idarədən başqa hökumətləri yox idi. Hər siyasi toplumun özünəməxsus tanrısının olması millətlərin sayı qədər tanrıların (din) yaranmasına gətirib-çıxarmışdı. Beləliklə, millətlərin çoxluğundan politeizm (çoxtanrıçılıq) meydana gəldi. Bu da dini və milli dözümsüzlüyün əsasını qoydu” (Rousseau, 1762, 103).

“İctimai müqavilə”nin müəllifi toplumla münasibətləri baxımından üç növ dini bir-birindən fərqləndirir:

– insanın dini;

– vətəndaşın dini;

– rahibin dini.

J.J.Russo “insanın dini” dedikdə, fərdi dini; vətəndaşın dini ilə bir ölkənin və ya xalqın dinini” “rahibin dini” dedikdə isə Roma katolik kilsəsinin nümunəsində təzahür edən təşkilatlı dinləri nəzərdə tutur.  O yazır: “Birincinin nə məbədi, qurbangahları, ayinləri vardır; Uca Tanrıya sidq-ürəkdən sitayiş, yüksək əxlaqi vəzifələri yerinə yetirməkdir; “bu, İncildən ilhamlanan, səmimi, sadə, müqəddəs və təbii Tanrı hüququ” deyə biləcəyimiz dindir” (Rousseau, 1762, 107). Vətəndaşın dinini isə aşağıdakı kimi təsvir edir: “İkincisi, yalnız bir məmləkətdə qəbul olunur, həmin diyarın tanrılarına, müqəddəslərinə, qoruyucu mələklərinə sitayişi aşılayır; özünün ehkamları, ayinləri, qanunlarla tənzimlənən mərasimləri vardır, bu dinin mənsublarından başqa qövmlər, millətlər inancsız, yabançı və barbar sayılır. Bu din öz səcdəgahından kənarda insanlar üçün heç bir haqq və vəzifə tanımır. İlk insanların dinləri bu şəkildə idi ki, biz buna sivil və ya pozitiv din hüququ deyə bilərik (Rousseau, 1762, 107).

J.J.Russo dinlərin təsnifində ən çox üçüncünü – rahibin dinini kəskin tənqid atəşinə tutur: “İnsanlara iki çeşid qanun, iki hakim, iki yurd, bir-birinə zidd vəzifələr verən, eyni zamanda, həm mömin, həm də vətəndaş olmalarına maneçilik törədən qəribə bir üçüncü din vardır. Lamaların, yaponların, Roma kilsəsinə bağlı xristianların dini bu qəbildəndir. Bundan qarışıq və ictimai həyata uyğun olmayan bir hüquq meydana gəlir ki, bunun heç bir adı yoxdur” (Rousseau, 1762, 107). Deyilənlərdən aydın olur ki, Russo dinləri siyasi və ictimai faydaları baxımından qiymətləndirir: “Siyasi aspektləri nəzərə alsaq, hər üç dinin öz çatışmazlıqları olduğunu görərik. Üçüncüsü, (rahibin dini) açıq-aşkar ən pisidir; bunu sübut etməyə belə ehtiyac yoxdur. İctimai birliyi dağıdan hər şey dəyərsizdir; insanı özü ilə qarşıdurmaya sövq edən hər bir institut dəyərsizdir” (Rousseau, 1762, 107). Bu tənqiddən belə anlaşılır ki, Russonun fikrincə, iudaizm, katolisizm, pravoslavlıq, İslam və özünəməxsus əxlaqi və hüquqi ehkamları olan istənilən inanc sistemi dövlət və cəmiyyət üçün problem təşkil edir. Ona görə ki, bu qəbildən dinlər dövlətin qanunları ilə dini ehkamların ikitiryəliyini yaradır, insanlar hansı qanunlara itaət edəcəyini müəyyənləşdirə bilmirlər. Russo dini və siyasi hakimiyyətin ayrılığını düzgün hesab etmir, bu iki hakimiyyətin bir əldə cəmləşməsini dövlətin və cəmiyyətin mənfəəti üçün zəruri hesab edir (Rousseau, 1762, 106). Onun təklif etdiyi “sivil din” fikri də bu zərurətdən irəli gəlir.

J.J.Russonun fikrinə görə, vətəndaşın dinini Tanrı sevgisi ilə qanunlara tabelik sevgisini birləşdirdiyi, vətənpərvərliyi təşviq etdiyi, Vətən uğrunda ölənlərin şəhid, qanunları pozanları dinsiz elan etdiyi, dövlətə xidmətin müqəddəsliyini aşıladığı üçün yaxşı din kimi qiymətləndirmək olar. Bu dinin də yalan və aldatmalardan ibarət olduğu, ritualistliyi, cəhalət və dözümsüzlüyü yaydığı, öz dinindən olmayanları öldürməyi belə müqəddəs iş saydığı üçün Russo tərəfindən tənqidə məruz qalmışdır (Rousseau, 1762, 107). Nəhayət, insanın dini barəsində J.J. Russo düşünür ki, bu müqəddəs, həqiqi din sayəsində eyni Tanrıya sitayiş edənlər bir-birlərini qardaş bilirlər. Onları birləşdirən toplum heç vaxt dağılmaz. Bu dinin siyasi birliklə heç bir münasibəti yoxdur, dövlətin qanunlarını dəstəkləmir, dövlət sevgisi aşılamır;

burada möminlər, sadəcə, öz fərdi qurtuluşlarının qayğısını çəkirlər. Buna görə də Russo hesab edir ki, bu din toplumun ruhu ilə uyğunlaşmır (Rousseau, 1762, 108).

Bütün bunlardan sonra, J.J.Russo qeyd edir ki, hər vətəndaşın vəzifəsini ona sevdirən bir sivil dini olması dövlət üçün olduqca vacibdir. Bu dinin ehkamları dövlətlə vətəndaşlarını, bu dini qəbul edənlərin əxlaqi və digər vətəndaşlara qarşı vəzifələri baxımından maraqlandırır. İnsanların öz vicdan azadlıqları vardır, istədiklərinə inana bilərlər; hökmdarın bunu bilmək imkanı və səlahiyyəti yoxdur. Onun və yaratdığı dinin axirət dünyası ilə bağlı qayğısı və tələbi yoxdur; sadəcə bu dünya ilə, yaxşı vətəndaş olmaqla maraqlanır (Rousseau, 1762, 110-111). Sözügedən sivil dinin ehkamlarını hökmdar müəyyənləşdirir. Bunlar dini doqmalar kimi deyil, insanları uzlaşdıran xarakterə malik olmalıdır. Russo hesab edir ki, hökmdar vətəndaşları bu inancı qəbul etməyə məcbur edə bilməz. Bu etiqadı qəbul etməyənləri günah işlədiyi üçün deyil, toplum üçün yararsız olduğuna görə, ölkədən sürgün edə bilər.[1] Sivil din yaxşı vətəndaş olmanın minimum tələbləri üzərində qurulmuşdur. Bu da vətəndaşlıq vəzifələrini yerinə yetirməkdən ibarətdir. Bu tələbləri yerinə yetirməyənlər, Russonun fikrinə görə, ictimai müqavilə ilə meydana gələn cəmiyyətdən qovulur, yaxud edam edilir (Cristi, 2001, 23).

Russoya görə, sivil dinin ehkamları vətəndaşlıq vəzifələrini sevdirən, dövlətə bağlı insanlar yetişdirməyə çalışan, cəmiyyət tərəfindən könüllü qəbul edilən və tamamilə dünyəvi xarakterə malik olan prinsiplərdir (Cristi, 2001, 22). Sivil dinin ehkamları konkret və aydın olmalı, ikimənalılığa yol verilməməlidir. Hər nəsnəyə müqtədir, hər bir işdən agah olan, mərhəmətli Tanrının varlığı, salehlərin xoşbəxtliyi, bədxahların cəzalandırılması, ictimai müqavilənin və qanunların müqəddəsliyi prinsipləri sivil dinin pozitiv ehkamlarını təşkil edir. J.J.Russo sivil dinin neqativ ehkamı kimi bir prinsipi müəyyənləşdirir: bu da dözümsüzlükdür (Rousseau, 1762, 111).

[1] Bu yanaşmanın vicdan azadlığını hansı ölçüdə təmin etdiyi, əlbəttə, çox mübahisəlidir.

Nəticə olaraq deyə bilərik ki, Russo dinləri, əsasən, ictimai və siyasi faydaları baxımından qiymətləndirir. Onun üçün önəmli olan dinin mahiyyəti deyil, sosial funksiyalarıdır. Bunu da nəzərə almaq lazımdır ki, Russonun sivil dinlə bağlı fikirləri kifayət qədər etatist (dövlətçi) və antiliberal olub, günümüzün demokratik dəyərləri ilə səsləşməkdədir. Onun təklif etdiyi sivil din, Kristinin vurğuladığı kimi, (Cristi, 2001, 16) əslində, sırf siyasi məqsədlər üçün yaradılan politik dindir. Tarixi-sosioloji təhlillər göstərir ki, müqəddəs varlığa inam əsasında qurulmayan, despotik şəkildə insanlara qəbul etdirilməyə çalışılan inanc sistemləri geniş kütlələr tərəfindən rəğbətlə qarşılanmır, sosial inteqrasiyanın uğurlu təminatçısı ola bilmir.

### 3. E.Dürkheym və sivil din

Dinin sosioloji nəzəriyyəsinin inkişafına böyük töhfələr vermiş, görkəmli fransız sosioloqu və mütəfəkkiri E.Dürkheym sağlam cəmiyyətin formalaşdırılması üçün din institutunun vacib olduğunu düşünür. Belə ki, tarix boyunca bütün cəmiyyətlərdə hər kəsin müştərək şəkildə inandığı dəyərlər, normalar, miflər və tarixi ənənələr mövcud olmuşdur. Onun fikrincə, dövlətdən asılı olmayan, tamamilə sivil formada mövcud olan ortaq inanclar, mərasimlər və simvollar olmadan heç bir cəmiyyət ayaqda dura bilməz (Çiçek ve Kıvrak, 2023, 98). Dürkheym hesab edirdi ki, din fərdi topluma bağlayan inamlar, ayinlər və simvollardan ibarətdir və o, ictimai fenomendir. Bu baxımdan, inancın insanların psixoloji dərinliklərindən qaynaqlandığı görünsə də, əslində, bunlar sosial fenomenlərdə özünü göstərməkdədir (Düzce, 2017, 285).

E.Dürkheymin cəmiyyət–din münasibətlərinə özünəməxsus yanaşması onun dinə sosioloji baxışı ilə müəyyənləşir. Belə ki, o, dinin sosial mahiyyətini anlamaq üçün dinin ilk və saf formasının aşkara çıxarılmasını zəruri hesab edirdi. Beləliklə, Dürkheym dinin ən bəsit formasını "totemizm" adlanan baxışlar sistemində tapmışdır. Totemizm dini inanc sistemi olmaqdan daha çox ictimai nizam idi. Totemizmi ictimai nizamın ibtidai formalarından biri olan klandan ayırd etmək qeyri-

mümkün idi (Cristi, 2001, 31). Nəhayət, Dürkheym "Dini həyatın elementar formaları" tədqiqat əsərində belə bir nəticəyə gəlir ki, totem (totemizmdə müqəddəs qəbul olunan obyekt) və klan eyni mahiyyət olduğu kimi, toplum və din eyni reallığın fərqli təzahür formalarından ibarətdir. Din, sadəcə, toplumu birləşdirən, həmrəylik yaradan sistem deyil; din toplumun özüdür. Bunları bir-birindən ayrı düşünmək mümkün deyildir. Sosioloq din haqqında bu fikirləri irəli sürmüşdür: "Din– tanrı – toplumun öz əxlaqi və müqəddəs dəyərlərinə sitayiş etməsi, toplumun özü-özünü müqəddəs elan etməsidir. Toplum və tanrı eyni reallıqdır" (Durkheim, 1964, 206-210). Beləliklə, dinin məqsədi, ictimai və əxlaqi məqsədlərin rəmzi ifadəsindən başqa bir nəsnə deyildir (Aron, 2004, 277).

Dürkheym dinin mahiyyətini müəyyənləşdirərkən, sadəcə, Tanrı inancını və ayinləri vurğulamağı kifayət hesab etmirdi. Məsələn, din ilə sehri (magiya) müqayisə edərək deyir: "Sehr də, eyni zamanda, inanc və rituallara malikdir. Dinlər kimi onun da mifləri və təlimləri vardır (Durkheim, 1964, 42). Buna baxmayaraq, dini inanclar həmişə müəyyən bir qrup tərəfindən ümumi şəkildə həyata keçirilir. Din yalnız fərdləri deyil, bütün qrupu maraqlandıran kollektiv hadisədir. Sehrin isə kilsəsi (dini qrupu) yoxdur" (Durkheim, 1964, 43).

E.Dürkheym ilahi varlıqlara, fövqəltəbii güclərə müraciət edir, dinlərin tərifinin verilməsinin doğru olmadığını bildirir. Belə ki, Buddizm kimi bəzi dinlər ilahi varlıqlara inamı ehtiva etmir. O halda, dinin ən fərqləndirici xüsusiyyəti dünyəvi olanla müqəddəsin ayırd edilməsindən ibarətdir (Aron, 2004, 278). E.Dürkheym dinə belə tərif verir: "Din müqəddəs varlıqla bağlı inamlar və ayinlərdən ibarət olan, inananları mənəvi birlik və ya dini qrupda birləşdirən, beləliklə, ictimai həmrəylik yaradan sistemdir (Durkheim, 1964, 47)".

Dürkheym müasir sənayeləşmiş cəmiyyətdə dini qurumların nüfuzunun azaldığını görür, dinin sosial inteqrasiya funksiyasının bu və ya digər şəkildə davam etdiyini düşünür. Din transformasiya keçirir (bugünün dini sabahın ola bilməz). Digər tərəfdən, bir çox müasir sosial institutlar, məsələn, məktəb dinin funksiyasını yerinə yetirməkdə, dini qurumların yerini tutmaqdadır (Cristi, 2001, 38). Dürkheym hesab

edirdi ki, təhsil sisteminin, müəllimlərin əsas vəzifələri arasında əxlaqi təlim, vətəndaşlıq vəzifələri və vətənpərvərlik şüurunun aşılanması mühüm yer tutur. O düşünürdü ki, insanın özünü ölkənin inkişafına həsr etməsi, Vətən uğrunda fədakarlığa hazır olması və digər amillər gələcək nəsillərə ötürülməsi baxımından vacib olan dəyərlərdir (Cristi, 2001, 35). Bunlar onun sivil din konsepsiyasının əsas elementlərini təşkil edir.

E.Dürkheymin dinə yanaşmasını J.J.Russonun "sivil din" anlayışı ilə müqayisə etdikdə aydın nəzərə çarpmaqdadır ki, Russo vətəndaşların məcburi şəkildə qəbul etdiyi və ya sürgün edildiyi, bu şəkildə siyasi nizamın bərqərar edildiyi dövlət dinini (siyasi dini) müdafiə edir. Russodan fərqli olaraq, E.Dürkheym üçün sivil din məcburiyyət olmadan vətəndaşların qəbul etdiyi inamlar, ideyalar, ayinlər, rituallar və simvolların təmin etdiyi mənəvi birlikdir (Cristi, 2001, 16). Sivil din cəmiyyətin tarixi birgəyaşayış təcrübəsindən, dəyərlərindən, normalarından qaynaqlanır və təbii olaraq, cəmiyyət tərəfindən yaşadılır, nəsildən-nəslə ötürülür. Bunlar cəmiyyətdə geniş yayılan dəyərlərin həyata keçirilməsidir (Cristi, 2001, 40). Bununla yanaşı, qeyd edilməlidir ki, Dürkheym heç bir əsərində "sivil din" terminini açıq ifadə etməmişdir. O, sivil dini, sadəcə, toplumla əlaqələndirmiş, bu anlayışı dövlət və ya siyasi hakimiyyətlə heç vaxt assosiasiya etməmişdir. Bu baxımdan, deyə bilərik ki, Dürkheymin din konsepsiyası, həqiqətən, sivil xarakterə malikdir. Bu sivil din praktikasından günümüzdə də istifadə etmək üçün geniş imkanlar vardır.

### 4. R.Bellah: Amerikada sivil din

Əvvəldə qeyd etdildiyi kimi, R.Bellah "sivil din" anlayışını yenidən sosial tədqiqatların mərkəzinə gətirməyə nail olmuş sosioloqdur. Onun fikrincə, sivil din – milli şüur və dövlət legitimliyinin müqəddəs dəyərlər çərçivəsində əsaslandırılmasıdır (Bellah, 1967). Əlbəttə, Bellahdan əvvəl Amerikada sivil din hadisəsi haqqında danışanlar da olmuşdur. Yuxarıda ümumi din, respublika dini, kilsə ruhuna sahib millət və ya anım gününün xüsusi qeyd edilməsi (Cristi, 2001, 48) kimi nü-

munələr göstərir ki, bir çox sosioloq və siyasət elmi ilə məşğul olan alimlər sivil xarakterə malik inanc sisteminin mövcudluğundan xəbərdar idilər. Məhz R.Bellahın “Amerikada sivil din” məqaləsindən sonra, bu hadisə “sivil din” adı ilə tanınmağa başlamışdır.

R.Bellah sivil dini aşağıdakı kimi təsvir edir: “Respublikanın ilk illərindən etibarən gördüyümüz odur ki, sivil din müqəddəs nəsnələrlə bağlı və kollektiv şəkildə təşkilatlanmış inanclar, simvollar və rituallar toplusundan ibarətdir” (Bellah, 1967, 8). Müəllif ABŞ-nin XXV prezidenti Con Kennedinin xalqa müraciətini təhlil edərək, sivil dinin mahiyyətini və sosial əhəmiyyətini müəyyənləşdirməyə çalışır. Belə ki, prezident nitqində hər hansı bir xüsusi dinə işarə etmir; İsa, Musa peyğəmbərlərin, Xristian kilsəsinin adını çəkmir. Əlbəttə ki, Katolik kilsəsini xatırlatmır. Kennedi öz nitqində yalnız “Tanrı” anlayışına müraciət edir, bu da hər bir amerikalının sidq-ürəklə qəbul etdiyi inancdır (Bellah, 1967, 8). Bellah deyir: “Müstəqillik Bəyannaməsi və Konstitusiya müqəddəs mətnlərdir. C.Vaşinqton isə Tanrı tərəfindən təyin olunan və öz xalqını tiranlıqdan xilas edən Musadır. ABŞ tarixinin ümdə mövzusu olan Vətəndaş müharibəsi Amerika xalqının milli özünüdərkində böyük rol oynamış ikinci hadisədir (ABŞ-nin müstəqilliyindən sonra) ki, bu, sivil dində dolğun şəkildə təzahür edir” (Bellah, 1967, 9). Beləliklə, Vətəndaş müharibəsi Amerika sivil dininə yeni elementlər əlavə etmişdir: ölüm, şəhidlik, dirilmə. Bütün bunlar Avraam Linkolnun həyatı və ölümündə rəmzi formada ifadəsini tapmışdır (Bellah, 1967, 9).

R.Bellah hesab edir ki, Amerika sivil dini heç vaxt antiklerikal (kilsə əleyhdarı) və ya qatı sekulyarist olmamışdır. Əksinə, dini ənənələrdən elə nümunələri seçib-almışdır ki, sıravi bir amerikalı üçün ikisi arasında heç bir ziddiyyət yaranmamışdır.

Məlumdur ki, 1789-cu ildə baş vermiş Fransa inqilabı kökündən kilsə–din əleyhinə idi və Xristianlığa düşmən olan sivil din yaratmağa cəhd etmişdir. Həqiqətən də müasir Fransa tarixi boyunca ənənəvi katolik rəmzləri ilə 1789-cu il inqilabının simvolizmi arasında böyük uçurum olmuşdur (Bellah, 1967, 13). Deməli, Bellahın fikrinə görə, Fransa Respublikasının sivil dinindən fərqli olaraq, Amerika sivil dini ənənəvi dinlərin alternativi deyildir; sivil din və Xristianlıq (və ya digər dinlər)

yanaşı mövcud ola bilərlər. Sivil din ilə siyasi din arasındakı fərqlər, əsasən, bu məqamda özünü büruzə verir.

"Amerikada sivil din" məqaləsində müəllif sivil dinin müqəddəs mətnlər – İncil arxetipləri əsasında qurulduğunu iddia edir: "Sivil dinin əsasında İncil arxetipləri dayanır; çıxış, seçilmiş xalq, vəd edilmiş torpaqlar, yeni Yerusəlim, həyatını qurbanvermə və dirilmə (Bellah, 1967, 18). Bellah, eyni zamanda, Amerika sivil dininin həqiqətən də amerikasayağı və tamamilə yeni olduğunu düşünür. Onun fikrincə, Amerika sivil dini rəsmi Xristianlıqdan tamamilə ayrı və fərqlidir, lakin sivil din ictimai siqlətə və bütünlüyə malikdir. Digər tərəfdən, sivil dinin ənənəvi dinlərlə üst-üstə düşən ortaq vəsfləri də vardır; amerikan həyat tərzinin simvolları, inamları, ritualları meydana çıxmış və ABŞ tarixinin dönüş nöqtələrinə cavab olaraq, eyni zamanda, təkamül keçirmişdir. Yuxarıda da qeyd edildiyi kimi, müstəqillik, Vətəndaş müharibəsi, A.Linkolnun və C.F.Kennedinin ölüm hadisələri amerikan sivil dininə fədakarlıq, şəhidlik, dirçəliş motivlərini əlavə etmişdir. Bu fikrə görə, Müstəqillik Bəyannaməsi və Amerika Konstitusiyası sivil dinin müqəddəs mətnləri rolunda çıxış edirlər. Bellahın sivil din konsepsiyasının gerçəkliyi onun epistemoloji xarakterində özünü nümayiş etdirir. E.Dürkheymlə paralel olaraq, Bellah hər dinin öz içində yeganəliyi və həqiqiliyini müdafiə edir: din özünəməxsus (*sui generis*) və həqiqətdir. Bu məqamda, tanınmış sosioloq B.Törner Bellahın sivil din fikrini belə yığcam metafor ilə ifadə edir: "Tanrı öldü, yaşasın (sivil) din" (Turner, 1991, 56).

Türk sosioloqu A.Y.Sarıbayın K.Atamanın sivil din mövzusuna həsr etdiyi kitabına yazdığı Ön sözdə maraqlı mülahizə irəli sürür: "Bellahın qeyd olunan məqaləsini diqqətlə nəzərdən keçirdikdə, görünür ki, sivil din – sosioloji problem deyildir; bu, əslində, (süni şəkildə) inşa edilmiş bir siyasi teologiya (political - theology) məsələsidir. Belə ki, Bellahın yanaşmasında sivil din müqəddəsliyin siyasi olaraq təcrübə edilməsi şəklində özünü büruzə verir. Plüralizmin hökm sürdüyü Amerika toplumunda bütün fərqlilikləri ortadan qaldırdıqdan sonra, yerdə qalan – bir millət olmağın kollektiv mənliyini ifadə edən eynilik (bənzərlik) yalnız bir müqəddəs üçün mümkün ola bilər; bu da Bellahın fikrinə görə, sivil dindir (Ataman, 2014).

R.Bellahın təqdim etdiyi sivil din nəzəriyyəsində ABŞ dövlətinə, sanki müqəddəs missiya verildiyi aydın nəzərə çarpır. ABŞ-nin bütün dünyaya sülh və azadlıq gətirəcəyi iddiaları, məhz amerikasayağı sivil dinin xarakterindən irəli gəlir (Sağır, 2020, 167). Amerika sivil dinində xüsusi yeri olan "Tanrının təbəəliyində vahid xalq" və "Yer kürəsində Tanrının iradəsini həyata keçirən xalq" anlayışları da da bunu açıq şəkildə göstərir (Düzce, 2020, 390).

## 5. Sivil və siyasi dinlər

Yuxarıda sivil dinin mahiyyətini araşdırarkən, əslində, sivil və siyasi dinlərin bəzi fərqlərinə qısa şəkildə toxunuldu. Xüsusilə də J.J.Russo və E.Dürkheymin "sivil din" anlayışlarını təhlil edərkən bu fərqlərin bəziləri göstərildi. Burada isə sivil və siyasi dinlərin oxşar və fərqli cəhətləri daha ətraflı nəzərdən keçiriləcək.

Sivil dinin siyasidən tamamilə fərqli mahiyyətə malik olduğunu iddia edən tədqiqatçılar mövcuddur. Eyni zamanda, bunları eyni hadisənin fərqli formaları kimi nəzərdən keçirənlər də var. Bəzi tədqiqatçılar "sivil din" dedikdə, başqaları tərəfindən siyasi din hesab edilən tarixi hadisəni nəzərdə tuturlar. Bununla birlikdə, elmi ədəbiyyatda "siyasi din" (political religion), adətən, "sivil din, sekulyar din, ictimai din, siyasiləşmiş din, dini siyasət" və digər terminlərin sinonimi mənasında işlədilir. Tədqiqatçıların bir qismi isə "siyasi din" termini ilə tamamilə fərqli konseptual modeli nəzərdə tuturlar. Siyasi din mövzusunda araşdırmaları ilə tanınan E.Centil qeyd edir ki, C.Truver 1992-ci ildə marksizm-leninizm ideologiyasını sovet cəmiyyətinin sivil dini kimi təqdim edən bir kitab yazır. Halbuki bu əsərin yazılmasında onillərlə əvvəl K.Leynin sovet rejiminin dövlət rituallarını demokratik rejimlərin sivil dinindən fərqləndirmək üçün "siyasi din" adlandırdığı araşdırmalarını nəzərə almamışdır (Gentile, 2005, 19-21). "Siyasi din" anlayışının totalitarizmdən əvvəl yarandığı, daha sonra bu rejimlərin müqayisəli təhlili sırasında bolşevizm və nasizm ilə assosiasiya edilməyə başlandığı qeyd olunur (Gentile, 2005, 25). M.Kristi sivil dini inkişaf etmiş sənaye dövlətlərinin, siyasi dini isə Üçüncü dünya ölkələrində meydana gəlmiş

totalitar dövlətlərin ideologiyası kimi qiymətləndirən nəzəriyyələri rədd edir. Həmçinin hesab edir ki, sivil din özünü iki formada – mədəni-sosial, siyasi-ideoloji şəkildə göstərir. Bunlar bir-birlərinə zidd deyil; müəyyən sosial qrupun inanc və dəyərlərini özündə ehtiva edən fenomen, yaxud hansısa siyasi nizamın ideoloji gücü kimi təzahür edir. Belə olan halda, Russonun təklif etdiyi siyasi birliyi təmin etmək məqsədilə hökmdar tərəfindən yaradılan sivil din – siyasi və ideoloji sivil dindir. E.Dürkheymin müdafiə etdiyi ictimai həmrəyliyi və mənəvi birliyi təmin edən inanclar, dəyərlər, rituallar və simvollardan ibarət olan din isə mədəni-sosial sivil dindir (Çiçek ve Kıvrak, 2023, 634).

“Sekulyar din” anlayışı XX əsrin 30-cu illərində “siyasi din” mənasında geniş işlədilməyə başlanmışdı. Bu mənada, sekulyar və ya siyasi dinlər ənənəvi dinlərin zəifləməsi fonunda, totalitar liderlər və partiyaların yeni makiavellizm siyasətini, totalitarizmi, dövlətin bürokratik gücünün genişlənməsini, dövlətin sosial və mədəni sahədə mütləq üstünlüyünü müdafiə edən etatizm (dövlətçilik) ideologiyasını, tiranlığın bərqərar olunması üçün millətçi fanatizmin təşviq edilməsini bildirirdi (Gentile, 2005, 25). Siyasi din ənənəvi dinlərə və alternativ ideologiyalara qarşı dözümlü deyil. Halbuki sivil din – ənənəvi dinlərin alternativi deyil, onlarla yanaşı mövcud ola bilər. Siyasi din isə ənənəvi dinləri özünə rəqib hesab edir. Sivil din ölkədə mövcud olan bütün dini cərəyanlardan ümumi prinsipləri əxs etsə də, R.Bellahın ifadə etdiyi kimi, onun rəsmi elan olunmuş ehkamları yoxdur (Bellah, 1967, 15).

Siyasi din, əsasən, siyasətin müqəddəsliyi ilə əlaqələndirilir. Tədqiqatçılar hər hansı bir hərəkatın siyasi din sayılması üçün üç şərtin olmasını vacib hesab edirlər;

– insanın fundamental məqsədlərini və həyatın mənasını ifadə etdikdə;

– cəmiyyətin bütün üzvləri üçün məcburi ictimai normalar formalaşdırdıqda,

– reallığın və tarixin şərh olunmasında miflərə və simvolizmə müraciət etdikdə.

Bu xüsusiyyətlərinə görə, siyasi din heç bir etiraza imkan verməyən hakimiyyət monopoliyası, ideoloji monizm, fərdlərə və topluma öz təlimatlarını qeyd-şərtsiz qəbul etdirən siyasi bir sistemin müqəddəsləşdirilməsi kimi təsvir olunur (Düzce, 2020, 396). Sivil və siyasi dinlərin fərqlərini metaforik şəkildə təsvir etsək deyə bilərik ki, sivil din politeist, siyasi din isə monoteistdir. Xülasə, sivil din plüralist, tolerant, inklüziv; siyasi din isə monist, dözümsüz və ekslüzivistdir.

E.Centilin fikrincə, siyasi din insanı müqəddəs elan edən humanizm tərəfindən başlayan, lakin bunun əvəzinə dövlətin, millətin və irqin müqəddəsləşdirilməsinə gətirib-çıxaran müasir fenomendir. Həmçinin siyasi dinlər ənənəvi dinlərdən imtina edən, lakin sonradan kütlələrin inanma ehtiyacını təmin etmək, habelə avtoritar liderlərin hakimiyyətlərini legitimləşdirmək üçün yeni dinlər icad etməyə məcbur olan sekulyar humanizmin ifrat nəticəsi idi (Gentile, 2005, 26).

Siyasi din eksklüziv və inteqralxarakterli siyasətin sakrallaşdırılmasının bir formasıdır. O, digər siyasi ideologiyalar və hərəkatlarla birgəyaşayışı rədd edir; fərdin kollektivə münasibətdə muxtariyyətini inkar edir; onun əmrlərinə məcburi riayət edilməsini və siyasi kultunda iştirakını şərt qoşur. O, ənənəvi institutlaşmış dinlərə düşmən münasibəti bəsləyir, onları aradan qaldırmaq istəyir (Gentile, 2005, 30). Məsələn, Sovet İttifaqında Kommunist Partiyası marksizmi siyasi dinə çevirmişdir, hansı ki, burada tarixi materializmin təlimləri, sadəcə, təhsil sisteminin əsasını təşkil etməklə qalmayıb, eyni zamanda, məcburi hala gətirilmişdir (Cristi, 2001, 137-138). Yenə də buna 1860-cı illərdən 1940-cı illərə qədər Yaponiyanın dövlət Şintoizmini; 1920-ci illərdə Mustafa Kamal Atatürkün Türkiyədə həyata keçirdiyi Atatürk inqilablarını; 1940-cı illərdə Sukarno tərəfindən hazırlanmış İndoneziyanın "pançasila" ideologiyasını; Mao Tszedunun və kommunistlərin 1949-cu ildən sonra Çində "mədəni inqilab" adı altında həyata keçirdikləri köklü dəyişiklikləri misal gətirmək olar (Demerath III, 2003, 356). Siyasi dindən fərqli olaraq, sivil din – müəyyən bir siyasi hərəkatın ideologiyası ilə assosiasiya edilməyən, din və dövlətin ayrılmasını təsdiqləyən, özünü heç bir dini formasiya ilə eyniləşdirmədən ənənəvi dini institutlarla birlikdə mövcud olandır. Sivil dini deist bir şəkildə Tanrının varlığı-

nı qəbul edən, özünü partiya və dinlərüstü formada ümumi vətəndaşlıq inancı kimi təqdim edən, kollektiv siyasi varlığın müqəddəsləşdirilməsi kimi başa düşmək olar (Düzce, 2020). Sivil dində məcburiyyət yoxdur, o, sosial-mədəni mühitdə öz-özünə formalaşlır.

Nəhayət, bu iki anlayış arasında digər fərq sivil din ilə siyasi dinin məzmunu və predmeti ilə bağlıdır. Belə ki, Kristel Leynə görə, siyasi dində dini ünsür mövcud siyasi nizamı müqəddəsləşdirmək üçün istifadə olunur. Sivil dində isə bu nizam cəmiyyətdə mövcud olan ənənəvi dini inancların əsasını təşkil edən transsendent güclə bağlıdır. İkincisi, siyasi din təkcə cəmiyyətin siyasi məsələləri üzərində deyil, həm də onun sosial-mədəni həyatı üzərində hakimiyyət qurmaq iddiasındadır. Bunun əksinə olaraq, sivil din özünü yalnız siyasi məsələlərlə məhdudlaşdırır; insanların fərdi, sosial və mədəni həyatına qarışmır (Çiçek, 2022, 229). Qısası, sivil din mövcud siyasi ənənələrlə bağlı olduğu halda, siyasi din dövlət tərəfindən icad edilən totalxarakterli ideologiyadır.

## 6. Azərbaycanda sivil din

Azərbaycanda sivil dinin inkişaf perspektivlərindən bəhs etməzdən əvvəl, ilk növbədə, dövlətin ənənəvi dinlərə münasibətini nəzərdən keçirmək lazımdır. Dövlətin ənənəvi dini cərəyanlara münasibəti sivil dinin və siyasi dinin xarakterini müəyyənləşdirən ən önəmli amildir. Bu mənada, qeyd etmək lazımdır ki, Azərbaycan Respublikası müstəqilliyinin ilk illərindən etibarən özünü qatı sekulyarist, dini dəyərlərə qarşı və ya ənənəvi dinlərə (İslama) alternativ dünyəviliyi inkişaf etdirmək cəhdi göstərməmişdir. Əksinə, dövlət dünyəvilik prinsipini qəbul etməklə yanaşı, dinlərə, xüsusilə İslama müsbət yanaşmış, açıq şəkildə dini və milli-mənəvi ənənələrə sahib çıxmış, ənənəvi dinləri dəstəkləmişdir. Azərbaycan Konstitusiyanın XVI maddəsinin II bəndində “dövlətin xalqın tarixi, maddi və mənəvi irsini qoruduğu” açıq bəyan edilmişdir (*Azərbaycan Respublikasının Konstitusiyası*, 1995). Təbii ki, dini dəyərlər mənəvi irsin tərkib hissəsidir. Konstitusiyida, eləcə də Dini etiqad azadlığı haqqında qanunda (*Dini etiqad azadlığı*

*haqqında Azərbaycan Respublikasının Qanunu*, 1992) hər bir vətəndaşın vicdan, ifadə və ibadət azadlıqları təmin edilmişdir. Beləliklə, dövlətin din siyasəti və qanunvericiliyi hər hansı formada siyasi dinin yaradılmasını qeyri-mümkün və arzuolunmaz hala gətirir. Qanunvericilikdə mühüm yer tutan dünyəvilik prinsipi sivil bir dinin formalaşması üçün heç bir maneə təşkil etmir. Dünyəvilik məsələsi Azərbaycan Respublikası Konstitusiyasının 7.1-ci maddəsində öz əksini tapmışdır: “Azərbaycan dövləti demokratik, hüquqi, dünyəvi, unitar respublikadır”(*Azərbaycan Respublikasının Konstitusiyası*, 1995). Dünyəvilik prinsipinin interpretasiyasına gəlincə, dövlət qurumlarının rəsmi şəxsləri dünyəviliyi, adətən, “dövlətin dindən ayrı olduğu, qanunvericiliyin dini ehkamlara əsaslanmaması” kimi xarakterizə edirlər. Bununla yanaşı, dini dəyərlərin Azərbaycan xalqının tarixboyu formalaşan dəyərlər toplusunun bir hissəsi, dövlətin dini ənənəsinə sahib çıxması, dövlətin din (islam) ilə sıx əməkdaşlığını ifadə edən bəyanatlar Azərbaycan Respublikasının Prezidentinin nitqlərində də dəfələrlə ifadə olunmuşdur (Qənbərov, 2019, 124) Yenə də Azərbaycan Respublikası Prezidentinin hər il İslam dinində müqəddəs sayılan günlər və bayramlar münasibətilə xalqı təbrik etməsi, eyni zamanda, digər dinlərə mənsub olan vətəndaşların da müqəddəs bayramlarını rəsmi şəkildə təbrik etməsi dövlətin ənənəvi dinlərlə bağlı siyasətini açıq şəkildə göstərir (Qənbərov, 2019, 126-127) .

Qısası, millətin və dövlətin müqəddəsləşdirilməsi şəklində tərif verdiyimiz sivil dinin hansı elementlərinə müasir Azərbaycan Respublikasında rast gəlmək mümkündür? Fikrimizcə, Azərbaycanda sivil dinin elementləri arasında aşağıdakı ideyaları, ritualları və mərasimləri nümunə kimi daxil edə bilərik: Azərbaycan Konstitusiyasına və Bayrağına andiçmə mərasimləri, “Ana Vətən” anlayışı, Ulu Öndər ideyası (qurucu lider), Vətənin suverenliyi uğrunda Şəhidlik, xüsusilə də Qarabağ müharibəsi kontekstində “Vətən və Şəhidlik” anlayışları. Əlbəttə, bu səpkidə başqa siyasi-mənəvi dəyərləri əlavə etmək mümkündür, lakin nəzəri aspektdə hansı elementlərin sivil din, hansıların siyasi din sayılması problemi bu məsələni daha da mürəkkəbləşdirir, onu müba-

hisəli hala çevirir. Bu mövzuda konkret fikrin söylənilməsi üçün daha geniş və əhatəli araşdırmaya ehtiyac var.

Azərbaycanda sivil dinin inkişafının dönüş nöqtələrindən biri, şübhəsiz, Qarabağ müharibəsi və II Qarabağ savaşında Azərbaycanın əldə etdiyi tarixi qələbə ilə bağlıdır. R.Bellahın Vətəndaş müharibəsinin Amerika sivil dinində amerikan xalqının birliyi, vahidliyi və özünüdərkində oynadığı rolunu vurğuladığı kimi (Bellah, 1967), Qarabağ müharibəsi və tarixi qələbənin Azərbaycan xalqının birlik şüuru və milli özünüdərkində müstəsna rol oynadığı şübhə doğurmayan faktdır.

Amerika sivil dinindən fərqli olaraq, Azərbaycanda vətənpərvərlik və şəhidlik kimi sivil dinin bir çox elementlərinin İslamın inanc əsasları ilə assosiasiya edildiyi müşahidə olunur. Məsələn, “Vətənə sevgi” anlayışının, adətən, “Vətəni sevmək imandandır” şəklində islami fikir ilə dəstəklənməsi, habelə işğaldan azad olunmuş ərazilərdə, o cümlədən 10 noyabr 2020-ci ildə işğaldan azad olunmuş Şuşa şəhərində (*Əsgərimiz işğaldan azad olunan Şuşa məscidində azan oxudu*, 2020) əsgərlərin Dövlət Bayrağını yüksəltməklə yanaşı, İslamın önəmli simvollarından sayılan azan oxumaları (*Azad olunmuş torpaqlarımızda azan oxundu*, 2020), fikrimizcə, ölkəmizdə ənənəvi dini fikrin sivil dindən daha güclü olduğunu göstərir. Daha açıq şəkildə ifadə etsək, vətənpərvərlik, fədakarlıq, Vətənin suverenliyi uğrunda şəhid olmaq və digər dəyərlər ictimai sahədə, adətən, ənənəvi dini simvollarla ifadə edilir. Halbuki sivil din, yuxarıda göstərdirildiyi kimi, əsasən, dünyəvi ideyaların müqəddəsləşdirilməsi şəklində təzahür edirdi.

Ölkəmizdə sivil dinin təzahür formalarına başqa bir misal olaraq, Azərbaycan Respublikasının Prezidentinin inaqurasiya (andiçmə) mərasimi özünəməxsus simvolları və ritualları ilə xüsusilə diqqət cəlb edən mərasimlərdən biridir. İnaqurasiya mərasimində Azərbaycan Respublikasının Prezidenti Konstitusiya üzərinə əl qoyaraq and içir: “Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini həyata keçirərkən Azərbaycan Respublikasının Konstitusiyasına əməl edəcəyimə, dövlətin müstəqilliyini və ərazi bütövlüyünü qoruyacağıma, xalqa ləyaqətlə xidmət edəcəyimə and içirəm!” Sonra, Prezident Qurana əl basaraq and içir: “Əlimi “Qurani-Şərif”ə basaraq and içirəm: Azərbay-

can xalqının əsrlər boyu yaratdığı milli-mənəvi dəyərlərə və ənənələrə sadiq olacağam, onları daim uca tutacağam" (*İlham Əliyevin andiçmə mərasimi keçirilib*, 2024). Daha sonra Azərbaycan Respublikasının Dövlət Himni səslənir; Prezident təzim edərək, Azərbaycan Respublikasının Dövlət Bayrağını öpür (*İlham Əliyevin andiçmə mərasimi keçirilib*, 2024). Bu mərasimdə Prezidentin Konstitusiya ilə yanaşı, müsəlmanların Müqəddəs Kitabı – Qurana and içməsi təkcə dini simvolların dünyəvi dövlətə inteqrasiya edilməsi kimi deyil, həm də müasir millət-dövlət modeli üçün böyük əhəmiyyəti olan Konstitusiyanın müqəddəs kitab səviyyəsinə yüksəldilməsi anlamında başa düşülə bilər. Bu mənada, Konstitusiya Quranla yanaşı qoyularaq, müqəddəs dəyərə malik olduğu nümayiş etdirilir. Məsələyə bu baxımdan yanaşdıqda görürük ki, dünyəvi dövlət atributlarının müqəddəsləşdirilməsi Azərbaycan sivil dininin önəmli praktikası kimi çıxış edir.

Bununla yanaşı, Prezidentin andiçmə mərasimində çoxluğun, yəni məhz İslamın mühüm simvolu – Quranın seçilməsi ölkəmizin sivil dininin, əgər belə demək mümkünsə, önəmli bir fərqliliyini göstərir. Deyilənlərdən belə nəticəyə gəlmək olar ki, Azərbaycanda sivil dinin inkişafı ilə əlaqədar müəyyən proseslər gedir, ancaq dolğun və müstəqil bir sivil dindən danışmaq isə tezdir. Sivil din konsepsiyasının özünün mürəkkəb və mübahisəli olması bu problemin qiymətləndirilməsini daha da çətinləşdirir. Düşünürük, Azərbaycanda sivil din və onun problemləri istiqamətində daha geniş və əhatəli araşdırmaların aparılması bu problemi getdikcə aydınlığa qovuşduracaqdır.

## Nəticə

Nəticə olaraq deyə bilərik ki, müasir millət-dövlətlərdə "sivil din" fenomeni təntənəli dövlət mərasimlərində, ümummilli matəm və ya Müstəqillik Günü kimi əlamətdar mərasimlərdə, milli liderlərin, dövlət başçısının Tanrıya, dinə, milli-mənəvi dəyərlərə istinad etməsi, xalqa müraciətdə müqəddəs dəyər ətrafında birləşməyə yönəlmiş ifadələrdən istifadə etməsi kimi nümunələrdə özünü göstərir. Sivil dinin digər elementləri arasında müstəqillik ideyasının, dövlət bayrağı və himnin müqəddəsliyinin vurğulanması, vətənpərvərliyin ən ali fəaliyyət növü

olması və ya Vətən uğrunda şəhid olmağın ucaldılması kimi hadisələri qeyd edə bilərik. Sivil dinin əhəmiyyətinə ilk dəfə J.J.Russonun diqqət çəkməyinə baxmayaraq, bu fenomen, əsasən, Frana inqilabı və ABŞ-nin müstəqilliyi, habelə Amerika Vətəndaş müharibəsindən sonra özünü qabarıq şəkildə göstərməyə başlamışdır.

Təhlillərdən belə anlaşılır ki, sivil dinin iki modeli mövcuddur; bunların birincisi, siyasi və ideoloji, digəri sosial və mədəni zəmində meydana gələn formalardır. Siyasi və ya ideoloji sivil din dövlətin legitimliyini, siyasi birliyi təmin etmək üçün dövlət tərəfindən yaradılan inanclar, rituallar və mərasimlər toplusudur. Müasir sosioloji nəzəriyyədə buna "siyasi din" deyilir. Bu, eyni zamanda, J.J.Russonun müdafiə etdiyi sivil dindir. Russo iddia edir ki, hər bir cəmiyyətin inteqrasiyası üçün mütləq bir dini olmalıdır. Bu din dövlət tərəfindən yaradılır, ehkamları müəyyənləşdirilir, dövlət onu sanksiyalarla dəstəkləyir. Beləliklə, Russonun "sivil din" anlayışı siyasi xarakterə malikdir. Buna görə də tədqiqatçıların əksəriyyəti düşünür ki, Russonun "sivil din" anlayışının yaradıcısı olmasına baxmayaraq, o, əslində, sırf siyasətə və dövlət maraqlarına xidmət edən siyasi din ideyası yaratmışdır.

Sivil dinin digər forması – toplumun dəyərlərini, inanclarını ifadə edən, özü-özünə formalaşmış mədəni sivil din hesab olunur. Sosial həmrəyliyi təmin edən bu sivil din modeli isə E.Dürkheymin yanaşmasını təmsil edir. J.J.Russodan fərqli olaraq, E.Dürkheym hesab edir ki, hər bir toplum, təbii olaraq, bir dinə sahibdir; din cəmiyyətdə mövcuddur, sivil xarakterə malikdir. Dürkeymin fikrincə, sivil din insanlara zorla qəbul etdirilən ideologiya deyildir. Bu, insanlar üzərində güclü təsiri olan mədəni, sosial güc və nüfuz vasitəsidir. Sivil din cəmiyyətin tarixi birgəyaşayış təcrübəsindən, dəyərlərindən, normalarından qaynaqlanır və təbii olaraq cəmiyyət tərəfindən yaşadılır, nəsildən-nəslə ötürülür. Bunlar cəmiyyətdə geniş yayılan dəyərlərin həyata keçirilməsindən ibarətdir.

Nəhayət, müasir Azərbaycan Respublikasında sivil dinin formalaşması məsələsinə gəlincə, qeyd etmək lazımdır ki, hər millət-dövlət modelində olduğu kimi, Azərbaycanda da müəyyən dövlət atributlarının, ideyaların, dövlət əhəmiyyətli mərasimlərin ucaldılması praktikası

mövcuddur. Bunlara Dövlət Bayrağını və himni, "Vətən" anlayışını, Vətənin azadlığı uğrunda şəhidlik və digər nümunələri misal göstərmək mümkündür. Bununla birlikdə qeyd edilməlidir ki, yuxarıdakı ideyalar və praktikaların Azərbaycanda dolğun bir sivil dinin formalaşması üçün kifayət edib-etməməsi mübahisəli xarakter daşıyır. İlk növbədə ona görə ki, sivil dinin namizədləri hesab etdiyimiz bu mərasimlər və ideyaların bir çoxu ənənəvi dinlərlə, xüsusilə İslamla əlaqələndirilir. Bu durum, fikrimizcə, Azərbaycanda ənənəvi dini düşüncənin dərin köklərə malik olması, digər tərəfdən, "sekulyar siyasi toplum" anlayışının geniş yayılmaması ilə bağlıdır. Belə ki, sivil din ideyası, əsasən, sekulyar toplumlarda formalaşmaqdadır. Beləliklə, söyləyə bilərik ki, günümüzdə Azərbaycanda sivil dinin bəzi elementləri meydana çıxmaqda və onun ilkin formalaşması prosesi getməkdədir. Bunu da qəbul etmək lazımdır ki, dolğun və müstəqil bir sivil dinin mövcudluğundan danışmaq indiki zamanda mümkün deyildir.

## Ədəbiyyat

Aron, R. (2004). *Sosyolojik Düşüncenin Evreleri*. 5th edn. Ankara: Bilgi Yayınevi.

Ataman, K. (2014). *Ulus Olmanın Kutsal Temeli: Sivil Din*. Ankara: Sentez Yayınları.

*Azad olunmuş torpaqlarımızda azan oxundu* (2020) *Yeni Sabah Qəzeti*. Available at: https://yenisabah.az/azad-olunmus-torpaqlarimizda-azan-oxundu (Accessed: 18 March 2024).

*Azərbaycan Respublikasının Konstitusiyası* (1995). Available at: https://e-qanun.az/framework/897 (Accessed: 29 February 2024).

Bellah, R.N. (1967). 'Civil religion in America', *Daedalus*, pp. 1–21.

Bellah, R.N. and Hammond, P.E. (2013). *Varieties of civil religion*. Eugene: Wipf and Stock Publishers.

Çiçek, Ö. (2022). ‘Sivil Dinden Politik Dine Teopolitik Haller’, *Artuklu Akademi*, 9(2), pp. 223–236. Available at: https://doi.org/10.34247/artukluakademi.1169900.

Çiçek, Ö. ve Kıvrak, E. (2023). ‘Kültürel Sivil Dinden Politik Sivil Dine Amerikan Sivil Dininin Dönüşümü’, *Dinbilimleri Akademik Araştırma Dergisi*, 23(2), pp. 623–650. Available at: https://doi.org/10.33415/daad.1294267.

Coleman, J.A. (1970). ‘Civil Religion’, *Sociological Analysis*, 31(2), pp. 67–77. Available at: https://doi.org/10.2307/3710057.

Cristi, M. (2001). *From civil to political religion: The intersection of culture, religion and politics*. Wilfrid Laurier Univ. Press.

Demerath III, N.J. (2003). ‘Civil Society and Civil Religion as Mutually Dependent’, in M. Dillon (ed.) *Handbook of the Sociology of Religion*. New York: Cambridge University Press, (pp. 348–358).

*Dini etiqad azadlığı haqqında Azərbaycan Respublikasının Qanunu* (1992). Available at: https://e-qanun.az/framework/7649#_edn1 (Accessed: 18 March 2024).

Durkheim, E. (1964). *The Elementary Forms of the Religious Life*. 5th edn. London: George Allen & Unwin Ltd.

Düzce, M. (2017) ‘Sivil Dinin Teorik Temelleri’, *Van Üniversitesi Sosyal Bilimler Enstitüsü Dergisi*, 35, (pp. 1–24).

Düzce, M. (2020). ‘Sivil Din ve Politik Din Kavramlarına Teorik Bir Bakış’, *Bilimname*, 2020(41), (pp. 385–411). Available at: https://doi.org/10.28949/bilimname.670668.

*Əsgərimiz işğaldan azad olunan Şuşa məscidində azan oxudu* (2020) *Yeni Avaz Qəzeti*. Available at: https://www.yeniavaz.com/az/news/153010/esgerimiz-isgaldan-azad-olunan-susa-mescidinde-azan-oxudu-video (Accessed: 18 March 2024).

Gentile, E. (2005). ‘Political religion: a concept and its critics – a critical survey’, *Totalitarian Movements and Political Religions*, 6(1), pp. 19–32. Available at: https://doi.org/10.1080/1469076050009970.

*İlham Əliyevin andiçmə mərasimi keçirilib* (2024) *prezident.az* . Available at: https://president.az/az/articles/view/63979 (Accessed: 18 March 2024).

Qənbərov, A. (2019). *Azərbaycanda dövlət-din münasibətləri: dünyəviliyin nəzəri və hüquqi əsasları*. Bakı: "Nurlar" Nəşriyyat-Poliqrafiya Mərkəzi.

Qənbərov, A. (2022). *Din sosiologiyası: ali məktəblər üçün dərslik*. Bakı: AVE Print.

Roberts, K.A. (1990). *Religion in Sociological Perspective*. 2nd edn. California: Wadsworth Publishing Company.

Robertson, R. (2012) 'Küreselleşme, Teokratikleşme ve Siyasallaşmış Sivil Din', in P.B. Clarke (ed.) İ. Çapcıoğlu (tərc.) *Din Sosyolojisi: Yaşadığınız Dünya*. 1st edn. Ankara: İmge Kitabevi, pp. 233–273.

Rousseau, J.J. (1762). *The Social Contract*. Translated by G.D.H. Cole. Virgil, Æneid xi. Available at: https://web.archive.org/web/20171215154541id_/https://www.ucc.ie/archive/hdsp/Rousseau_contrat-social.pdf (Accessed: 5 March 2024).

Sağır, S. (2020). 'Ulus Olmanın Kutsal Temeli: Sivil Din', *İslami İlimler Araştırmaları Dergisi*, (8), pp. 163–167. Available at: https://dergipark.org.tr/tr/pub/iiad/issue/61990/928058.

Turner, B.S. (1991). *Religion and Social Theory*. 2nd edn. London: Sage Publications.

Wernick, A. (2010). 'The Future of Religion', in B.S. Turner (ed.) *Sociology of Religion* . Oxford: Wiley-Blackwell, (pp. 629–648).

# Quranda əxlaqi tənəzzülün səbəbləri və onun həll yolları

***i.f.d. Nicat Yəhyazadə,***
Bakı, Azərbaycan
yahyanecat87@mail.ru
https://orcid.org/0000-0002-2916-1698

Daxilolma tarixi: 09.04.2024
Nəşrə təsdiq tarixi: 22.05.2024

## Xülasə

Bütün insanlar fitrətən kamillik əldə etmək istəyirlər. Təbii ki, buna nail olmaq üçün insan lazımınca çalışmalı və səy göstərməlidir. Şəxsin əxlaq və davranışının sağlam olması onun kamillik zirvəzinə yüksəlməsində ən yaxşı zəmindir. İnsan sosial varlıq olduğundan, əxlaq və davranışını həmişə nəzarətdə saxlamalıdır ki, digər insanlarla gözəl tərzdə rəftar edə bilsin. Quranda insanın fərdi və ictimai həyatında vacib olan əxlaq və davranış qaydaları göstərilmişdir. Bu isə Quranın əxlaq mövzusuna və tərbiyə məsələsinə verdiyi dəyər, hərtərəfli baxışıdır. Quran insanın hidayətinə lazım olan bütün mühüm məsələləri ehtiva edir.

Qurani-Kərim haqqında bəhs etdiyimiz mövzunun nə qədər ciddi və əhəmiyyətli olduğunu çatdırmaq üçün əxlaqi tənəzzülə səbəb olan amilləri açıqlamış, həmçinin bu məsələnin həll yollarını da bəyan etmişdir. Quran ayələrində nəfsi istəklər, qəflət, bədgümanlıq və hərislik əxlaqi tənəzzülün səbəbləri kimi qeyd olunur. İman və saleh əməl, ilahi əzabdan qorxmaq, günah və pis işlərdən çəkinmək, ədalətin icra edilməsi əxlaqi tənəzzülün aradan qalxmasında lazım olan vacib məqamlardır. Hazırkı məqalə təsviri-analitik qaydada, məzmun analizinə əsaslanaraq, dini mətnlərdən istifadə etməklə əxlaqi tənəzzülün səbəblərini və onun həll yollarını Quran baxışından tədqiq və təhlil edir. Bu məqalə fənlərarası araşdırma sayılır, çünki əxlaq, hüquq, sosiologiya və Quran mövzularını özündə cəmləyir. Həmin amillər isə Quranın təfsir metodudur və müasir dövrümüzdə geniş şəkildə yayılmışdır.

***Açar sözlər:*** *təfsir, Quran, əxlaq, səbəblər, əxlaqi tənəzzül, həll yolları.*

*Jurnalımızda dərc olunan məqalələrin müəllif hüquqları müəlliflərə məxsusdur və onlar CC-BY-NC lisenziyası ilə hər kəsə açıq şəkildə dərc olunur.*

# The Causes and Solutions of Moral Decline in the Quran

***PhD Nijat Yahyazadeh,***
Baku, Azerbaijan
yahyanecat87@mail.ru
https://orcid.org/0000-0002-2916-1698

Date of submission: 09.04.2024
Date of acceptance: 22.05.2024

## Abstract

People naturally strive for perfection, but achieving this goal requires dedication and effort. A person's healthy moral and behavioral foundation is essential for reaching the highest peak of perfection. As a social being, it is crucial to maintain control over one's morals and behavior to interact with others in a respectful manner. The Quran provides a comprehensive guide to morality and behavior, emphasizing the essential principles for a person's personal and social life.

The Quran places great value on the subject of morality, offering a profound perspective on its significance. To convey the gravity of this topic, the Quran identifies the factors that lead to moral decline as well as the solutions to overcome these problems. According to Quranic verses, selfish desires, heedlessness, suspicion and greed are listed as causes of moral decline. On the other hand, believing in God wholeheartedly, avoiding sin, fearing divine punishment and doing justice are presented as solutions to overcome moral decay.

This article employs a descriptive-analytical approach to study and analyze the causes of moral decline and their solutions from a Quranic perspective, using religious texts as a basis for content analysis. This interdisciplinary study combines topics from morality, law, sociology and the Quran, reflecting a widely accepted method of thematic interpretation in modern times.

***Keywords:*** *Tafsir, Quran, Morality, Causes, Moral Decline, Solutions*

*The copyright of the articles published in our journal belongs to the authors and is published as open access under CC-BY-NC license.*

# Причины и пути решения морального падения в Коране

***д. ф. по теологии  Ниджат Яхьязаде,***
Баку, Азербайджан
yahyanecat87@mail.ru
https://orcid.org/0000-0002-2916-1698

Дата подачи статьи в редакцию: 09.04.2024
Дата подтверждения статьи к публикации: 22.05.2024

## Резюме

Все люди естественным образом хотят достичь совершенства. Конечно, чтобы этого добиться человек должен много работать и прилагать усилия. Здоровая мораль и поведение человека являются лучшей основой при достижении вершины совершенства. Будучи существом социальным, человек с целью достижения достойного отношения к другим людям должен всегда придерживаться морали и соблюдать правила поведения. В Коране отмечены правила морали и поведения необходимые для личной и общественной жизни человека. Именно эти итоги разъясняют всеобъемлющий взгляд Корана на тему и проблему морали. Потому что в Коран входят все важные решения вопросов связанных с достижением человеком совершенства.

Для пояснения серьезности и важности данной темы в Священном Коране раскрыты факторы, способствующие нравственному падению, а также разъяснены пути решения проблемы. В аятах Корана среди причин морального упадка отмечены эгоистическое желание, невнимательность, подозрительность и жадность. Искренняя вера в Бога, избегание грехов, боязнь божественного наказания и соблюдение справедливости являются необходимыми решениями при преодолении морального совершенства. Данная статья основываясь на религиозные тексты Корана, ссылаясь на дескриптивно-аналитический анализ исследует

и выясняет причины морального падения и отмечает пути их решения. Кроме того, эта статья является междисциплинарным исследованием, содержащим темы морали, права, социологии и Корана. Такой метод тематической интерпретации Корана на современном этапе широко популярен.

***Ключевые слова:*** *тафсир, интерпреция, Коран, мораль, причины, моральное падение, решения.*

Авторские права на статьи, опубликованные в нашем журнале, принадлежат авторам и публикуются в открытом доступе по лицензии CC-BY-NC.

## Giriş

Bütün ilahi dinlərdə olduğu kimi, İslamda da insana xüsusi dəyər verilir. Bu özəl qiymətləndirmə şəxsin digər canlılar arasında yüksək mövqeyini göstərir. İnsan yaradılmışların ən üstünüdür. Qeyd etmək lazımdır ki, o, həm də ictimai varlıqdır. İnsanın ictimai fenomen olması onun qarşısında bir çox ictimai məsuliyyət və vəzifə müəyyən edir. Müqəddəs İslam dini həmin vəzifə və məsuliyyətləri sağlam həyata nail olmaq naminə insanlar üçün açıqlamışdır. Fərdin həyatında ən vacib məsələlərdən biri onun etikası, əxlaqı və başqaları ilə doğru-düzgün davranışıdır.

Quran ayələrində insanın fərdi-ictimai həyatını əhatə edən davranış və əxlaq qaydaları haqqında xüsusi tövsiyələr vardır. Quran məntiqinə görə, Allahın Rəsulu (s) insanlar üçün hər cəhətdən, xüsusilə də əxlaq baxımından ən gözəl nümunə və ülgüdür: *“Həqiqətən, Allahın Rəsulu Allaha, qiyamət gününə ümid bəsləyənlər (Allahdan, qiyamət günündən qorxanlar) və Allahı çox zikr edənlər üçün gözəl örnəkdir!”* (“əl-Əhzab”, 33/21). Həzrət Məhəmmədin (s) peyğəmbərliyə seçilməsinin əsas məqsədlərindən biri də insan əxlaqının kamilləşdirilməsidir. Heç kəsin əxlaqı Peyğəmbərin (s) tərbiyəsi qədər gözəl deyildi (bax: Məhəmmədzadə, 1420, 16-17). Onun əxlaqı, sanki Quranı təzahür edirdi, həqiqətdə isə o, canlı Quran idi. Məhz belə bir ilahi şəxsiyyət insanlar üçün gözəl nümunə ola bilərdi. Bəşər cəmiyyəti belə bir əxlaq nümunəsinə daim ehtiyac duyur. İlahi əxlaq həyata keçirildiyi təqdirdə, insan cəmiyyətində mənəvi atmosferin yaranmasına, insanların bir-birlərinin haqlarına hörmətlə yanaşmasına zəmin yaranır. Məhz belə olduqda bir çox cinayət və sosial problemlər aradan qalxır. Deməli, fərdi- ictimai əxlaqın düzgün formalaşması və əxlaqi tənəzzülün səbəblərinin aradan qaldırılması cəmiyyətin mənəvi sağlamlığı ilə sıx bağlı olan bir məsələdir. Belə ki, Quranın bəyan etdiyi gözəl əxlaqdan uzaq olan cəmiyyət heç zaman mənəviyyat kəsb edə bilməz. Buna görə də əxlaqi tənəzzülə aparan amillər araşdırılmalı, onun həll yolları tədqiq olunmalıdır.

Məqalədə öncə “əxlaq” sözünün mənası, sonra isə Quranın ədəb-ərkan mövzusuna hərtərəfli baxışı qismən də olsa araşdırılmış-

dır. Quranda fərdi əxlaqla yanaşı, ictimai nizam-intizam qaydaları da öz əksini tapmışdır. Quran ictimai əxlaq və davranış qaydalarına böyük əhəmiyyət verir, bu barədə cəmiyyətin üzvlərinə özəl tövsiyələr edir. Quran fərdi və ictimai davranış normalarını özündə ehtiva etdiyi kimi, əxlaqi tənəzzülün səbəblərinə və onların həll yollarına da münasibət bildirir. Quran hidayət kitabıdır və insana bu yolda lazım olan hər bir məsələni bəyan etmişdir. Əxlaq mövzusu da insanın hidayət olunmasında mühüm rol oynadığından, Allah-Taala bir çox Quran ayələrində bu məsələyə xüsusi yer ayırmışdır.

## I. "Əxlaq" sözünün mənası

"Əxlaq" sözü "xulq" və "xuluq" sözlərinin cəmi olub, "xasiyyət", "təbiət" mənasındadır. Eyni zamanda, insanın görünməyən, bəsirətlə dərk edilən "batini siması" mənasında da işlənir. Əks mənası isə insanın gözlə görünə bilən və zahiri xüsusiyyətini ifadə edən "xəlq" sözüdür (İbn Mənzur, 1414, X/87; Zübeydi, 1414, XIII/124). Əxlaqın İslam alimləri arasında ən çox istifadə olunan terminoloji mənası "insanda baş verən davamlı nəfsi xüsusiyyətlərin səbəb olduğu və bu cəhətlərə mütənasib hərəkətlərin asanlıqla və düşünülmədən həyata keçməsi"ndən ibarətdir (Məclisi, 1403, LXVII/372).

## II. Quranın əxlaq mövzusuna hərtərəfli baxışı

İslamın dini mövzularını üç hissədə dəyərləndirmək olar: əqidə, əxlaq və ehkam. Sonsuz elm sahibi olan Allah insan həyatının bu üç əsas sahəsini təmin etmək üçün öz elçilərini və müqəddəs kitablarını göndərmişdir. Əxlaq sahəsi şəxsin fərdi və ictimai həyatında yüksək əhəmiyyətə malikdir. "...İnsan ictimai varlıq sayılır və bir çox maddi və mənəvi ehtiyaclarını məhz cəmiyyət vasitəsilə həyata keçirə bilir" (Yəhyazadə, 2020, 35). Elə buna görə də Quran əxlaq mövzusuna çox geniş yer ayırmış və onu təfərrüatı ilə açıqlamışdır. Beləliklə, Qurani-Kərim fərdi və ictimai əxlaq qaydalarını özündə ehtiva edən ən mükəmməl səmavi kitabdır. Habelə Quran əxlaqa zidd olan xüsusiyyətləri və bir çox həyat normalarını da bəyan etmişdir (bax:

Məmmədov, 2013, II/1090-1187). Deməli, əxlaqın sağlam olması və tənəzzüldən qorunması mövzusu insan həyatında ən mühüm məsələlərdən biri sayılır. Bu isə şəxsin digər ictimai sahələrdə də müvəffəq olması üçün münasib zəmin yaradır. "...Əksər alimlərin fikrincə, əxlaqi fəzilət və xüsusiyyətlər, o cümlədən təvazökarlıq, səxavət, fədakarlıq, mərhəmətli və ədalətli olmaq, əhdə vəfa qılmaq, doğru danışmaq və s. yalnız ictimai və birgəyaşayışın məhsuludur" (Şirazi, 2011, 21). Digər səmavi kitablar da insanları sağlam əxlaq və davranışa dəvət etmişlər. Məlum olur ki, bəşər tarixində əxlaq mövzusu daim diqqətdə olmuşdur.

### a) Quranda fərdi əxlaq nümunələri

Fərdi əxlaq bəyənilən, fəzilətli sifət və xüsusiyyətləri qəlbdə yetişdirmək, onları əməldə təcəssüm etdirməkdir. Burada əsas məqsəd insanı yaradan və onun Rəbbi olan Allah-Taala ilə doğru-düzgün bəndəlik qaydaları əsasında davranmaq, Tanrının tövsiyə etdiyi əmrləri ədəb-ərkanla yerinə yetirməkdir. Bu barədə Quranda müxtəlif ayələr vardır. Onlardan bir neçəsini qeyd edirik:

- ***Saleh əməllər etmək:*** *"Mömin olub yaxşı işlər görən kişi və qadına (dünyada və axirətdə) xoş həyat nəsib edəcək və etdikləri yaxşı əməllərə görə mükafatlarını verəcəyik"* ("ən-Nəhl", 97).
- ***Allahdan bağışlanma diləmək:*** *"Səhərlər isə (Allahdan) bağışlanmalarını diləyirdilər"* ("əz-Zariyat", 18).
- ***Allaha təvəkkül:*** *"Allahdan başqa heç bir Tanrı (məbud) yoxdur. Buna görə də möminlər, ancaq Allaha təvəkkül etsinlər!"* ("ət-Təğabun", 13).
- ***Tövbə edərək Allaha tərəf qayıtmaq:*** *"Şübhəsiz ki, Mən həm də tövbə edib iman gətirəni, yaxşı işlər görüb, sonra da doğru yolu tutanı çox bağışlayanam!"* ("ət-Taha", 82).
- ***Səbirli və istiqamətli olmaq: "****Ey müsəlmanlar! Şəxsi həyatınızda səbirli olun, ictimai həyatda isə səbrinizi ümumiləşdirin. Fitnələr qarşısında vəhdətinizi gücləndirin və Allahın hüzurunda rəftarınıza nəzarət edin ki, xoşbəxt olasınız"* ("əl-Ali-İmran", 200).
- ***Allahın nemətləri ilə gözəl rəftar etməklə, onların şükrünü yerinə yetirmək:*** *"Yadınıza salın ki, o zaman Rəbbiniz bunu bildir-*

*mişdi: "Əgər (Mənə) şükür etsəniz, sizə (olan nemətimi) artıracağam. Yox, əgər nankorluq etsəniz, Mənim əzabım, həqiqətən şiddətlidir!"* ("əl-İbrahim", 7).

**b) Quranda ailəyə aid əxlaq nümunələri**

Ailədə olan əxlaq, insanın ailə üzvləri ilə sağlam və düzgün şəkildə rəftar etməsi – onlarla gözəl davranması deməkdir. Habelə ailə dəyərlərinə önəm vermək, onlara diqqət etməkdən ibarətdir. Quranda ailə əxlaqına aid bir çox ayə vardır. Nümunə olaraq bir neçəsini qeyd edirik:

- ***Gözəl rəftar:*** *"Onlarla gözəl (Allahın buyurduğu kimi) rəftar edin"* ("ən-Nisa", 19).
- ***Mənəviyyat kəsb etməkdə ciddi olmaq:*** *"Ey iman gətirənlər! Özünüzü və əhli-əyalınızı elə bir oddan qoruyun…"* ("ət-Təhrim", 5).
- ***Məsləhətləşmək:*** *"…Əgər ata və ana öz aralarında məsləhətləşib, uşağı (iki ildən tez) süddən kəsmək qərarına gəlsələr, ikisinə də heç bir günah olmaz"* ("əl-Bəqərə", 233).
- ***Sirr saxlamaq:*** *"…Onlar sizin, siz də onların libasısınız"* ("əl-Bəqərə", 187).
- ***Ailəyə namaz qılmağı əmr etmək:*** *"Əhlinə namaz qılmağı əmr et, özün də ona səbrlə davam et"* ("ət-Taha", 132).
- ***Valideynlərə xidmət:*** *"Onların hər ikisinə acıyaraq mərhəmət qanadının altına salıb"* ("əl-İsra", 24).
- ***Ata-anaya yaxşılıq:*** *"Biz insana ata-anasına yaxşılıq etməyi tövsiyə etdik"* ("əl-Əhqaf", 15).
- ***Valideynə təşəkkür:*** *"Mənə və ata-anana şükür et"* ("əl-Loğman", 14).

**c) Quranda ictimai əxlaq nümunələri**

İctimai əxlaq insanın digər şəxslərlə gözəl şəkildə rəftar etməsi və cəmiyyətə mənəvi dəyərlərlə, hörmətlə yanaşaraq onları qorumasıdır. Allah Quran ayələrində bu mövzuya xüsusi yer ayırmış, bir çox ictimai

əxlaq qaydalarını bəyan etmişdir. Burada onlardan ən mühümlərini qeyd edirik:

- ***Camaatla xoş və yumşaq rəftar etmək:*** *"Sən bağışlama yolunu tut, yaxşı işlər görməyi əmr et və cahillərdən üz döndər!"* ("əl-Əraf", 199).
- ***İctimai yerlərə icazə ilə daxil olmaq:*** *"Ey iman gətirənlər! Başqalarının evlərinə sahiblərindən icazə almadan və onlara salam vermədən girməyin. Bu, sizin üçün daha yaxşıdır"* ("ən-Nur", 24).
- ***Yaxşılıqlara dəvət və pisliklərdən çəkindirmə:*** *"Oğlum! …Yaxşı işlər görməyi əmr et, pis işləri qadağan tə. (Bu yolda) sənə üz verəcək müsibətlərə döz. Həqiqətən, bu (dediklərim) vacib əməllərdəndir!"* ("əl-Loğman", 17).
- ***Əhdə vəfa:*** *"O mömінlər ki, əmanətlərini və əhdlərini qoruyub saxlayarlar"* ("əl-Muminun", 8).
- ***Əfv (təqsirdən keçmək):*** *"Hər hansı bir pisliyin cəzası onun özü kimi bir pislikdir. Bununla belə, hər kəs (pislik edəni) bağışlasa və (onunla) barışsa, onun mükafatı Allaha aiddir. Həqiqətən, O, zalımları sevməz!"* ("əş-Şura", 40).
- ***Qəzəbi udmaq:*** *"O müttəqilər ki bolluqda da, qıtlıqda da (mallarını yoxsullara) xərcləyər, qəzəblərini udar, insanların günahlarından keçərlər. Allah yaxşılıq edənləri sevər"* ("əl-Ali-İmran", 134).
- ***Əxlaqa zidd olan məclisləri tərk etmək:*** *"Ayələrimizə istehza edənləri gördüyün zaman onlar söhbəti dəyişənə qədər onlardan üz çevir"* ("əl-Ənam", 68).
- ***Salamlaşmaq:*** *"Sizə salam verildiyi zaman onu daha gözəl alın və ya (eynilə sahibinə) qaytarın! Şübhəsiz, Allah hər şeyi hesaba alandır"* ("ən-Nisa", 86).
- ***İnsanların hüquqlarına riayət etmək:*** *"…Ölçüdə və tərəzidə düz olun. Adamların mallarının dəyərini (və ya onların haqqını) azaltmayın…"* ("əl-Əraf", 85).
- ***Pisliyə yaxşılqla cavab vermək:*** *"Yaxşılıqla pislik eyni ola bilməz! Sən (pisliyi) yaxşılıqla dəf et!"* ("əl-Fussilət", 34).

Qeyd edilən ayələrdən məlum olur ki, Quran əxlaq mövzusunu tam əhatəli və hərtərəfli şəkildə bəyan edir. Deməli, Quran insanın fərdi və ictimai əxlaq qaydalarına olduqca önəm verir. Fərdi və ictimai əxlaq qaydaları insan həyatının ayrılmaz hissəsidir. Quran isə bunu ən gözəl şəkildə açıqlamışdır. Burada Quran ayələrinə əsasən sadalanan əxlaq qaydaları nümunə kimi qeyd edilmişdir. Fərdi və ictimai əxlaq haqqında Quranda digər çoxsaylı ayələr də vardır. Bu mövzuda daha ətraflı məlumat almaq üçün təfsir və əxlaq mövzularında yazılan kitablara müraciət etmək olar.

### III. Əxlaqi tənəzzülün səbəbləri

İnsanın fiziki sağlamlığını təhdid edən xəstəliklər olduğu kimi, əxlaq və davranışını da tənəzzülə uğradan səbəblər var. Ümumiyyətlə, heç bir nəticə səbəbsiz deyil. Bəzən nəticələr acı və xoşagəlməz olur. Həmin səbəblər aradan qaldırıldığı təqdirdə, acı nəticələrdən yan keçmək mümkündür. Doktor Marden əxlaqi tənəzzülün səbəblərindən biri olan hərisliyin acı nəticəsi barəsində deyir: “Hərislik və tamahkarlıq nəticəsində insana təkcə fiziki deyil, ruhən də təsir göstərən digər mənfi düşüncələr meydana gəlir. Bu kimi xarakterlərə malik olanlar psixoloji problemli şəxslər hesab edilirlər. Onlar həyatı bizə haram edir, öz axarından çıxarır və ən gözəl insani keyfiyyətləri məhv edirlər” (Musəvi Lari, 2011, 190-191). Deməli, əxlaqi tənəzzülə, yəni insanın digərləri ilə davranışında xoşagəlməz halların yaranmasına səbəb olan bir sıra amillər vardır. Onları anlamaq və aradan qaldırmaq insan əxlaqının sağlam olması ilə nəticələnir. Burada əxlaqi tənəzzülün bir neçə səbəbini araşdırırıq.

**1. Nəfsi istəklər.** Bütün insanlarda nəfsi istəklər vardır, lakin onları nəzarətdə saxlamaq lazımdır. Nəfsi istəklər imanın zəifləməsi, etiqaddan məhrum olmaq və ya dinin formalaşmasına mane olmaqda mühüm rol oynayır. Bu üç mərhələdə mübarizə aparmayan insan başqaları ilə rəftarda gözəl əxlaqa yiyələnə bilməz. Buna görə də bir çox ayə və hədislərdə nəfsi istəklərin təhlükə və zərərləri haqqında xəbərdarlıq edilmişdir. Nəfsin özünün Qurani-Kərim baxımından bir çox

mərtəbələri vardır; burada əsas müzakirə mövzusu olan "nəfsi-əmmarə", yəni "günaha sürükləyən istək" nəzərdə tutulur. Nəfsi-əmmarə insanı günah etməyə sürükləyir. Belə hallarda insanın imanı və ağlı Allah-Taalanın köməyi və ilhamı ilə bu böyük təhlükəni dəf etməlidir. Qurani-Kərimdə Yusif (ə) peyğəmbər barədə buyurulur: *"Mən özümü təmizə çıxarmıram. Rəbbimin rəhm etdiyi kimsə istisna olmaqla, nəfs (insana) pis işlər görməyi əmr edər. Həqiqətən, Rəbbim bağışlayandır, rəhm edəndir!"* ("əl-Yusif", 12/53). Yusif (ə) nəfsi-əmmarənin şərindən bağışlayan və rəhimli Allaha pənah aparırdı. Bu isə onu göstərir ki, məsələ çox ciddi və təhlükəlidir. Allah-Taalanın köməyi və yardımı olmasa, şəxs öz insanlığından çıxacaq. Quran müfəssirləri bu mövzu ilə bağlı belə yazırlar: "Allahın rəhm etdiyi nəfslər istisna olmaqla, bütün meyillər pisliyə əmr edir və insanı həmin pis işlərə sövq etdirir. Allah onu əxlaqa zidd olan hərəkətlərdən qoruyur. Mənim Rəbbim olan Allah, tövbə edən və Ona üz tutan bəndələrinin günahlarını bağışlayandır" (Züheyli, 1422, III/1115). "Nəfs insanı bir-birindən fərqli və çoxsaylı təhrikedici günahlara sövq edir. Buna görə də insanın öz nəfsinin onu şəhvət və pisliyə meyil etdirməsinə bəraət qazandırması cahillik əlaməti hesab olunur. Əgər insan pisliklərə və şər əməllərə sövq etməkdən boyun qaçırarsa, Allahın mərhəmətinə nail olar. Allah onu pisliklərdən uzaqlaşdırıb saleh əməllərə istiqamətləndirər" **(**Təbatəbai, 1417, XI/198**). İnsan öz nəfsini islah etmədiyi təqdirdə, onda mənəvi boşluq yaranır və o, ruhən böhran yaşamağa başlayır. Bu isə şəxsin fərdi, ictimai əxlaq və davranışlarında təzahür edir, nəticədə, onun digərləri ilə rəftarında xoşagəlməz hallar ortaya çıxır. Müasir İslam filosoflarından biri deyir: "Nəfsi-əmmarə bütün insanlarda, o cümlədən Allahın müxlis qullarından sayılan Yusifdə** (ə) **belə var olan bir meyildir. Nəfs daim insanı müşayiət edir; bütün fərdlər ömürlərinin sonunadək ona cavabdehdirlər. İnsan bir varlıq kimi mövcud olduğu müddət ərzində meyil və instinktlər onu müşayiət edir. Şəxs nəyəsə meyil edəcəyi müddətdə nəfsi-əmmarə də var olacaqdır" (**Misbah Yəzdi, I/205**). Allah-Taala Quranın bir neçə ayəsində nəfsi istəklərdən uzaq olmaq barədə xəbərdarlıq edir:** "Nəfsinizin istəyinə uyub haqdan üz

çevirməyin!” (“əl-Nisa”, 4/135). Başqa bir yerdə buyurur: *“Allahdan bir dəlil (hidayət) olmayınca öz nəfsinə uyandan haqq yolu daha çox azmış kim ola bilər?!”* (“əl-Qəsəs”, 28/50). Ayədən də anlaşıldığı kimi, nəfsin istəkləri insanı doğru yoldan yayındıra, çirkinlikləri şəxsin gözündə bəzəyə, sonda bu vasitələrlə fərdi həqiqətləri görməkdən məhrum edə bilər. Bu, şeytanın nüfuz etməsinin ən əsas metodlarından biri, həmçinin bir çox bəla və günahların mənbəyidir. Nəfsin istəkləri insanda dünyapərəstlik hissini artırır. İnsanın da bu istəklərə nail olması üçün başqaları ilə əxlaq və davranışı pozulur. Allah-Taala insana ruhun paklanması, nəfsin idarəçiliyi və iman vasitəsilə kamilliyə nail olması üçün yol göstərmişdir. Ona günahlardan və pis əməllərdən çəkinməsini ilham etmişdir (“əş-Şəms”, 91/8). Ona görə də insan ağıl və vəhyin nəzarəti ilə nəfsini tanımalı, onun istəklərini doğru yolla təmin etməyi bacarmalıdır. Nəticədə, insan digərləri ilə gözəl əxlaqla rəftar edə bilir.

**2. Qəflət.** Qəflət insanı müxtəlif hallarda məhvə sürükləyən bir rəzillik sifətidir. İnsan fərdi xüsusiyyəti etibarilə ictimai münasibətlərində diqqətli olmalıdır ki, qəflətə qapılıb başqaları ilə əxlaqdankənar və xoşagəlməz şəkildə davranmasın. Qurani-Kərim qəfləti insanın dördayaqlılar həddinə enməsinin səbəbi kimi izah edir: *“Biz cinlərdən və insanlardan bir çoxunu Cəhənnəm üçün yaratdıq. Onların qəlbləri vardır, lakin onunla anlamazlar. Onların gözləri vardır, lakin onunla görməzlər. Onların qulaqları vardır, lakin onunla eşitməzlər. Onlar heyvan kimidirlər, bəlkə də, (ondan) daha çox zəlalətdədirlər. Qafil olanlar da məhz onlardır!”* (“əl-Əraf”, 7/179). Bu ayə, əslində, qəfləti məzəmmət olunmuş bir xüsusiyyət kimi təqdim edir. Əllamə Təbatəbai bu ayənin təfsirində yazır: “Ayədə qəflətə düçar olanların halı qəflətin həqiqəti kimi göstərilir. Sözügedən qəflət Allah-Taalanın iradəsi ilə hasil olmuşdur, Yaradanın iradəsi isə qəlblərə, gözlərə və qulaqlara möhür vurmaqdır. Allah onları buna yoluxdurmuşdur. Məlumdur ki, qəflət hər bir zəlalət və batilin kökündür” (Təbatəbai, 1417, VIII/337). Təbii ki, insanlar qəfləti öz pis əməlləri ilə qazanırlar və burada məcburiyyət yoxdur. Allah-Taala kimsəni qəflətə məcbur etmir, çünki O, insana iradə və ixtiyar vermişdir. Qəflət nəticəsində insan fərdi və ictimai münasibətlərində

əxlaqa zidd olan şəkildə rəftar edir. Başqa bir ayədə Allah buyurur: *"Bunlar o kəslərdir ki, Allah onların qəlblərini, qulaqlarını və gözlərini möhürləmişdir. Onlar (Allahın kafirlər üçün hazırladığı əzabdan) qafildirlər!"* ("ən-Nəhl", 16/108). "Onlar tamamilə qəflətdədirlər, çünki olduqları vəziyyət onlara əməllərinin nəticələri barədə düşünməyə imkan vermir" (Bəyzavi, 1418, III/242). Həqiqətən də hər bir işin aqibəti və sonu barədə düşünmək bir çox hallarda insanı pis vərdiş və rəftarlardan qoruyur. Qəflət isə insanı düşünmək nemətindən məhrum edir. Məhz buna görə də insanın törətdiyi günahların və əxlaqdankənar əməllərinin çoxunun səbəbi onun Qiyamət günü və haqq-hesabla bağlı qəflətdə olması ilə əlaqədardır. Qurani-Kərimdə bu ayə aydın şəkildə bəyan edilmişdir: *"İnsanların haqq-hesab vaxtı (qiyamət günü) yaxınlaşdı, onlar isə hələ də qəflət içindədirlər və (qiyamətə inanmaqdan) üz döndərirlər"* ("əl-Ənbiya", 21/1). Quran ayələrinin üçdəbir hissəsi məad və qiyamət barədədir. Ayədən də göründüyü kimi, qəflət nəticəsində bu əhəmiyyətli məsələ unudulur. Ölümü və axirət aləmini unutmaq isə insanın maraqları naminə müxtəlif qanunsuz və qeyri-şəri yollardan istifadə etmək və başqaları ilə xoşagəlməz əxlaqla rəftarına səbəb olur.

**3. Bədgüman olmaq**. Əxlaqi tənəzzülə və pis rəftara səbəb olan amillərdən biri də bədgümanlıqdır. Bunun bir çox nümunələri vardır. O cümlədən, qadının ərinə, yaxud ərin arvadına qarşı, dostun-dosta, şagirdin-müəllliminə bədgüman olması və s. Qurani-Kərimdə bu günahın böyüklüyü və insanı necə həlak edə biləcəyi barədə xəbərdarlıq edilir: *"Yoxsa (ey münafiqlər!) siz elə güman edirdiniz ki, Peyğəmbər və möminlər (döyüşdə həlak olub) bir daha öz ailələrinə qayıtmayacaqlar? Bu sizin ürəyinizə xoş gəlmiş və siz (Allah barəsində) pis fikrə düşmüşdünüz. Və (elə buna görə də) siz məhvə düçar edilmiş bir qövm oldunuz!"* ("əl-Fəth", 48/12). Bu ayədə bəzi ərəblərin bədgümanlığından xəbər verilir. Qəlblərində olan batil güman isə onların ölümünə səbəb oldu. Bu xəbərdarlıqdan hamı ibrət almalıdır, çünki bədgümanlıq hər bir insanın həlak olmasına zəmin yaradır.

Bədgümanlıq insanı azğınlığa düçar edir. Şeytan da insana bədgümanları gözəl cilvələndirməklə şəxsi haqq yolundan azdırır. Ta-

nınmış Quran müfəssiri Zəməxşəri ayənin sonundakı ifadəyə əsasən bədgümanlığın acı nəticələri və ziyanları barədə yazır: “Siz nəfsinizdə, qəlbinizdə və niyyətinizdə fəsad törətmiş bir dəstə idiniz və sizdə heç bir xeyir yox idi. Yaxud da Allahın hüzurunda Onun qəzəbinə və əzabına düçar olaraq həlak olacaqsınız” (Zəməxşəri, 1407, IV/337). İnsan digərlərinə qarşı olan gümanlarına nəzarət etməlidir ki, şeytan onlardan sui-istifadə etməsin və bu yol ilə onunla digərləri arasında olan münasibəti korlamasın. İmam Sadiqdən (ə) bu barədə nəql olunan hədisdə buyurulur: “İnsan bacardığı qədər başqalarının sözlərini və əməllərini yetmiş dəfə yaxşı yerə yozmalıdır. Əgər yetmiş dəfədən sonra yaxşıya yoza bilməsə, deməsin pisdir. Yaxşıya yoza bilmədiyi üçün özünü tənqid etsin” (Kuleyni, 1407, IV/58). Bəzi hallarda bədgümanlıq davam edərsə, həmin şəxsdə bu hal yəqinliyə çevrilər. İş, hətta o yerə çatar ki, bir şəxs sui-zənn sayəsində həyat yoldaşını boşayar, onun haqqını bədgüman olduğuna görə əsassız yerə pozar. Yersiz bədgümanlıq belə bir şəxsin ailə və ictimai əlaqələrinə də ziyan vurar. Münasibətlərin pozulması və soyuması nəticəsində isə bir çox dostlarını və yaxınlarını itirər.

**4. Hərislik və tamahkarlıq**. İnsanın fərdi və ictimai əlaqələrində baş verən əxlaqi tənəzzülün digər amillərindən bir də hərislik və tamahkarlıqdır. Bu hal insanlarda aramlıq hissini pozan, mənəvi cəhətdən əzab-əziyyət verən, həmçinin insanı həmişə ciddi stress altında saxlayan bir xüsusiyyətdir. Bu xislət insanın ixtiyarında olanlarla kifayətlənməmək və daha çoxunu tələb etməyə səbəb olur. Belə şəxslər özlərinin artıq tələbləri nəticəsində zillət və rüsvayçılığa düşür, nəticədə, insanlıq ləyaqətlərini əldən verirlər. Belə olduqda Allahla qarşı bəndəlik münasibəti pozulur və digər insanlarla əxlaqdankənar rəftar edilir. “Hərislik insanı sərvət və maddi mənfəətə yönəldən xoşagəlməz daxili səciyyədir... olduqca təhlükəli olan bu xislət insanın bədbəxtliyinə gətirir... Nəticədə, insan dünya malına o qədər bel bağlayır ki, hər şeyi, hətta, əxlaqi dəyərlərini belə, unudub onun yolunda qurban verməyə hazır olur” (Musəvi Lari, 2011, 185). Qurani-Kərimdə bu məsələ barədə ciddi xəbərdarlıq edilmişdir: *“Amma nə zaman (Rəbbin) onu imtahana çəkib ruzisini əskiltsə: “Rəbbim məni alçaltdı!”*

*– söyləyər. Xeyr! (Belə deməyin). Doğrusu, siz özünüz yetimə hörmət etmirsiniz. Bir-birinizi yoxsulu yedirtməyə rəğbətləndirmirsiniz. Mirası (halal-haramına) varmadan yeyirsiniz. Mal-dövləti isə lap çox sevirsiniz”* (“əl-Fəcr”, 89/16-20).

Əllamə Təbatəbai yuxarıda qeyd olunan ayənin təfsirində yazır: “(لَمًّا) “ləmmən” sözünün mənası budur ki, insan özünün və başqalarının payını mənimsəyir və qısası, əlinə keçən hər şeyi – istər pak və halal mal olsun, istərsə də haram – mənimsəməyə çalışır. Bəhs olunan ayə hərisliyin səbəbini belə açıqlayır: əllərinizə keçən yetim malını da yeyirsiniz” (Təbatəbai, 1417, XX/283).

Allah-Taala digər ayədə buyurur: *“Həqiqətən, o, var-dövlətə çox hərisdir”* (“əl-Adiyat”, 100/8). “Yəni insan pula və mal-dövlətə hərisdir. Ayədəki “var-dövlət” sözündən məqsəd insanın dünyadakı nəsibi olan pul, sağlamlıq və hakimlərin ona verdiyi vəzifə ola bilər. Kafir və cahillər bunlardan başqa bir şey tanımırlar. Axirət nemətlərinə qarşı hərislik göstərmək tərifəlayiq bir istəkdir” (Səalibi, 1418, V/619). Ayə məzəmmət xarakteri daşıyır. Belə ki, dünya malına olan sevgi insanları yoxsullara kömək etməkdən və tabeliyində olanlara yardım göstərməkdən çəkindirir. Halbuki insanda olan fitrətin hökmünə əsasən, möhtaclılara kömək etmək, onların ehtiyaclarını aradan qaldırmaq cəmiyyətdəki islahatların əsasını təşkil edir. Allahın sahibkarların öhdəsinə qoyduğu hüquqları yerinə yetirməkdən onların boyun qaçırmaları nəticəsində cəmiyyətdəki təbəqələşmənin əsası qoyulur. Ayənin xülasəsi xəsisliyin və yoxsulların hüquqlarının pozulmasının tənqidindən ibarətdir. “Xəsislik böyük günahlardan olmaqla yanaşı, ictimai sistemin pozulması və cəmiyyətin məhvinə səbəb olmaqdır” (Həmədani, 1404, XIX/264). Bu ayədən məlum olur ki, bəzi tamahkar insanlar, hətta başqalarının malına da göz dikir, onu əldə etmək üçün əllərindən gələn pis rəftarla öz istəklərinə nail olmaq istəyirlər. Belələri çarəsizlərə yardım etməməklə yanaşı, hətta onların ac və ya tox olduqlarını belə düşünmürlər. Quran bu hərislik və tamah hissini insanın instinktiv xüsusiyyətlərindən hesab edir: *“Həqiqətən, insan həris (tamahkar) və hövsələsiz yaradılmışdır”* (“əl-Məaric”, 70/19).

Hərislik və tamah xüsusiyyəti insanı günaha təşviq etməməlidir. İnsan yalnız təqvaya sahib olmaqla, hərislik və tamaha nəzarət edib nəfsini doğru yola istiqamətləndirə bilər. Allah insana pis işlərdən çəkinməsini təlqin etmişdir (bax: "əş-"Şəms", 91/8). Beləliklə, hərislik və tamah bir çox hallarda gözəl əxlaqın pozulmasına gətirib çıxarır. İnsan özünün ehtiyac duyduğu qədərdən artığına tamah salarsa, həmin istəyini həyata keçirmək üçün istər-istəməz, fərdi və ictimai əxlaqında xoşagəlməz hallara yol verəcəkdir.

## IV. Əxlaqi tənəzzülün həll yolları

Cismani xəstəliklərin müalicəsi və qarşısını alan həll yolları olduğu kimi, əxlaqi mərəzlərin sağalması və davranış tənəzzülünün qarşısını alan amillər də mövcuddur. Müqəddəs İslam dininin göstərişlərində bu məsələyə olduqca təkid olunmuş və diqqət çəkilmişdir. Hazırda onların bəzilərini qeyd edirik:

**1. İman və saleh əməl.** Quranda əxlaqi tənəzzülün əlac yollarından biri Allaha və axirət aləminə iman bəsləmək və bunun kənarında saleh əməllər görməkdir. *"Rəbbinin ruzisi (bərəkəti) həm daha xeyirli, həm də daha əbədidir!"* ("əl-Taha", 20/131) *"O kəslər ki, haqq-hesab gününü təsdiq edərlər"* ("əl-Məaric", 70/26). **"**Yəni onlar qiyamətə, haqq-hesab və mükafata əmindirlər, ona görə də onlar mükafata ümid bəsləyən və əzabdan qorxanlar kimi əməl edirlər" (İbn Kəsir, 1419, VIII/241). Başqa bir ayədə isə namazı və ilahi əhdə vəfalı olmağı əxlaqi tənəzzülün müalicəvi amilləri kimi tanıtdırır: *"Əhlinə (əhli-beytə və ümmətinə) namaz qılmağı əmr et, özün də ona (namaza) səbrlə davam et. Biz səndən ruzi istəmirik, (əksinə), sənə ruzi verən Bizik. (Gözəl) aqibət təqva sahiblərinindir!"* ("əl-Taha", 20/132). Feyz Kaşani əxlaqi mövzuda qələmə aldığı "Məhəccətul-bəyza" kitabında davranış tənəzzülünə gətirib-çıxaran və bir çox ictimai münasibətin pozulmasına səbəb olan hərislik və tamahın müalicəsi haqqında belə yazır: "Hərislik xəstəliyinin müalicəsinin üç sütunu vardır: səbir, elm və əməl. Bunların cəmi beş nəsnədən ibarətdir: birincisi, yaşayış xərclərində orta həddi gözləmək; ikincisi, kifayət qədər mala sahib olmaqla gələcəkdən arxayın olmaq; üçüncüsü, qənaətin faydaları və onun nəticəsini, həris-

lik və tamahın isə ziyanlarını düşünmək; dördüncüsü, əcdadların tarixi, xüsusilə də dünyapərəstlər haqqında fikirləşmək; beşincisi, həmişə dünyəvi və maddi məsələlərdə özündən yuxarı mərtəbələrdə qərar tutanlara deyil, aşağıda olanlara baxmaq" (Kaşani, 1403, XI/54-58). Beləliklə, hərislik və tamah bir çox insanların cəmiyyətdə davranışının pozulmasına gətirib çıxarır. Bu xoşagəlməz xüsusiyyət nəticəsində cəmiyyətdə ciddi problemlər yaranır. Hərislik göstərib, öz haqqından artığını tələb edən şəxs, təbiidir ki, məqsədinə nail olmaq üçün başqaları ilə sağlam və əxlaqlı şəkildə rəftar edə bilməz. Əvvəldə qeyd olunan ayələrdən də göründüyü kimi, Allaha iman və onun kamal sifətlərinə, xüsusilə də Yaradanın həqiqi ruzi verən olmasına etiqad bəsləmək, bundan əlavə, axirətə inanıb saleh əməllər görmək... Bütün bu amillər insanın bir çox pis əxlaq və rəftarının, o cümlədən tamahkarlığından irəli gələn digərləri ilə xoşagəlməz davranışının qarşısını alır. Belə insan, artıq ruzini Allahdan gözləyir, öz ehtiyaclarını təmin etmək üçün lazımi qədər çalışır, ictimai əlaqələrində digərlərinin hüquqlarına təcavüz etməməklə yanaşı, onlarla gözəl əxlaq çərçivəsində rəftar edir. Deməli, psixoloji-əxlaqi cəhətdən qorxulu xəstəlik sayılan hərislik yalnız Allaha və axirət dünyasına inam və saleh əməllərlə müalicə oluna bilər. Batini aramlığa isə ancaq mənəviyyatı gücləndirməklə nail olmaq mümkündür.

**2. İlahi əzabdan qorxmaq.** Əxlaqi tənəzzülün qarşısını alan yollardan biri də İlahi əzabdan qorxmaq və Yaradanı heç zaman yaddan çıxarmamaqdır. İnsanın diqqəti fərdi və ictimai davranışında Allaha və Onun cəzasına cəlb olunarsa, pis rəftarının nəticəsindən qorxaraq, öz mənfi əxlaqından çəkinəcəkdir. Belə bir insan pis rəftarının bir gün öz cəzasına çatacağına yəqinliklə inanır. Allah Quranda buyurmuşdur: *"Sizdən təkcə zalımlara toxunmayacaq (pis əməllərin müqabilində hamıya üz verə biləcək) bəladan qorxun. Bilin ki, Allah (Onun əmrlərini pozanlara) şiddətli əzab verəndir!"* ("əl-Ənfal", 8/25). Bu ayənin sonuncu kəlməsinin izahında qeyd olunur: "Məqsəd odur ki, zülm etməyin. Elə bir əzaba düçar olarsınız ki, ondan qurtulmaq yalnız zülmü tərk etməklə mümkündür" (Təbərsi, 1372, IX/821).

İlahi elçilərin vəzifələrindən biri də insanları əməllərinin nəticələrindən xəbərdar etməkdir. Ən əsası, heç kimin boyun qaçıra bilməyəcəyi İlahi cəzanı xatırlatmaqdır. Bu da bir islami tərbiyə metodu olaraq, başqaları ilə sağlam və düzgün şəkildə rəftar etməkdə çox təsirlidir. Deməli, insan fərdi və ictimai münasibətlərində əxlaq və davranışının tənəzzülə uğramasını istəmirsə, hər bir yaxşı və pis rəftarının dünya və axirətdə nəticəsiz qalmayacağını həmişə diqqətdə saxlamalıdır: *“Kim (dünyada) zərrə qədər yaxşı iş görmüşdürsə, onu (onun xeyrini) görəcəkdir (mükafatını alacaqdır). Kim də zərrə qədər pis iş görmüşdürsə, onu (onun zərərini) görəcəkdir (cəzasını çəkəcəkdir)”* (“əl-Zəlzələ”, 99/7-8).

Məşhur təfsir alimi Qurtubi bu iki ayənin təfsirində yazır: “Kafirlərdən hər kim zərrə qədər yaxşılıq etsə, onun cəzasını dünyada görəcək və axirətdə bu əməlinə görə ona mükafat verilməyəcək. Əgər kafirlərdən kimsə zərrə qədər də olsun pislik etsə, Allaha şərik qoşduğuna görə olan əzabdan əlavə, ona axirətdə cəza veriləcək. Möminlərdən isə kim zərrə qədər pislik etsə, onun cəzasını (axirətdə deyil) dünyada görəcək. Öldüyü zaman da axirətdə həmin pis əməlinə görə ona əzab verilməyəcək və o, bağışlanacaq. Əgər zərrə qədər yaxşılıq etsə, ondan qəbul olunacaq və axirətdə həmin yaxşı əməli onun üçün ikiqat artırılacaq” (Qurtubi, 1364, XX/150).

**3. Günah və pis işlərdən çəkinmək və çəkindirmək.** Günah, ilk növbədə, insanın fərdi əxlaqına ziyan vuran əsas səbəbdir. Beləliklə, insanın Allahla olan bəndəlik münasibəti pozulur. Bir sözlə, insan hər hansı bir İlahi əmri tərk etməklə, Allah qarşısında göstərəcəyi ədəb-ərkandan uzaqlaşmış olur. Nəticədə, günah qəlbi paslandırır (Məmmədov, 2013, II/1097). *“Xeyr (belə deyildir). Əslində, onların qəlblərini qazandıqları (günahlar) qapamışdır”* (“əl-Mutəffifin”, 83/14). Bundan əlavə, cəmiyyət üzvləri bir-birlərinə nisbətdə məsuliyyət daşıyırlar. İnsanın öz əməllərini nəzarətsiz buraxması nəticəsində, onun ailə və cəmiyyətlə olan rəftarında xoşagəlməz hallar yaranır, günah ona ziyan vurur. *“Hər kəs bir günah qazanarsa, mütləq o günahı özünün zərərinə qazanmış olar. Allah hər şeyi biləndir, hikmət sahibidir!”* (“ən-Nisa”, 4/111). Günahdan və pis işlərdən çəkinmək isə insanın

fərdi və ictimai əxlaqının sağlam olmasına çox müsbət təsir göstərir. Allah-Taala Quranda buyurur: *"...Batil sözlər danışmaqdan çəkinin"* ("əl-Həcc", 22/30). Batil sözlərdən məqsəd iftira, qeybət, yalandan şahidlik etməkdir (Şirazi, 1380, XIV/91). Qeyd olunan amillər cəmiyyətin digər üzvləri ilə münasibətdə gündəlik həyatda qarşıya çıxan ən mühüm məsələlərdir. Bu kimi günahlardan çəkinmək insanın fərdi və ictimai əxlaqını tənəzzüldən qoruyur.

Quran digər ayədə insanları yaxşı işlərdə bir-birlərinə kömək etməyə və pis əməllərdən uzaqlaşmaqda yardımlaşmağa dəvət edir: *"...Yaxşılıq etməkdə və pis əməllərdən çəkinməkdə əlbir olun, günah iş görməkdə və düşmənçilik etməkdə bir-birinizə kömək göstərməyin. Allahdan qorxun. Həqiqətən, Allahın əzabı şiddətlidir!"* ("əl-Maidə", 5/2). Sözügedən ayədəki yardımlaşma haqqında bildirilən məsələ bütün ictimai, hüquqi və əxlaqi məsələləri əhatə edən ümum-İslam prinsipidir. Bu prinsipə əsasən, müsəlmanlar yaxşı işlərdə əməkdaşlıq etməlidirlər. Batil hədəflər, yanlış fəaliyyətlər və zülm məqsədilə bağlı əməkdaşlıq tamamilə qadağandır. Maraqlıdır ki, "yaxşılıq etmək" və "təqva"nın hər ikisi yuxarıda göstərilən ayədə birlikdə qeyd olunur. Bunlardan birincisi, təsdiqyönlü olub faydalı əməllərə istinad edir; digəri – inkaryönlü olub, çirkin əməllərin qarşısını almağa yönəlir. Deməli, əməkdaşlıq yaxşılığa dəvət etmək, pisliyə qarşı mübarizə aparmaqla həyata keçməlidir (bax: Şirazi, 1380, IX/253).

**4. Ədalətin icrası.** Əxlaqi tənəzzülün qarşısını alan digər amillərdən biri isə başqaları ilə rəftarda ədalətə riayət etməkdir. "Ədalət" sözünün mənası hər bir nəsnəni öz yerində yerləşdirməkdir. Əgər bir kəs ədalətlə davranarsa, əxlaqi tənəzzüldən özünü sığortalamış olar.*"Ey iman gətirənlər! Allah qarşısında sabitqədəm və ədalətli şahidlər olun. Hər hansı bir camaata qarşı olan kininiz sizi ədalətsizliyə sövq etməsin. Ədalətli olun. Bu, təqvaya daha yaxındır. Allahdan qorxun. Allah etdiklərinizdən xəbərdardır!"* ("əl-Maidə", 5/8). Tanınmış Quran müfəssiri Fəxr Razi yazır: "İnsanın öhdəçilikləri çox olsa belə, onlar iki növlə məhdudlaşır: Uca Allahın əmrinə təzim etmək və Allahın yaratdıqlarına şəfqət göstərmək. Ayənin birinci hissəsi hər iki öhdəçiliyə işarə edir. Allaha təzim etməyin mənası isə Ona bəndəlik və Rəbb

olmasına sitayiş etməkdir” (Fəxr Razi, 1420, XI/320). Bu ayə öncə imanlı şəxsləri ədalətlə rəftar etməyə səsləyir. Sonra, ədalətdən kənara çıxma faktorlarından birinə işarə edərək, müsəlmanlara xəbərdarlıq göndərir: başqalarına olan kin-küdurət, yaxud şəxsi düşmənçilik ədalətin icrasına mane olmamalıdır. Ədalət bunlardan daha ucadır.

Mövzunun əhəmiyyətini bir daha nəzərə alıb, ayədə ədalət məsələsinə istinad edilir: “Ədalətə yiyələnin, çünki o, təqvaya daha yaxındır”. Müasir təfsir alimlərindən biri bu barədə yazır: “Ədalət təqvanın ən vacib pilləsi olduğundan, üçüncü dəfə təkidlə vurğulanır: “Allahdan qorxun, çünki Allah sizin bütün əməllərinizdən agahdır” (Şirazi, 1380, IV/300). Beləliklə, ədalət təqvanın əsas sütunu sayılır. Ədalət əsasında rəftar edən hər kəs onun təqvaya yaxınlığı səbəbindən, əxlaqi tənəzzülə uğramaqdan daha çox özünü qoruya bilər. Təqvanın mənası və nəticəsi insanın özünü və rəftarını pis və xoşagəlməz hallardan qorumaqdır.

## Nəticə

Aparılan tədqiqatın hasili olaraq aşağıdakı nəticələri qeyd etmək olar:

Allah insanı varlıqların ən üstünü yaratmış, ona xüsusi dəyər vermişdir. İnsan isə bu İlahi dəyəri özünü kamilliyə çatdırmaqla qiymətləndirə bilər. İnsanı kamilliyə çatdıran amillərdən biri də onun sağlam və gözəl əxlaqa yiyələnməsidir. Buna nail olmaq üçün isə cəmiyyət yaxşı bir zəmin ola bilər. İnsan sosial varlıqdır və bir çox maddi-mənəvi ehtiyaclarını məhz cəmiyyət vasitəsilə həyata keçirir.

Məlum olur ki, Quran insanın hidayəti üçün əhəmiyyət kəsb edən bir çox məsələləri özündə ehtiva edən bir kitabdır. Həmin mövzulardan biri insan həyatının ayrılmaz hissəsi sayılan əxlaqdır. Buna görə də Quran ayələrində əxlaq mövzusu hərtərəfli və geniş şəkildə bəyan edilmişdir. Belə ki, insanın fərdi və ictimai yaşayışında ona su və hava kimi lazım olan fərdi və ictimai əxlaq qaydaları açıqlanmışdır. O cümlədən insanın Allah ilə, özü, ailə üzvləri və cəmiyyətlə olan əxlaq qaydalarıdır.

Quran əxlaq və rəftar qaydalarını çatdırmaqdan əlavə, əxlaqın tənəzzülə uğramasında təsirli səbəbləri də bəyan edir. Bu isə Quranın əxlaq mövzusuna verdiyi dəyərə və onun bu məsələyə ətraflı şəkildə yanaşmasına bariz bir sübutdur.

Məlum olduğu kimi, əxlaqi tənəzzülə gətirib-çıxaran amillər birbaşa insanın fərdi və ictimai əxlaqına ziyan vurur, onun tənəzzülə uğramasına zəmin yaradır. Bunlar nəfsi istəklər, qəflət, bədgümanlıq və hərislikdir. Bu rəzil sifətləri daim nəzarətdə saxlamaq, onları ağıl və din əsasında islah etmək, əxlaqi tənəzzülün qarşısını almaqda Quran müstəsna rola malikdir. Digər tərəfdən, aydın olur ki, əxlaqi tənəzzülün qarşısını alan – Allaha qəlbən inanmaq, günahlardan çəkinmək, ilahi əzabdan qorxmaq və ədalətin icrası kimi – həll yolları da vardır. Onları tanımaq və aradan qaldırmaq nəticəsində, insan öz fərdi və ictimai fəaliyyətlərində əxlaqi tənəzzüldən qurtulmuş olur. Bu isə fərdi və ictimai münasibətlərdə insanın sağlam əxlaqa sahib olması ilə nəticələnir.

## Ədəbiyyat

Qurani-Kərim. (2016). Bakı, Azərbaycan dilinə tərcümə edənlər: Ziya Bünyadov, Vasim Məmmədəliyev.

Bəyzavi, A.Ö. (1418 h.q). Ənvarut-tənzil və Əsrarut-təvil təfsiri, 5 cilddə, Beyrut, İhyaut-turasil-ərəbi nəşriyyatı.

Fəxr Razi, M.Ö. (1420 h.q). Əl-Kəbir (Məfatihul-Ğəyb) təfsiri, 32 cilddə, Beyrut, İhyaut-turasil-ərəbi nəşriyyatı.

Həmədani, M.H. (1404 h.q). Ənvare derəxşan təfsiri, 18 cilddə, Tehran, Lütfi adına kitab mağazası nəşriyyatı.

İbn Kəsir, İ.Ö. (1419 h.q) Quranul-əzim təfsiri, 9 cilddə, Beyrut, Məhəmmədəli Bəyzun nəşriyyatı.

İbn Mənzur, M.M. (1414 h.q). Lisanul-ərəb, 15 cilddə, Beyrut, Darul-fikr lit-tibaəti vən-nəşri vət-təvziy nəşriyyatı.

Kaşani, M.M.F. (1403 h.q). Muhəccətul-bəyza, 2 cilddə, Beyrut, Ələmi nəşriyyatı.

Kuleyni, M.Y. (1407 h.q). Əl-Kafi, Tehran, Darul-kutubil-islamiyyə nəşriyyatı.

Qurtubi, M.Ə. (1364 h.ş). əl-Camiu li-əhkamil-Quran təfsiri, 20 cilddə, Tehran, Nasir Xosrov nəşriyyatı.

Məclisi, M.B. (1403 h.q). Biharul-ənvar, 110 cilddə, Beyrut, Əl-Vəfa müəssisəsi nəşriyyatı.

Məhəmmədzadə, R. (1420 h.q). Həzrət Muhəmmədin simasında İslam əxlaqı, 1 cilddə.

Məmmədov, E. (2013). Fehrist (Quran ayələrinin mövzular üzrə təsnifatı), 3 cilddə, Bakı.

Misbah Yəzdi, M.T.M. (1376 h.ş). Əxlaq dər Quran, Qum.

Musəvi Lari, (2011). Psixoloji və əxlaqi problemlərin həlli, 1 cilddə, Bakı, Parlayan Günəş nəşriyyatı.

Səalibi, Ə.M. (1418 h.q). Cəvahirul-hisan fi təfsiril-Quran, 5 cilddə, Beyrut, İhyaut-turasil-ərəbi nəşriyyatı.

Şirazi, N.M. (1380 h.ş). Nümunə təfsiri, 27 cilddə, Tehran, Darul-kutubul-islamiyyə nəşriyyatı.

Şirazi, N.M. (2011). Əxlaq sayəsində sağlam həyat, 1 cilddə, Qum, Əl-Mustəfa nəşriyyatı.

Təbatəbai, M.H. (1417 h.q). Əl-Mizan təfsiri, 20 cilddə, Qum, İntişarate islami cameye muderrisin hozeye elmiyye nəşriyyatı.

Təbərsi, F.H. (1372 h.ş). Məcməul-bəyan fi təfsiril-Quran, 10 cilddə, Tehran, Nasir Xosrov nəşriyyatı.

Yəhyazadə, N. (2020). Haqqun-nas (cəmiyyət və ailənin mənəvi sağlamlığında rolu) – Tematik təfsir, 1 cilddə, Bakı, Nurlar nəşriyyatı.

Zəməxşəri, M.Ö. (1407 h.q). Əl-Kəşşaf ən həqaiqi ğəvamizit-tənzil və uyunil-əqavili fi vucuhit-təvil təfsiri, 4 cilddə, Beyrut, Darul-kutubil-ərəbi nəşriyyatı.

# مسائل أصول الفقه التي اعتمد عليها الشيخ خير الدين الرملي الحنفي في رسائله (عرض وتوضيح)

أيمن المبحوح
طالب دكتوراه جامعة مرمرة، كلية الإلهيات، قسم التشريع الإسلامي.
مرمرة، تركيا
ayman.mabhouh@gmail.com
https://orcid.org/0000-0002-3960-7403

تاريخ الوصول:19.03.2024
تاريخ الموافقة على النشر:17.05.2024

**الملخص**

هذه المقالة تُقدم دراسة لمسائل أصول الفقه التي اعتمد عليها الشيخ خير الدين الرملي رحمه الله في رسائله، وذلك بأسلوب عرض هذه المسائل وتوضيح استفادة الشيخ منها، وتهدف من ذلك إلى تمهيد السبيل للوقوف على منهجه الفقهي. وقد احتوت في التمهيد منها على التعريف بالشيخ خير الدين الرملي، وذكر عدد من شيوخه وكذلك عدد من طلابه، ثم الكشف عن أهمية دراسة رسائل العلماء والعناية بها وخصوصا رسائل الشيخ خير الدين الرملي، وفي المبحث الأول كان الحديث عن مصادر أصول الفقه التي نقل عنها الشيخ خير الدين الرملي في رسائله، وكذلك الكشف عن أثر هذه المصادر على رؤية الشيخ الفقهية، ثم تناول المبحث الثاني عرض للمسائل الأصولية التي أسس من خلالها الشيخ خير الدين رؤيته الفقهية وحدد منهجه الفقهي الذي اعتمده في بحث تلك المسائل، كمسألة عدم إمكان صدور قولين مختلفين متساويين من مجتهد، ومسألة الاستدلال بإشارة النص، ومسألة تقديم قول الصحابي، ومسألة عموم كل وأي، ثم اختتمت المقالة بأهم النتائج والتي منها أن الشيخ رحمه الله عزز رؤيته الفقهية من خلال الاستدلال لها بأصول الفقه، كما أن الرسائل العلمية الخاصة بالعلماء السابقين فيها من المعلومات المركزة المفيدة ما قد ينافس الأبحاث المحكمة في زماننا لذا فلا بد من العناية بها.

**الكلمات المفتاحية:** الفقه ,التشريع الإسلامي، أصول الفقه، خير الدين الرملي، رسائل، مسائل الأصول، المنهج الفقهي، فقه.

جميع حقوق النشر للمقالات المنشورة في مجلتنا تعود إلى المؤلفين أنفسهم، ويتم نشرها بشكل مفتوح للجميع بموجب ترخيص CC-BY-NC

# Issues of Jurisprudential Fundamentals relied upon by Sheikh Khair al-Din al-Ramli al-Hanafi in his Letters "Presentation and Clarification"

***Ayman A. A. Almabhouh***
PhD student Marmara University,
Faculty of Theology,
Department of Islamic Jurisprudence
Marmara, Turkiye
ayman.mabhouh@gmail.com
https://orcid.org/0000-0002-3960-7403

Date of submission: 19.03.2024
Date of acceptance: 17.05.2024

## Abstract

This article offers a study of the usul al-fiqh principles relied upon by Sheikh Khair al-Din al-Ramli in his letters, analyzing these principles and exploring their influence on his fiqh approach. The article aims to provide a comprehensive understanding of the Sheikh's fiqh methodology.

The preface introduces Sheikh Khair al-Din al-Ramli, his teachers, and his students as well as the significance of studying the letters of scholars, particularly those of Sheikh Khair al-Din al-Ramli. The article then discusses two main research areas. The first section examines the sources of usul al-fiqh principles cited by Sheikh Khair al-Din al-Ramli in his letters and their impact on his fiqh vision. The second section presents the specific usul al-fiqh issues that introduced the Sheikh's fiqh approach, including the impossibility of multiple, equal opinions from a mujtahid, inference from textual indications, the precedence of Sahabi sayings and the generality of every and any.

The article concludes by summarizing its main findings, focusing on the fact that Sheikh Khair al-Din al-Ramli strengthened his fiqh

vision by deriving it from usul al-fiqh principles. Moreover, the letters of past Islamic scholars contain valuable information that can be compared to contemporary scholarly research, emphasizing the importance of paying attention to these sources.

**Keywords:** *Fiqh, Islamic Sharia, Usul al-Fiqh, Khair Al-Din Al-Ramli, Letters, Fundamental Issues, Jurisprudential Approach, Jurisprudence.*

*The copyright of the articles published in our journal belongs to the authors and is published as open access under CC-BY-NC license.*

# Вопросы основ юриспруденции, на которые опирался в своих трактатах Хайр ад-Дин ар-Рамли аль-Ханафи “Изложение и разъяснение”

***Айман А. А. Альмабхух***
Докторант Университет Мармара, Факультет теологии,
Кафедра исламского законодательства
Мармара, Турция
ayman.mabhouh@gmail.com
https://orcid.org/0000-0002-3960-7403

Дата подачи статьи в редакцию: 19.03.2024
Дата подтверждения статьи к публикации: 17.05.2024

## Резюме

Эта статья предлагает исследование вопросов 'усул аль-фикх, на которые опирался шейх Хайр ад-Дин ар-Рамли в своих трактатах, представляя эти вопросы и разъясняя, как шейх использовал их, и стремится проложить путь к выявлению его подхода к фикху. В предисловии дается представление о шейхе Хайр ад-Дине ар-Рамли, упоминается ряд его шейхов и учеников, затем раскрывается важность изучения и бережного отношения к письмам ученых, особенно к письмам шейха Хайр ад-Дина ар-Рамли. В первом исследовании - источники принципов "усул аль-фикх", которые шейх Хайр ад-Дин ар-Рамли цитировал в своих трактатах, а также раскрывает выявление влияния этих источников на фикх-видение шейха, затем второй раздел посвящен изложению вопросов "усул аль-фикх", на основе которых шейх сформировал свое фикх-видение, и определению методологии, принятой им при обсуждении этих вопросов. Например, вопрос о невозможности двух разных и одинаковых мнений от одного муджтахида, вопрос о выводе по указанию текста, вопрос о приоритете высказываний сахабов, а также вопрос об общности каждого и любого. Затем в заключение статьи приводятся основные выводы, в том числе

шейх укрепил свое видение фикха, почерпнув его из усул аль-фикх. Кроме того, письма исламских ученых прошлого содержат большое количество концентрированной и полезной информации, которую можно сравнить с рецензируемыми научными исследованиями в наше время, поэтому важно обращать на них внимание.

***Ключевые слова:*** *Фикх, Исламский шариат, Усуль аль-Фикх, Хайр ад-Дин ар-Рамли, трактаты, основополагающие вопросы, методология юриспруденции, правоведение.*

Авторские права на статьи, опубликованные в нашем журнале, принадлежат авторам и публикуются в открытом доступе по лицензии CC-BY-NC.

## المقدمة

تُعتبر دراسة المسائل التي بحثها علماء المسلمين من خلال تحليل ووصف ما أنتجوه في مصنفاتهم وكتبهم من الوسائل المهمة في بناء النظرة الفقهية للدارسين، ليتمكَّن دارس العلوم الشرعية من فهم نمط تفكير العالم، ومن ثمَّ يستطيع الباحث المعاصر أن يبني على ما أنتجه وقدمه العالم السابق وذلك بما يخدم الواقع المعاصر الذي يعيشه الباحث والدارس، ويُعتبر الشيخ المفتي خير الدين الرملي الحنفي من العلماء الأقلاء الذين تولَّوا منصب الإفتاء وتمتعوا بشهرة علمية فاقت البيئة الجغرافية التي كانوا يعيشون فيها، بل إن الشيخ خير الدين الرملي ورغم أن تفاعل الفتاوى تحديدا يكون محصورا ضمن الإطار الزماني الذي يعيشه المفتي إلا أن الشيخ قد تعدى بيئته الزمانية كذلك، لذا نجد في فتاواه ورسائله الفقهية مسائل كان يُسأل عنها من غير مدينته الرملة بفلسطين، فنجد أنه قد كانت تأتيه الفتاوى والمسائل من غزة والقدس ونابلس وغيرها من مدن فلسطين، بل ومن مصر ودمشق، وحتى من إسطنبول حاضرة الدولة العثمانية في ذلك الزمان، واهتم العلماء بهذه الفتاوى والرسائل وغيرها من مصنفات الشيخ حتى بعد وفاته، فنجد بحوث الشيخ ابن عابدين قد التصقت بما قدمه الشيخ من كنوز علمية، ونجد عددا من الباحثين المعاصرين قد قاموا بإعداد دراساتهم في مختلف المجالات من خلال الاعتماد على فتاوى الشيخ خير الدين رحمه الله تعالى، وفي هذا البحث عرض وتوضيح للمسائل الأصولية التي اعتمد عليها الشيخ خير الدين في رسائله، مما يسهم في تجلية هذه المسائل ويُساعد في الكشف عن أثرها على الشيخ وعلى بنائه العلمي، وهذا يُعين في توضيح منهجه الفقهي الذي يُمهِّد للباحثين اقتفاء آثار هذا العالم الجليل من خلال إنتاج فتاوى شرعية تخدم الواقع المعاصر دون أن تكون منفكَّة عن الرؤية الفقهية التي بناها علماء المسلمين عبر تاريخ الفقه الإسلامي الممتد لمئات السنين.

ويُلاحظ أن هذه الدراسة يُمكن اعتبارها الدراسة الأولى التي تبحث المسائل الأصولية عند الشيخ المفتي خير الدين الرملي الحنفي، فلم يقف الباحث على دراسة مستقلة تعالج هذه المنهجية عنده رغم وجود عدد من الرسائل الجامعية والأبحاث العلمية التي اعتمدت على موروث الشيخ الفقهي إلا أن واحدة منها لم تتطرق إلى بحث هذه المسائل، وتقديم عرض لما بنى عليه الشيخ نظرته الأصولية والفقهية على حد سواء، ولعلَّ هذا الإسهام العلمي يحدوا بطلاب الدراسات الشرعية أن يزيدوا من العناية بمورث علمائنا من ناحية إخراجه وتحقيقه، إلى جانب دراسته بأساليب تخدم الواقع.

## التمهيد:

### التعريف بالشيخ خير الدين الرملي:

هو الشيخ خير الدين بن أحمد بن نور الدين علي بن زين الدين بن عبد الوهاب الأيوبي العُلَيمي الفاروقي الرّملي الحنفي، صاحب الفتاوى الخيرية لنفع البرية، وُلد في مدينة الرملة، وهي مدينة فلسطينية تقع إلى الغرب من مدينة القدس، وعلى الطريق الواصل لشمال فلسطين بجنوبها، وقد اشتُهرت بالزراعة والتجارة (الموسوعة الفلسطينية، 1984، II/472؛ العياشي، 2006، II/415).

تأتي نسبة الشيخ إلى الرَّملي من خلال الانتساب إلى مدينة الرملة التي ولد بها أوائل شهر رمضان المبارك من عام 993 هـ، ونشأ فيها في بيت علم وصلاح، وتتلمذ في طفولته على يد الشيخ موسى الغُبِّي الذي تعلَّم منه التجويد وتلاوة القرآن الكريم، وقرأ عليه شيئا من الفقه الشافعي، ثم انتقل مع أخيه الكبير الحاج عبد النبي وذلك سنة 1007هـ إلى مصر لدراسة الفقه في الجامع الأزهر، وكان عمره آنذاك لم يتجاوز الرابعة عشرة، وبعد وصوله إلى مصر تحوَّل لدراسة المذهب الحنفي ليوافق بذلك أخاه بناءً على رؤية رآها في منامه، ثم بعد أن أنهى دراسة الفقه الحنفي على أيدي علماء الأزهر الشريف عاد إلى بلده الرملة، وانطلق فيها يعلم الناس أمر دينهم، ويفتيهم فيما يحتاجون إليه من مسائل الفقه، حتى ذاع صيته وأصبح محطَّ أنظار الناس في بلاد الشام ومصر وحتى في حاضرة الخلافة العثمانية آنذاك، فأصبحت تأتيه الفتاوى من كافة مناطق فلسطين ومن خارجها أيضا، وكان له اتصال بعلماء زمانه من خلال المراسلات والمكاتبات وغيرها.

وقد استمرَّ الشيخ طيلة حياته في صحبة العلم والعلماء، ولم يكن في حياته معتمدًا على الوظائف، فرغم انتشار وظائف الإفتاء وغيرها في الدولة العثمانية إلا أن الشيخ رحمه الله لم يكن موظفًا، وإنما كان يعتمد في حياته على ما يُنتجه من زراعة الأشجار والحقول وغيرها، وكان أبناؤه ومن يثق بهم يقومون بالتصرُّف في أملاكه وأمواله، فرغم ثراه إلا أنه رحمه الله لم يكن حريصًا على ما يأتيه من مال، بل يُوكِّل من يتصرَّف له في ماله، واستمر عابدًا زاهدًا معلمًا للناس ومفتيًا لهم إلى أن وافته المنية في مدينته الرملة وذلك عام 1081هـ، ودفن بها وقد رثاه تلاميذه وعلماء زمانه وعامة الناس لما كان له من فضل عليهم في العلم وفي شؤون الحياة. (الجنيني، 1108هـ/1696م، 30؛ المحبي، 2010، II/134؛ الحنبلي، 1990، 95).

**أبرز شيوخ الرملي وتلاميذه:**

تَفَقَّه الشيخ الرملي على عدد من العلماء منهم:

1. الشيخ موسى بن حسن الغُبِّي الشافعي الرملي، وكانت أمُّ الشيخ خير الدين ربيبة للشيخ موسى رحمه الله.
2. الشيخ فائد المصري الأزهري، وهو من العبّاد الزُّهاد الذين لازمهم الشيخ وأخذ عنه التصوُّف وشيئًا من علم الحديث.
3. الإمام العلَّامة الشيخ عبد الله بن محمد النحريري الحنفي الأزهري، ودَرَسَ عليه الفقه الحنفي، وحصلت له من خلاله الإجازة في التعليم والإفتاء.
4. الشيخ المفتي محمد بن محمد الحانوتي، ودَرَسَ عليه متن كنز الدقائق وغيره، وحصل له من خلاله أيضا إجازات علمية.
5. الشيخ أحمد بن محمد أمين الدين بن عبد العال الحنفي، وقرأ على يديه الفقه الحنفي أيضا، وحصلت له منه إجازة علمية.
6. الشيخ محمد ابن بنت الشلبي، والشيخ محمد ابن بنت محب، ودرس عليهما أصول الفقه.
7. الشيخ سالم السنهوري محدث الأزهر الشريف، ودرس عليه الحديث.

8. الشيخ أبو بكر بن إسماعيل الشنواني النحوي، ودرس عليه النحو وغيره من علوم العربية.

وقد تفقه على يدي الشيخ الرملي عددٌ كبيرٌ جدًا من التلاميذ، وحَصَلوا من خلاله على الإجازات العلمية، منهم باختصار:

1. الشيخ محيي الدين بن الشيخ خير الدين الرّملي.
2. الشيخ نجم الدين بن الشيخ خير الدين الرّملي.
3. الشيخ محمد تاج الدين الرّملي.
4. الشيخ محمد الأشعري مفتي الشافعية في مدينة القدس.
5. الشيخ إبراهيم بن سليمان الجنيني.
6. الشيخ عبد الرحيم بن أبي اللطف.
7. المفتي عمر بن عبد القادر المشرقي المفتي بمدينة غزة.
8. السيد محمد بن كمال، نقيب علماء مدينة دمشق.
9. العلامة المشهور محمد بن علي الملقب بعلاء الدين الحصكفي الدمشقي.
10. المؤرخ عبد الله بن محمد بن بكر العياشي المغربي.
11. الصدر الأعظم في إسطنبول الشيخ مصطفى باشا الكوبرلي وأبناؤه.

وغيرهم الكثير سواء ممن أخذ الشيخ عنهم العلم أو أخذوا عن الشيخ العلم، وقد أثبت الشيخ نجم الدين ابن الشيخ خير الدين أسماء العلماء الذين درس عليهم الشيخ خير الدين الرّملي وأسماء الطلاب الذين دَرَسوا على يده في ديوان كبير اشتمل على إجازات الشيخ ومن أجازه وشيء كبير من كتابات الشيخ ومراسلاته ومن كتب إليه وراسله (الرملي، 1081هـ/ 1670م، (2)، 46-74).

**أهمية رسائل الشيخ خير الدين الرملي:**

تبرز أهمية رسائل العلماء بشكل عام، ورسائل الشيخ خير الدين الرملي من خلال أمور أهمها:

1. أن الرسائل تشبه إلى حد كبير الأبحاث العلمية المركَّزة التي تتصل بمسألة ما وتبحثها من كل جوانبها، فهذا يعطي رسائل العلماء بشكل عام أهمية بالغة لأنها تركز على جزئية محددة ويكون العالم قد بحثها من كافة جوانبها.

2. تبرز أهمية رسائل الشيخ خير الدين الرملي من خلال العلماء الذين راسلوه في طلبها، فكل رسائل الشيخ كانت بناءً على طلب من أحد علماء وأعلام زمانه، وهذا يُضفي على رسائل الشيخ خير الدين مِيزة مُضافة، فهي مرسلة في طلبها من قبل عالم فضلا عن صدورها على يد عالِم، فتكون أقرب ما يكون إلى الأبحاث العلمية المحكَّمة. يُلاحظ هذا من خلال ما حدث من ردٍّ على رسالة الشيخ خير الدين الرملي والتي كتبها بناء على طلب من الشيخ مفتي السلطنة العثمانية شيخ الإسلام يحيى أفندي الملقب بمنقاري زاده، يسأله فيها توضيح القول في مسألة من قال إن فعلت كذا فهو كافر، وبعد

أن أوضح الشيخ خير الدين له المسألة في رسالة خاصة، عاد مرة أخرى وطلب مزيدَ توضيحٍ من الشَّيخ حول بعض القضايا التي وردت فيها. (الرملي، 1081هـ/ 1670م، (1)، 304).

3. وتبرز كذلك أهمية رسائل الشيخ خير الدين الرملي من خلال العلماء الأعلام الذين اعتمدوا عليها في بحوثهم وكتبهم، سواء بالأخذ بما فيها من رأي مختار، أو سعيٍ في نقدها وتوضيح الرأي الأصوب، وقد اعتمد على رسائل الشيخ خير الدين عدد من العلماء الذين جاؤوا بعده، ولعل من أبرزهم الإمام ابن عابدين رحمهم الله جميعًا.

